DAVAMLI İNKİŞAF HAQQINDA HESABAT 2024

# MƏQSƏDYÖNLÜ İNKİŞAFA TƏKAN


2024-CÜ İLDƏ SOCAR-A BAXIŞ
Səhifə ........ 07 →

NEFT-QAZ ƏMƏLİYYATLARI VƏ "XALİS SIFIR" ÖHDƏLİYİNƏ SƏYAHƏT
Səhifə ........ 17 →

İNSANLARIN QORUNMASI
Səhifə ........ 62 →





SOCAR

# YAŞIL DÜNYA HƏMRƏYLİYİ

Bu il Azərbaycan üçün mühüm bir mərhələ oldu, çünki ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində keçirilən Tərəflərin 29-cu illik Konfransına (COP29) ev sahibliyi etdi. Tərəflər Konfransı (COP) iqlim dəyişikliyinə qarşı mübarizə sahəsində ali qərarverici orqan kimi fəaliyyət göstərərək tarixən qlobal davamlılıq siyasətlərinin, o cümlədən Paris Sazişinin formalaşdırılmasında mühüm rol oynamışdır. Bakı şəhərində keçirilmiş tədbir təxminən 200 ölkəni və ümumilikdə 65000 qeydiyyatdan keçmiş iştirakçını bir araya gətirərək, tarixin ikinci ən böyük konfransına çevrilmişdir. İqlim fəlakətlərindən əhalinin və iqtisadiyyatların qorunması, eləcə də təmiz enerji genişlənməsindən, karbon kreditləri mexanizmlərindən və şəffaflıq tənzimləmələrindən faydalanması məqsədilə iqlim maliyyəsi sahəsində mühüm irəliləyişlər əldə edildi. Bu sahədə aşağıdakı mühüm irəliləyişlər əldə edilmişdir:

- İnkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyəsi vəsaiti 2035-ci ilə qədər üç dəfə artaraq 100 milyard ABŞ dollarından 300 milyard ABŞ dollarına yüksələcəkdir.
- Dövlət və özəl sektorun maliyyə töhfələri 2035-ci ilə kimi ildə 1,3 trilyon ABŞ dollarına qədər artacaqdır.
- Bir neçə illik danışıqlardan sonra karbon bazarları üzrə mühüm razılaşma əldə edilmişdir.
- İqlimlə bağlı şəffaf hesabatlılıq və uyğunlaşma bazası gücləndirilmişdir.

Azərbaycan yaşıl keçidi sürətləndirmək, beynəlxalq əməkdaşlığı möhkəmləndirmək və iqlim dəyişikliyinə qarşı davamlılığı gücləndirmək üçün bu tarixi fürsətdən istifadə etmişdir. SOCAR isə strateji tərəfdaşlıqlar, innovasiyalar və məsuliyyətli liderlik vasitəsilə dayanıqlılığa olan sadiqliyini bir daha nümayiş etdirərək bu təşəbbüslərdə mühüm rol oynamışdır. SOCAR qlobal tərəfdaşlarla fəal şəkildə əməkdaşlıq edərək dayanıqlı enerjinin əsas təminatçısı kimi regiondakı mövqeyini bir daha təsdiqləmişdir. Şirkət qitələrarası sənaye həmkarları və tənzimləyici qurumlarla birgə əməkdaşlıq çərçivəsində mühüm dəyişikliklərə təkan vermişdir.

SOCAR konfrans boyunca ekspertlərin rəhbərlik etdiyi bir sıra tədbirlər əsasında qlobal gündəliyi formalaşdırmışdır. Bu sessiyalar metan emissiyalarının azaldılması, neft-qaz sektorunun dekarbonizasiyası və enerji keçidi məqsədlərinin dəstəklənməsində infrastrukturun rolu kimi mühüm mövzuları əhatə etmişdir. SOCAR-ın töhfələrində iqlimlə bağlı məqsədlərə nail olmaq üçün birgə səylərin artırılması ön plana çəkilir. Bundan başqa, son beş il ərzində qlobal miqyaslı pandemiya, müharibə, iqtisadi tənəzzül və artan xərclər fonunda formalaşan enerji keçidinin mürəkkəbliyinə baxmayaraq, şirkətin sektor miqyaslı transformasiyaya göstərdiyi sadiqlik xüsusi olaraq vurğulanmışdır.

SOCAR davamlı inkişafa olan sadiqliyi və təcrübəsi sayəsində COP29-da enerjiyə məsuliyyətli keçidin əsas müdafiəçisi kimi çıxış etmişdir. Beynəlxalq tərəfdaşlarla imzalanmış 20-dən çox müqavilə SOCAR-ın dəyişikliklərə təkan verən katalizator rolunu gücləndirmiş və şirkətin uzunmüddətli strategiyasında dayanıqlılığın mərkəzi mövqe tutmasını təmin etmişdir. Qlobal enerji çağırışları artdıqca, SOCAR innovasiya və əməkdaşlıq missiyasını əzmkar şəkildə davam etdirir və daha dayanıqlı gələcəyə keçidi təmin edir.






SOCAR

# MÜNDƏRİCAT

## Davamlılığın Qlobal Mandata Uyğunluğu

2024-cü ildə SOCAR ilk rəsmi ESG reytinqini əldə etməklə "davamlılıq səyahətində" mühüm mərhələyə qədəm qoydu. Belə ki, törəmə müəssisələrdən 3 000-dən çox məlumat toplanılmış və SOCAR-ın əməliyyatlarının faktiki vəziyyətini əks etdirmək üçün xüsusi işçi qrupu səfərbər edilmişdir. Şirkət bu fəal yanaşma əsasında ESG şəffaflığına olan tələbata cavab verir və qlobal investorların gözləntilərinə strateji cəhətdən uyğunluq nümayiş etdirir.

MSCI şirkəti ilə əməkdaşlıq çərçivəsində SOCAR ilk ESG reytinqini əldə etmiş və davamlılıq göstəriciləri üzrə regionda lider mövqə tutmuşdur. İlk ilində "BBB" reytinqi əldə edən SOCAR Xəzər regionunda bu səviyyəyə çatan ilk şirkət olmuş və neft-qaz sektorundakı beynəlxalq həmkarları arasında sabit orta səviyyəli reytinqi təmin etmişdir.

ESG qiymətləndirməsində SOCAR-ın fəaliyyət dayanıqlılığı və ESG faktorlarının idarə edilməsi baxımından uzunmüddətli risklərə dair məlumatlılığı xüsusilə vurğulanır. Bu nəticələr investor etimadının gücləndirilməsində möhkəm təməl rolunu oynayır və şirkətin uzunmüddətli strateji bazasına ESG prinsiplərinin daha dərindən inteqrasiya etməsinə zəmin yaradır.


Giriş ..... 01
Prezidentin müraciəti ..... 04
Hesabat haqqında məlumat ..... 05
Şirkət haqqında məlumat ..... 06
Əhəmiyyətliliyin qiymətləndirilməsi ..... 12
Maraqlı tərəflərin cəlb edilməsi ..... 14
SOCAR-ın biznes və sənaye fəaliyyəti ..... 15
İqtisadi təsirlər və göstəricilər ..... 21
Dayanıqlı idarəetmə ..... 24
Dürüst idarəetmə ..... 25
İdarəetmənin təməli ..... 26
Biznes etikası ..... 34
Risk idarəetmə bazası ..... 37
Innovasiya və rəqəmsal həll yolları ..... 40
Təchizat zəncirinin idarə edilməsi ..... 42
Ətraf mühitə təsirlərin minimuma endirilməsi ..... 45
Ətraf mühitin qorunması ..... 46
İstixana effekti yaradan qaz emissiyaları ..... 50
Enerji ..... 53
Su təsərrüfatının idarə edilməsi ..... 55
Materialların istifadəsi, tullantılar və dövrilik ..... 57
Havanın keyfiyyəti ..... 58
Biomüxtəliflik və ekoloji rifah ..... 59
Torpaq ehtiyatlarının idarə edilməsi ..... 60
İnsanlara qayğı ..... 61
İnsanların qorunması ..... 62
Əmək münasibətləri ..... 67
Təlimlər və peşəkar inkişaf ..... 69
İşçilərin rifahı ..... 72
Əmək münasibətlərinin idarə edilməsi ..... 74
İcma Tərəfdaşlığı ..... 79
İnsan Haqları ..... 81
Səmərəlilik Göstəriciləri ..... 82
GRI Məzmun İndeksi ..... 112
Təminat bəyanatı ..... 131
Hesabatın əsasları ..... 136



Hörmətli tərəfdaşlar,

Məmnuniyyət hissi ilə Sizə SOCAR-ın Davamlı İnkişaf Haqqında İllik Hesabatının 14-cü buraxılışını təqdim edirik. Bu hesabat normativ-hüquqi tələblərə uyğunluğu təmin etməklə yanaşı, korporativ dəyərlərimizi, strateji baxışımızı və dayanıqlı tərəqqiyə sadiqliyimizi əks etdirir. Şəffaflıq, məsuliyyət və uzunmüddətli dəyər yaratmaq SOCAR-ın davamlı inkişaf strategiyasının əsasını təşkil edir.

2024-cü il ölkəmiz üçün mühüm tarixi nailiyyətlərlə yadda qaldı. Azərbaycan BMT-nin ikinci ən böyük tədbiri olan COP29-a uğurla ev sahibliyi etdi və qlobal iqlim gündəliyinə dəyərli töhfə verdi. Bu çərçivədə inkişaf etməkdə olan ölkələr üçün 300 milyard ABŞ dolları məbləğində iqlim maliyyələşmə öhdəliyinin açıqlanmasını vurğulamaq istərdim. SOCAR milli enerji şirkəti olaraq COP29-da təkcə ev sahibi ölkənin təmsilçisi deyil, həm də qlobal iqlim həllərinə fəal töhfə verən, əməkdaşlıq etmək və birgə fəaliyyət göstərmək əzmində olan tərəfdaş qismində çıxış etdi.

2024-cü ildə dünyada baş verən geosiyasi proseslər, enerji bazarlarında müşahidə edilən dəyişikliklər və tələblə təklif arasındakı uyğunsuzluq enerji sistemlərinin dayanıqlılığını ciddi şəkildə sınaqdan keçirdi. Bununla belə, SOCAR uğurlu fəaliyyət göstərərək regionun və Avropanın enerji təhlükəsizliyində strateji rol oynayaraq etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirdi.

Hesabat dövründə biz iqlimlə bağlı təşəbbüslərin korporativ strategiyamıza və idarəetmə sistemimizə inteqrasiyasını sürətləndirməyə nail olduq. Bununla yanaşı, investisiya portfelimizdə aşağı karbonlu enerji həllərinin payını daha da genişləndirdik. Hazırda üç böyük günəş və külək enerjisi layihəsinin icrası davam etdirilir və illik 2 milyard 305 milyon kVt/saat elektrik enerjisi istehsalı nəzərdə tutulur. Eyni zamanda yeni əməkdaşlıq sazişləri bərpa olunan enerji layihələrinin miqyasının daha da genişləndirilməsinə imkan yaradır.

Bütün bu təşəbbüslər beynəlxalq miqyasda SOCAR-a olan etimadı daha da artırır. 2024-cü ildə MSCI reytinq agentliliyin qiymətləndirməsinə əsasən SOCAR "BBB" səviyyəsində ESG reytinqi əldə etmiş və bu reytinqə Xəzər regionunda nail olan ilk şirkət olmuşdur.

İnanırıq ki, innovasiya, elmi tərəqqi və qarşılıqlı əməkdaşlıq əlaqələrinin gücləndirilməsi ilə bütün çətinliklərinin öhdəsindən müvəffəqiyyətlə gələrək ədalətli və inklüziv enerji keçidini təmin edə biləcəyik.

Bu hesabat yalnız fəaliyyət göstəricilərini deyil, eyni zamanda yeni çağırışları və gələcək hədəflərimizi tam şəffaflıqla özündə əks etdirir. Əminik ki, SOCAR səhmdarlar, tərəfdaşlar və gələcək nəsillər üçün uzunmüddətli dəyər yaradan, daha güclü, çevik və rəqabətqabiliyyətli beynəlxalq enerji şirkəti kimi çoxşaxəli fəaliyyətini bundan sonra da uğurla davam etdirəcəkdir.

Rövşən Nəcəf

SOCAR-ın prezidenti

# HESABAT HAQQINDA MƏLUMAT

SOCAR beynəlxalq çərçivəyə və tərəfdaş gözləntilərinə uyğun olaraq maraqlı tərəflərə fokuslanmış, şəffaf və dəqiq davamlılıq hesabatının hazırlanması fikrinə sadiqdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (bundan sonra "SOCAR" və ya "Şirkət" adlanacaq) Davamlı İnkişaf haqqında Hesabatın (bundan sonra "Hesabat") 14-cü nəşrini təqdim edir. Bu hesabatda fəaliyyətimizin bütün aspektlərinə davamlılığın inteqrasiya edilməsi üçün göstərilən səylər və irəliləyişlər öz əksini tapmışdır.

Hesabatın əsas məqsədi maraqlı tərəfləri SOCAR-ın fəaliyyəti və davamlı inkişaf yolunda əldə etdiyi nailiyyətlər barədə hərtərəfli və şəffaf məlumatla təmin etməkdir. Bu hesabat şirkətin iqtisadi, ekoloji və sosial təsirlərini, həmçinin korporativ idarəetmə və sosial məsuliyyət təşəbbüslərini açıqlayan əsas sənəd rolunu oynayır.

Əgər Hesabatda başqa hal nəzərdə tutulmayıbsa, "SOCAR" və "SOCAR (Azərbaycan)" dedikdə, Baş Ofisin strukturuna birbaşa daxil olan qurumları əhatə edən Şirkətin Azərbaycan Respublikasındakı fəaliyyəti nəzərdə tutulur. Həmçinin, başqa hal nəzərdə tutulmayıbsa, SOCAR Qrup və ya "SOCAR Qlobal" terminləri Şirkətin beynəlxalq və daxili əməliyyatlarına (hesabatın əhatə dairəsinə daxil olan) istinad edir.

2024-cü ilin Hesabatı Qlobal Hesabat Təşəbbüsü (GRI) Standartlarına, o cümlədən neft-qaz sənayesinin özünəməxsus çağırışlarını və öhdəliklərini əhatə edən, sektora aid olan GRI 11: Neft və Qaz Sektoru 2021 standartına uyğun olaraq hazırlanmışdır. SOCAR bu standarta uyğunluğu təmin etməklə sektorun risk və gözləntilərinə cavab verən daha məqsədyönlü və məzmunlu açıqlamalar təqdim edir.

Bu Hesabat, GRI bazasına əlavə olaraq, BMT-nin Qlobal Saziş Prinsipləri, BMT-nin 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və Davamlı Mühasibat Uçotu Standartları Şurasının (SASB) Neft-Qaz Sənayesi üzrə Standartlarında verilmiş təlimatları da özündə ehtiva edir. Bu standartlar bazası Hesabatın ardıcıllığını, müqayisə oluna bilməsini, eləcə də beynəlxalq investorlar, tənzimləyici orqanlar, tərəfdaşlar və vətəndaş cəmiyyəti daxil olmaqla daha geniş spektrli tərəfdaşlar üçün aktual olmasını təmin edir.

Hesabat hər il Şirkətin İdarə Heyəti tərəfindən təsdiq olunur. Açıqlanan məlumatların etibarlılığını və dəqiqliyini təmin etmək məqsədilə müvafiq məlumatlar yekun təsdiqdən əvvəl məsul biznes bölmələri tərəfindən nəzərdən keçirilir və təsdiqlənir. Bundan əlavə, EY şirkəti tərəfindən əminlik prosedurları tətbiq olunmuş və müstəqil təminat bəyanatı əldə edilmişdir.

Bu xarici təminat Hesabatın beynəlxalq hesabatlıq standartlarına uyğun olduğunu, maraqlı tərəflər üçün əhəmiyyətli mövzuların düzgün şəkildə əhatə edildiyini və təqdim olunan məlumatların dəqiq və etibarlı olduğunu təsdiq edir (bax: s.131).

SOCAR-ın fəaliyyətinin geniş və şaxələndirilmiş portfelini nəzərə alaraq, Şirkət açıqlanan bütün mövzular üzrə vahid və ardıcıl hesabatlılıq yanaşmasının tətbiq olunmasını təmin etmişdir. Əhəmiyyətli mövzuların əhatə dairəsi Hesabatın ümumi hüdudlarından fərqli olduqda və ya əvvəlki illərlə müqayisədə əhəmiyyətli dəyişikliklər baş verdikdə, müvafiq bölmələrdən aydın izahlar və uyğun qeydlər təqdim olunmuşdur. Bu açıqlamalar şəffaflığın artırılmasına və maraqlı tərəflərin Şirkətin davamlılıq göstəricilərinin məzmununu və ardıcıllığını dərindən anlamasına imkan verir.

Bu Hesabat SOCAR-ın Azərbaycan Respublikası ərazisində həyata keçirdiyi fəaliyyətlərin, eləcə də beynəlxalq törəmə şirkətlərin (o cümlədən "SOCAR Energy Türkiye" (bundan sonra "SOCAR Türkiye"), "SOCAR Energy Georgia", "SOCAR Energy Ukraine" və "SOCAR Energy Switzerland") iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən səmərəlilik göstəricilərini özündə əks etdirir. Şirkətin şəffaflıq və hesabatlılıq öhdəliyinə uyğun olaraq, hazırkı Hesabata ilk dəfə olaraq "SOCAR Austria"[2] şirkəti də daxil edilmişdir. Burada məqsəd SOCAR-ın qlobal davamlılıq göstəricilərinin daha əhatəli və xarakterik icmalını təqdim etməkdir.

Beynəlxalq əməliyyatlara dair təqdim olunan bütün məlumatlar Hesabat üzrə ardıcıllığı və dəqiqliyi təmin etmək məqsədilə müvafiq törəmə müəssisələrlə koordinasiya şəklində toplanılmış və təsdiqlənmişdir.

Qeyd etmək lazımdır ki, bu Hesabatda "SOCAR Türkiye" üzrə təqdim edilən davamlı inkişaf göstəriciləri ilə "SOCAR Türkiye" tərəfindən açıqlanan məlumatlar arasında müəyyən uyğunsuzluqlar müşahidə oluna bilər.

Bu fərqlər əsasən hesabatlılıq hüdudundakı dəyişikliklərdən, xüsusilə də hər bir hesabat çərçivəsində əhatə olunan şirkətlərin və əməliyyat bölmələrinin sayından irəli gəlir. SOCAR şəffaflığın təmin olunması məqsədilə daxili hesabatlılıq çərçivəsində birgə yanaşma tətbiq edir, eyni zamanda törəmə müəssisələrin müstəqil açıqlamalarında müxtəlif məsuliyyət sahələrinin əks oluna biləcəyini nəzərə alır. Maraqlı tərəflər Hesabatın müvafiq bölmələrində verilmiş izahlara istinad edə bilərlər.

Hesabatda oxunaqlılığı artırmaq və ardıcıllığı təmin etmək məqsədilə ədədi göstəricilər əsasən vergüldən sonrakı rəqəmə yuvarlaqlaşdırılmışdır. Bununla belə, birinci onluqdan aşağı dəyərlər ümumi göstəricinin 5%-dən artıq olduqda, daha yüksək dəqiqliyi təmin etmək üçün bu göstərici vergüldən sonrakı ikinci ədədə kimi yuvarlaqlaşdırıla bilər.

Beləliklə, yekun məlumatları aydın şəkildə çatdırmaq və hesabatı bir baxışda sürətli oxumaq üçün materiallar təkrarlana bilər. Ona görə də hər bir səhifə ayrıca bir bölmə kimi nəzərdən keçirilməlidir.

1 "SOCAR Türkiye" üzrə səmərəlilik göstəricilərinə dair açıqlamalar əməliyyat nəzarəti altında olan əsas biznes vahidlərini (Petkim, STAR Neft Emalı Zavodu, Terminal, Bursagaz və Kayserigaz) əhatə edir.

2 "SOCAR Austria" üzrə açıqlamalar 2023-2024-cü illəri əhatə edir, çünki bu şirkət hesabata ilk dəfə olaraq daxil edilmişdir.

# QISA TARİX

## 1846

Bakının Bibiheybət qəsəbəsində dünyada sənaye üsulu ilə ilk quyu qazılmış və 21 metr dərinlikdən neft hasil edilmişdir. ABŞ-da bu hadisə 13 il sonra baş verib.

## 1875

Nobel qardaşları - Robert, Lüdviq və Alfred- Azərbaycanda neft biznesi sahəsində fəaliyyətə başlamışdırlar.

## 1941-1945

İkinci Dünya Müharibəsinin ilk ilində Azərbaycan cəbhəyə 23,5 milyon ton neft tədarük etmişdir. Ümumilikdə, 1941–1945-ci illərdə cəbhədə 75 milyon ton Bakı neftindən istifadə edilmişdir. Həmin dövrdə istehsal olunan hərbi təyyarə yanacağının 90%-i Bakının neftayırma zavodlarının payına düşmüşdür.

## 1949

Neft Daşlarında dünya təcrübəsində ilk dəfə açıq dənizdə estakadalar üzərində dəniz mədəni tikilib.

## 1992

Azərbaycan Respublikasının Prezidenti "Azərineft" Dövlət Konserninin və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) yaradılması haqqında Fərman imzalamışdır.




## 1994

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

## 1998

1998-ci ildə imzalanmış Ankara Bəyannaməsi Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri layihəsinin həyata keçirilməsinə siyasi təkan vermişdir.

## 2008

SOCAR Petkim Neft-Kimya Kompleksinin 51% səhmlərini alaraq Türkiyə bazarına daxil olmuşdur.

## 2010

"Ümid" qaz-kondensat yatağı kəşf edilmişdir.

## 2020

Azərbaycan qazı tarixdə ilk dəfə olaraq birbaşa Avropa bazarına çıxarılmışdır.

19 mart tarixində SOCAR və "Equinor" şirkətləri Azərbaycanın müstəqillik dövründə kəşf edilmiş ilk neft yatağı olan Qarabağ neft yatağının mövcudluğunu təsdiqləmişdir.

## SOCAR: 2024-cü ilə qısa baxış

SOCAR 2024-cü ili növbəti uğurlu il kimi başa vurdu. Regiondakı geosiyasi və makroiqtisadi qeyri-sabitliyə baxmayaraq, SOCAR-ın ümumi məhsullarının dəyəri yüksək səviyyədə saxlanılmış, davamlı inkişafla yanaşı artan gəlirlilik sayəsində güclü maliyyə gösəriciləri əldə edilmişdir.



### MİSSİYA

Zəngin neft-qaz əməliyyatları təcrübəmizi müasir texnologiya və səriştəliklərlə təkmilləşdirərək yerli, regional və beynəlxalq müstəvidə dayanıqlı inkişafa və enerji təhlükəsizliyinə töhfə vermək.

### VİZYON

Enerji keçidi, innovasiya və rəqəmsallaşdırma vasitəsilə əməlliyyatlarımızı inkişaf etdirərək qabaqcıl enerji şirkəti olmaq.

Qayğı
Davamlı İnkişaf
Hesabatlılıq
Vahid komanda
Təhlükəsizlik

XALİS MƏNFƏƏT
Milyon AZN
**2,927**

EMISSİYA (MtCO$_2$-ekv.)
Azərbaycan, Türkiyə və Gürcüstan
**17.9**

DEKARBONİZASİYA MEMORANDUMU
Sayı
**20+**

QAZ İXRACI
Milyon m$^3$
**2,797.4**

ÜMUMİ İŞÇİ SAYI
"Socar Qrup" + bütün BM və filiallar
**71.891**

SOSİAL XƏRCLƏR
Milyon AZN
**351**

# DƏYƏR ZƏNCİRİ

SOCAR neft və qazın kəşfiyyatından və hasilatından onların nəqlinə, emalına və satışına qədər bütün dəyər zənciri üzrə fəaliyyət göstərən enerji şirkətidir. SOCAR nefti, qazı və digər əlaqədar məhsulları yerli və beynəlxalq bazarlara çıxararaq qlobal mövqeyini möhkəmləndirir və rəqabət qabiliyyətini gücləndirir.

Nəqliyyat infrastrukturuna yatırılmış strateji investisiyalar etibarlı çatdırılmanı və müştəri ehtiyaclarının ödənilməsini təmin edir. Eyni zamanda, qabaqcıl emal imkanları əlavə dəyər yaradır və beynəlxalq keyfiyyət standartlarına uyğunluğu təmin edir. Şirkət uzunmüddətli davamlılığı dəstəkləmək məqsədilə günəş/külək enerjisi və aşağı karbon texnologiyası layihələri həyata keçirir və bununla da bərpa olunan enerji mənbələrindən istifadəsini artırır.

Bu təşəbbüslər enerji portfelinin diversifikasiyasına, karbon izinin azaldılmasına və qlobal iqlim məqsədlərinin həyata keçirilməsinə xidmət edir. SOCAR bu təşəbbüsləri həyata keçirərək davamlı inkişafa, dekarbonizasiya ilə bağlı məqsədlərə və resursların məsuliyyətlə idarə olunmasına öz sadiqliyini nümayiş etdirir.




[1] Elektrik enerjisinin satışı yanacaqdoldurma məntəqələrində elektrik nəqliyyat vasitələrinin şarjı üçün təmin edilən elektrik enerjisinə aiddir. Bu elektrik enerjisi yalnız bərpa olunan enerji mənbələrindən əldə olunmur.

SOCAR

# QLOBAL FƏALİYYƏT

SOCAR 15 ölkədə aktiv fəaliyyət göstərən və 5 beynəlxalq ticarət ofisinə (Cenevrə, London, Dubay, Hyuston və Sinqapurda yerləşən) malik olan milli neft-qaz şirkətidir. Şirkətin Bakı şəhərindəki (Azərbaycan) Baş Ofisi qrup miqyasında qərarların qəbulu və strateji nəzarətin təmin edilməsi üzrə mərkəz funksiyasını yerinə yetirir, bundan sonra isə hər bir törəmə müəssisə və ya ölkə ofisi öz fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

SOCAR əsasən Avropa və Yaxın Şərq bazarlarında fəaliyyət göstərək 2020-ci ildən etibarən qlobal əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Şirkət bu inkişaf tempinə uyğun olaraq beynəlxalq miqyasda məhsul və xidmət çeşidini artırmağa davam edir



# "UPSTREAM" SEQMENTİ

Şəkil 1. Quru yataqları üzrə Hasilatın Pay Bölgüsü və Risk Xidməti Sazişlərində SOCAR-ın payı, %




Şəkil 2. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən yataqlar üzrə Hasilatın Pay Bölgüsü və Risk Xidməti Sazişlərində SOCAR-ın payı, %




Şəkil 3. 2024-cü ildə Azərbaycanda neft hasilatı, min ton




Şəkil 4. 2024-cü ildə Azərbaycanda qaz hasilatı, milyon m³




Şəkil 5. 2024-cü ildə Azərbaycanda SOCAR-ın təsdiqlənmiş neft-qaz ehtiyatları

Neft ehtiyatları ($10^3$mt) *Cəmi **85,920**

Kondensat ehtiyatları ($10^3$mt) *Cəmi **13,667**

Qaz ehtiyatları ($10^6m^3$) *Cəmi **123,955**

[1] 2024-cü il üzrə SOCAR`ın təsdiqlənmiş neft`qaz ehtiyatları "DeGolyer & MacNaughton" tərəfindən təqdim edilmiş elmi araşdırma və qiymətləndirmə hesabatına əsaslanır`

SOCAR

# "MİDSTREAM" SEQMENTİ

Şəkil 6. SOCAR (Azərbaycan) tərəfindən təhvil verilmiş neft və qazın həcmi, 2022–2024




Təbii qazın ümumi paylanması, milyon m³

Qaz ixracı, milyon m³

Emal və ixrac üçün nəql olunan neftin həcmi, min ton

# "DOWNSTREAM" SEQMENTİ

Şəkil 7. 2022-2024-cü illər ərzində SOCAR (Azərbaycan) üzrə neft və qazın emalı




Neft emalı, min ton

Qaz emalı, milyon m³

Cədvəl 1. 2022-2024-cü illər üzrə SOCAR Qrup emal müəssisələrinin ümumi istehsalı, min ton

| | MÜƏSSİSƏLƏR | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| AZƏRBAYCAN | Heydər Əliyev adına Neft Emal Zavodu | 5 851 | 6 165 | 5 343 |
| | "Azərikimya" İB[1] | 553 | 582 | 448 |
| | Metanol | 535 | 494 | 516 |
| | Karbamid | 537 | 453 | 652 |
| TÜRKİYƏ | STAR | 11 900 | 12 500 | 9 900 |
| | PETKİM | 2200 | 2 300 | 2 050 |

[1] Rəqəmlərin dəyişməsi təqdim olunan məlumat növünün (neft emalı müəssisəsinə daxil olan xammaldan istehsal göstəricilərinə kimi) fərqlənməsi ilə izah olunur

SOCAR

# ƏHƏMİYYƏTLİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ




Əhəmiyyətlilik təhlilinin əsas məqsədi SOCAR və onun maraqlı tərəfləri üçün ən aktual və təsirli davamlılıq mövzularını müəyyənləşdirməkdir. Bu təhlil prosesi şirkətin davamlılıq strategiyasının maraqlı tərəflərin gözləntiləri ilə effektiv şəkildə uzlaşdırılmasına və əsas ESG risk və imkanlarının nəzərə alınmasına xidmət edir. Əhəmiyyətliliyin qiymətləndirilməsi nəticəsində müəyyənləşdirilmiş Ətraf Mühit, Sosial və İdarəetmə (ESG) mövzuları hesabatın müvafiq bölmələrinə daxil edilmişdir.

Müvafiq seminarlar və sorğular vasitəsilə daxili tərəfdaşlarla qurulmuş fəal münasibətlər seçilmiş ESG mövzularının aktuallığını təsdiqləmiş, sənayenin aparıcı şirkətləri ilə aparılmış müqayisəli qiymətləndirmə isə geniş daxili perspektivləri daha da gücləndirmişdir. Bundan başqa, qlobal davamlılıq tendensiyalarının geniş təhlili həmin məsələlərin investor gözləntilərinə və beynəlxalq standartlara uyğun olmasından və prioritetliyindən xəbər verir.

Metodoloji etibarlılığı və şəffaflığı təmin etmək məqsədilə GRI, SASB və CDP kimi beynəlxalq səviyyədə tanınmış ESG çərçivələri hərtərəfli şəkildə nəzərdən keçirilmişdir. Bundan əlavə, müxtəlif biznes funksiyalarına cavabdeh olan baş rəhbərlərlə keçirilmiş ətraflı müsahibələr nəticəsində praktiki baxış bucağı və daxili təsdiqləmə təmin edilmişdir. Nəticədə, mühüm ESG mövzularını əks etdirən, şəffaf ünsiyyəti dəstəkləyən və hesabatın müvafiq bölmələrinə inteqrasiyanı asanlaşdıran aydın əhəmiyyətlilik matrisi yaradılmışdır.

SOCAR həmçinin qanunvericilikdə baş vermiş dəyişiklikləri və qabaqcıl təcrübələri yaxından izləyərək, Korporativ Dayanıqlılıq Hesabatlılığı Direktivinin (CSRD) müddəalarını fəal şəkildə izləyir və təhlil edir, tənzimləyici inkişaf və qabaqcıl təcrübüləri yaxından monitoriq edir.

Hesabatlılıq prosesin təsir edə biləcək mümkün dəyişiklikləri əvvəlcədən nəzərə almaq və uyğunluğu təmin etmək məqsədilə Avropa institutlarının davam edən siyasət müzakirələrinə və praktiki təlimatlarına diqqətlə yanaşırıq. SOCAR bu istiqamətdə atılan addımlar çərçivəsində yaxın gələcəkdə cəmiyyətə və ətraf mühitə göstərdiyi təsirləri, eləcə də biznes fəaliyyətinə təsir göstərə biləcək xarici riskləri və imkanları əhatəli şəkildə qiymətləndirmək imkanı verən hərtərəfli ikiqat əhəmiyyətlilik təhlilini həyata keçirməyi planlaşdırır. Sözügedən qiymətləndirmə maraqlı tərəflərlə geniş məsləhətləşmələr əsasında aparılacaq, formalaşmaqda olan ESG meyarlarını özündə birləşdirməklə yanaşı, prosesin etabarlılığını və dəqiqliyini təmin edəcəkdir.

Bu sağlam yanaşma getdikcə artan gözləntilərə fəal şəkildə uyğunlaşmağa, şəffaflığın gücləndirilməsinə və dayanıqlılıq praktikasının ümumi keyfiyyətinin artırılmasına sadiqliyi nümayiş etdirir. İkiqat əhəmiyyətlilik təhlili habelə şirkətin fəaliyyətinə təsir edən cari amillərin aradan qaldırılmasına və aşağıdakı təsirlərin sistemli şəkildə nəzərdən keçirilməsinə xidmət edəcəkdir.

SOCAR uzunmüddətli korporativ dəyərin formalaşdırılması üçün üç əsas əhəmiyyətli mövzunu müəyyənləşdirmişdir: İEYQ emissiyaları, icmalarla tərəfdaşlıq və biznes etikası. İqlimlə bağlı risklərin azaldılması və qlobal aşağı karbon keçid yollarına uyğunlaşma baxımından İEYQ emissiyalarının effektiv şəkildə idarə olunması əsas şərtlərdən biridir. Emissiya ilə bağlı dəqiq məlumatların toplanılması riskə məruz qalma prosesini qiymətləndirmək, risk portfelini optimallaşdırmaq və biznes davamlılığını gücləndirmək imkanı yaradır.

SOCAR metodologiyanı təkmilləşdirmək məqsədilə qabaqcıl rəqəmsal alətlər tətbiq edir, məlumatların keyfiyyətini və şəffaflığını artırır. Daha dəqiq ölçmə imkanları əməliyyatlarımız üzrə emissiyların azaldılması üçün hədəflənmiş imkanları müəyyən etməyə şərait yaradır.

İcma tərəfdaşlıqları sabit və inklüziv fəaliyyət mühitinin yaradılmasında mühüm rol oynayır. Hesab edirik ki, cəmiyyət çiçəkləndikcə biznesin də inkişafı təmin olunur. SOCAR, yerli ehtiyaclara cavab olaraq, dövlət büdcəsinin dəstəklənməsinə əvvəlki illərlə müqayisədə 31% əlavə töhfə vermişdir. Şirkət həmçinin yerli təchizatçıların payını 52%-dən 82%-ə kimi artıraraq iqtisadi inklüzivliyin tətbiqini və regional dəyərin yaradılmasını təşviq etmişdir. 2024-cü ildə SOCAR-ın sosial xərcləri 51 milyon manat artmışdır ki, bu da şirkətin uzunmüddətli sosial təsirlərə sadiqliyini bir daha nümayiş etdirir.

Etik davranış bütün fəaliyyətlərdə və maraqlı tərəflərlə qarşılıqlı əlaqələrdə rəhbər tutulan əsas prinsip olaraq qalır. İdarəetmə sistemlərimizin effektivliyinin göstəricisi kimi, rüşvətxorluq və korrupsiya ilə bağlı heç bir hal qeydə alınmamışdır. Bütün işçilər müntəzəm olaraq etik davranış üzrə təlimlərdə iştirak edirlər və istənilən səviyyədə pozuntuların aşkarlanması və qarşısının alınması üçün güclü nəzarət mexanizmləri tətbiq edilir.

● Ən yüksək təsir ● Yüksək təsir

## ƏTRAF MÜHİT
Planetar sərhədlər daxilində yaşamaq

**İEYQ emissiyaları**
İqlim dəyişikliyinə təsir edən istixana effekti yaradan qaz (İEYQ) emissiyalarının azaldılması və kompensasiyası
13 Climate Action

**Su ehtiyatlarının qorunması**
Suyun səmərəli istifadəsi, keyfiyyətin qorunması və su hövzələrinin idarə edilməsi
6 Clean Water and Sanitation; 12 Responsible Consumption and Production

**Torpaq və okean resurslarının istifadəsi**
Torpaq və dəniz resurslarının uzunmüddətli və davamlı istifadəsinin təmin edilməsi, o cümlədən torpaq və dənizdə baş verən dəyişikliklərin (məsələn, meşələrin qırılması) idarə olunması və sağlam utilizasiya qaydalarının tətbiq edilməsi
12 Responsible Consumption and Production; 14 Life Below Water

**Təhlükəli maddələr**
Toksik maddələrin və tullantıların, o cümlədən kimyəvi və texnoloji çirkləndiricilərin təhlükəsiz idarə olunması və emalı
12 Responsible Consumption and Production

**Havanın keyfiyyəti**
Havanın keyfiyyətinə və atmosferin bütövlüyünə təsir edən çirkləndirici maddələrin azaldılması
11 Sustainable Cities and Communities; 12 Responsible Consumption and Production; 13 Climate Action

**Materialların istifadəsi, tullantılar və dövri iqtisadiyyat**
Resursların məsuliyyətlə əldə olunması və istifadəsi, o cümlədən məhsullar, qablaşdırma materialları və ərzaq məhsullarının istifadə dövrləri (azaltma, təkrar istifadə və təkrar emal prinsipləri üzrə)
12 Responsible Consumption and Production

**Biomüxtəliflik və ekoloji rifah**
Təbii ekosistemlərin və bioloji müxtəlifliyin qorunması və gücləndirilməsi, heyvan rifahının dəstəklənməsi
15 Life on Land

## SOSİAL
Ədalətli nəticələrə sadiq qalmaq

**İnsan hüquqları**
Universal hüquqlara hörmət etmək məqsədilə korporativ məsuliyyətin dəstəklənməsi (məsələn: həyat, azadlıq, ifadə azadlığı, məcburi və uşaq əməyinin istisna edilməsi)
5 Gender Equality; 8 Decent Work and Economic Growth; 17 Partnerships for the Goals

**Əmək şərtləri**
Uyğun və təhlükəsiz iş şəraitinin təmin edilməsi, o cümlədən ədalətli əmək haqqı və müavinətlər, bacarıqların artırılması və inkişafı, optimal işəgötürmə qaydaları
3 Good Health and Well-Being; 8 Decent Work and Economic Growth

**Müxtəliflik, bərabərlik və inklüzivlik**
Şirkət daxilində və xaricində müxtəlifliyi, bərabərliyi, əlçatanlığı və inklüzivliyi təşviq edən təcrübələr və mədəni mühit
5 Gender Equality; 10 Reduced Inequalities

**Müştəri sağlamlığı və rifahı**
Müştəri rifahını artıran məhsullar, xidmətlər və texnologiyalar
3 Good Health and Well-Being

**Müştəri təhlükəsizliyi və fəallığı**
Təhlükəsiz və əlçatan təkliflər, o cümlədən təhlükəsiz resepturalar, aydın etiketləmə, marketinqdə və qiymətqoymada sui-istifadəyə yol verməyən təcrübələr
8 Decent Work and Economic Growth

**İcma tərəfdaşlığı**
Maarifləndirilmiş və/və ya proseslərə cəlb edilmiş icma üzvləri və daha geniş cəmiyyət
17 Partnerships for the Goals

**Rəqəmsal hüquqlar və məsuliyyət**
Təhlükəsiz və etik texnologiya sistemləri, infrastruktur və məlumatlandırma praktikası; müştəri məxfiliyinin qorunması öhdəliyi; hüquq-mühafizə orqanlarının tələblərinə uyğunluq və cavabdehlik
8 Decent Work and Economic Growth; 9 Industry, Innovation and Infrastructure

## İDARƏETMƏ
Məsuliyyətli davranış nümayiş etdirmək

**İdarəetmənin təməli**
Qabaqcıl idarəetmə normaları və təcrübələri, o cümlədən mülkiyyət və nəzarət, idarə heyətinin müxtəlifliyi, əmək haqqı siyasəti və hesabatlılıq mexanizmləri
5 Gender Equality; 10 Reduced Inequalities; 8 Decent Work and Economic Growth

**Üçüncü tərəf münasibətləri**
Tədarük fəaliyyəti və tərəfdaşlıqla bağlı qərarvermə proseslərinə inteqrasiya edilmiş aydın təcrübələr
8 Decent Work and Economic Growth; 17 Partnerships for the Goals

**Şəffaflıq və riskin idarə edilməsi**
Dəqiq mühasibat uçotu, müvafiq risklərin açıqlanması və idarə edilməsi, ESG şəffaflığının təmin edilməsi
8 Decent Work and Economic Growth; 17 Partnerships for the Goals

**Biznes etikası**
Sağlam qərar qəbul etmə və etik davranış, rəqabətə zidd təcrübələrin, rüşvətxorluq və korrupsiya hallarının olmaması
5 Gender Equality; 8 Decent Work and Economic Growth

**Vergi praktikası**
Ədalətli vergi ödənişi və vergi praktikasına riayət edilməsi
8 Decent Work and Economic Growth

**Dolayı iqtisadi təsirlər**
Şirkətin iqtisadi fəaliyyətində xarici populyasiyaların məruz qaldığı dolayı təsirlərə qarşı həssaslıq
8 Decent Work and Economic Growth; 9 Industry, Innovation and Infrastructure

**Daxili və xarici siyasət**
Mürəkkəb daxili və xarici məsələlərin düzgün idarə edilməsi, o cümlədən siyasət və lobbiçilik mövqeləri
17 Partnerships for the Goals

# MARAQLI TƏRƏFLƏRİN CƏLB EDİLMƏSİ

SOCAR maraqlı tərəflərin geniş kütləsini özünə cəlb edərək müxtəlif baxışları və fikirləri öz strategiyasına, davamlılıq planlarına və uzunmüddətli məqsədlərinə daxil edir. Əsas tərəfdaş qruplarına işçiləri, müştəriləri, təchizatçıları, hökumət orqanlarını, yerli icmaları və maliyyə institutlarını daxil etmək olar.

Hər bir qrup maraqlı tərəflərin təsir səviyyəsinə və şirkətin əməliyyatları ilə əlaqələrinin əhəmiyyətinə əsasən təsnif edilir. İştirak üsullarına sorğular, görüşlər, müsahibələr, eləcə də davamlı dialoqla əks əlaqəni təmin edən çoxtərəfli platformalarda iştirak etmək imkanları daxildir.

Şirkətin Biznes Etikası və Davranış Kodeksinə uyğun olaraq, bütün maraqlı tərəflərlə qurulmuş qarşılıqlı münasibətlər ədalətlilik, qanunilik, şəffaflıq və insan hüquqlarına hörmət prinsiplərinə əsaslanır. SOCAR həmçinin inklüzivlik, gender bərabərliyi, ətraf mühitin qorunması və icmanın məsuliyyətli iştirakı kimi bir sıra dəyərləri təşviq edir.



# SOCAR-IN BİZNES VƏ SƏNAYE FƏALİYYƏTİ

SOCAR dövlət müəssisəsi olaraq “upstream”, “midstream” və “downstream” seqmentlərini əhatə edən tam inteqrasiyalı əməliyyatlar həyata keçirir. Şirkətin əsas fəaliyyət sahələrinə neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqli, neft, qaz və neft-kimya məhsullarının daxili və xarici bazarlarda satışı aiddir. SOCAR bu fəaliyyət strukturu əsasında Azərbaycanın enerji təhlükəsizliyinə və ixrac potensialına birbaşa töhfə verir və eyni zamanda regional və Avropa bazarlarında artan enerji tələbatını ödəyir.

SOCAR altı strateji istiqamətdə — xam neft, təbii qaz, neft-kimya məhsulları, emal, logistika və enerji istehsalı sahələrində fəaliyyət göstərərək çoxşaxəli sənaye portfeli yaratmışdır. 2024-cü ildə Şirkət Azərbaycanın xam neft hasilatının təxminən 26%-ni, təbii qaz hasilatının isə 17%-ni təmin etmişdir. Bu göstəricilər milli enerji istehsalının davamlılığında, eləcə də daxili və ixrac bazarları üçün uzunmüddətli enerji təchizatının təmin edilməsində SOCAR-ın oynadığı mühüm rolu əks etdirir.

Şirkətin şaquli inteqrasiya olunmuş əməliyyatları Türkiyə, Gürcüstan, Rumıniya, İsveçrə, Avstriya və Ukraynadakı əhəmiyyətli aktivlərlə və fəaliyyətlərlə Azərbaycanın hüdudlarından kənara çıxır. Bu regional mövqe SOCAR-a təchizat zəncirini optimallaşdırmaq, Avropanın əsas enerji dəhlizlərinə strateji çıxışı təmin etmək, eləcə də Xəzər və Qara dəniz regionlarında tərəfdaşlıqları gücləndirmək imkanı yaradır.

SOCAR dövlət enerji sənayesinin təmsilçisi kimi Azərbaycanın neft və qaz ehtiyatları üzərində müstəsna hüquqlara malikdir və Hasilatın Pay Bölgüsü Sazişlərində (PSA) dövləti təmsil edir. Şirkət bu sazişlər çərçivəsində hasil olunan məhsulun əhəmiyyətli hissəsini bazara çıxarır və əsas neft-qaz kəməri infrastrukturunda tam və ya qismən iştirak edir. Məsələn, SOCAR Xəzər dənizindəki qaz yataqlarını Avropa istehlakçıları ilə birləşdirən Trans-Anadolu Təbii Qaz Boru Kəmərində (TANAP) səs çoxluğuna malik pay sahibidir. SOCAR-ın hərtərəfli coğrafi mövqeyi əməliyyat çevikliyini və enerji ticarətindəki təsir imkanlarını artırır.

SOCAR milli və beynəlxalq fəaliyyət sahələrində təxminən 71891 işçisi ilə ölkənin ən iri vergi ödəyicisi kimi çıxış edir. Şirkətin sosial-iqtisadi təsirləri iş yerlərinin yaradılması, insan kapitalının inkişafı və sənaye investisiyaları fonunda dərin iz buraxır. Bundan əlavə, SOCAR ölkənin emal və yanacaqpaylama sektorlarında aparıcı rol oynayaraq daxili pərakəndə satış bazarlarına, eləcə də terminallar vasitəsilə həyata keçirilən ixrac logistikasına nəzarəti təmin edir.



## "SOCAR Türkiye"

“SOCAR Türkiye” neft emalı, neft-kimya məhsulları, təbii qaz və infrastruktur sahələrində fəaliyyət göstərir və indiyədək 18 milyard ABŞ dollarından artıq məbləğdə investisiya yatırmışdır. Şirkət Türkiyənin ən iri birbaşa xarici investoru kimi fəaliyyət göstərir və Petkim, STAR Neft Emalı Zavodu, TANAP və digər strateji aktivləri vasitəsilə mənbədən son istehlakçıya qədər uzanan inteqrasiyalı dəyər zəncirini gücləndirməyə davam edir.

## "SOCAR Energy Georgia"

2006-cı ildə SOCAR-ın ilk xarici törəmə şirkəti kimi təsis edilmiş “SOCAR Energy Georgia” neft və qaz məhsullarının idxalı, topdan və pərakəndə satışı və təbii qazın paylanılması isiqamətlərində fəaliyyətini həyata keçirir. Şirkət 5000-dən çox əməkdaşdan ibarət işçi qüvvəsi ilə regional enerji təchizatına çıxışın təmin olunmasında və bazar iştirakçılığının artırılmasında mühüm rol oynayır.

## "SOCAR Energy Ukraine"

2008-ci ildən etibarən fəaliyyət göstərən “SOCAR Energy Ukraine” neft məhsulları, təbii qaz və aviasiya yanacağının topdan və pərakəndə satışı sahəsində fəaliyyət göstərir və ölkə üzrə 50-dən çox Premium markalı yanacaqdoldurma məntəqəsinə malikdir. Davam edən münaqişə şəraitinə baxmayaraq, şirkət Ukrayna ərazisində fasiləsiz xidmətin göstərilməsinə və icmaların dəstəklənməsinə sadiqlik nümayiş etdirir.

## "SOCAR Energy Switzerland"

“SOCAR Trading” 2007-ci ildə SOCAR-ın qlobal əmtəə ticarəti qolu kimi təsis edilmişdir və “SOCAR Energy Switzerland”dan fərqli olaraq törəmə şirkət Açıqlama Statusuna malikdir. Baş qərargahı Cenevrədə yerləşən bu şirkət Avropa, Asiya, Yaxın Şərq və Amerikadakı ofisləri ilə qlobal miqyasda fəaliyyət göstərir. Onun çoxşaxəli portfelinə xam neft, təbii maye qaz, mayeləşdirilmiş neft qazı, təbii qaz, eləcə də karbon kreditləri kimi ekoloji məhsullar daxildir. Şirkət dövlət müəssisələri də daxil olmaqla güclü müştəri bazasına malikdir. “SOCAR Energy Switzerland” isə əsas fəaliyyətini İsveçrədə və Avstriyada Premium markalı yanacağın pərakəndə satışına yönəldib.




## Bakı-Tbilisi-Ceyhan Boru Kəməri

Hal-hazırda Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri əsasən Azərbaycandan hasil edilən AÇG xam neftini və “Şahdəniz” kondensatını nəql edir. Bundan əlavə, Xəzər hövzəsinin (Qazaxıstan və Türkmənistan) xam nefti və kondensatı əlavə həcmdə BTC boru kəməri vasitəsilə daşınır. 2024-cü ildə boru kəməri vasitəsilə ümumilikdə 224,1 milyon barel xam neft və kondensat ixrac olunmuşdur.

## Cənubi Qafqaz Boru Kəməri

Cənubi Qafqaz Boru Kəməri (SCP) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” qazının Gürcüstana və Türkiyəyə nəqli məqsədilə inşa edilmişdir. 2024-cü ildə SCP-nın ümumi ötürmə qabiliyyəti 22,99 milyard kubmetr təşkil etmişdir.

## TANAP

Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) Azərbaycan qazını “Şahdəniz-2” yatağından və Xəzər dənizinin digər yataqlarından Türkiyəyə, oradan isə Avropaya nəql edir. 2024-cü ildə TANAP vasitəsilə ümumilikdə 17,35 milyard kubmetr təbii qaz daşınmış, onun 5,61 milyard kubmetri Türkiyəyə ixrac olunmuşdur.

## TAP

Trans-Adriatik Boru Kəməri (TAP) Trans-Anadolu Təbii Qaz Boru Kəməri ilə birləşərək Şimali Yunanıstandan, Albaniyadan və Adriatik dənizindən keçməklə Cənubi İtaliyada sahilə çıxır və burada Snam Rete Gas (SRG) şəbəkəsinə qoşulur. 2024-cü ildə TAP vasitəsilə Avropa bazarlarına ümumilikdə 11,7 milyard kubmetr təbii qaz ixrac olunmuşdur

# NEFT-QAZ ƏMƏLİYYATLARI VƏ "XALİS SIFIR" ÖHDƏLİYİNƏ SƏYAHƏT

SOCAR şaquli inteqrasiya olunmuş neft-qaz əməliyyatları vasitəsilə Azərbaycanın enerji sektoruna rəhbərlik edir. Şirkət eyni zamanda 2050-ci ilə qədər "xalis sıfır" emissiyalara nail olmaq üçün strateji kurs müəyyənləşdirir. SOCAR bu uzunmüddətli təşəbbüslər çərçivəsində "upstream", "midstream" və "downstream" seqmentlərində əməliyyatın effektivliyini artırır və İEYQ emissiyalara nəzarət tədbirləri həyata keçirir. SOCAR belə təşəbbüsləri sayəsində enerji təhlükəsizliyi və iqlim məsuliyyəti kimi ikili məqsədləri dəstəkləyir, eləcə də qlobal enerji keçidində perspektivli enerji təchizatçısı mövqeyin tutur. SOCAR-ın dekarbonizasiya öhdəliyi ölçülə bilən hədəflərdən ibarət olan aydın yol xəritəsi əsasında müəyyənləşdirilmişdir. COP28-də elan edildiyi kimi, Şirkət bütün istehsalat obyektlərində qazın məşəldə yandırılmasını sıfıra endirmək və "upstream" seqmentində İEYQ emissiyalarının intensivliyini 2030-cu ilə kimi 30% (2022-ci ilin səviyyələri ilə müqayisədə) azaltmaq məqsədini qarşıya qoymuşdur.

SOCAR həmçinin 2022-ci ilin səviyyələri ilə müqayisədə 2035-ci ilə kimi müəssisə İEYQ emissiyalarının intensivliyini 30%, mütləq İEYQ emissiyaları isə 20% azaltmağı hədəfləyir. Bu hədəflər şirkətin milli töhfələrə (NDC) və beynəlxalq iqlim sazişlərinə uyğun olaraq fəaliyyət göstərməsini təmin edir.

Şirkət həmçinin 2035-ci ilə kimi "upstream" seqmentində metanın intensivliyini sıfıra yaxın səviyyəyə endirməyi, 2050-ci ilə qədər isə "xalis sıfır" emissiyaya nail olmağı planlaşdırır. Belə köklü dəyişikliklər çərçivəsində karbon texnologiyalarının tətbiq olunması, qabaqcıl rəqəmsal monitorinq alətlərinin istifadə edilməsi və ətraf mühitin idarə edilməsi sistemlərinin gücləndirilməsi nəzərdə tutulmuşdur. SOCAR qarşıdakı illərdə bu innovasiyaların vasitəsilə daha təmiz, təhlükəsiz və məsuliyyətli neft-qaz hasilatına zəmin yaradır.

SOCAR öz məqsədlərinə (əsas əməliyyatların karbonsuzlaşdırılması, təşkilati transformasiya və aşağı karbonlu biznesin inkişafı) çatmaq üçün daxili imkanlardan istifadə edir: Birinci mərhələdə SOCAR-ın bütün əsas regionlarda həyata keçirdiyi fəaliyyətlər üçün genişmiqyaslı dekarbonizasiya proqramı icra edilir. İkinci mərhələdə bərpa olunan enerji ilə bağlı şirkətdaxili mədəni düşüncə tərzinin dəyişdirilməsi hədəflənir. Son mərhələdə isə SOCAR yeni aşağı karbonlu biznes sahələrini (məsələn, bərpa olunan enerji mənbələri (günəş, külək və geotermal)) inkişaf etdirir, karbonun tutulması, utilizasiyası və saxlanılması (CCUS) texnologiyalarını və yaşıl hidrogen təşəbbüslərini araşdırır, eləcə də enerjinin effektivliyini və saxlanma üçün həll yollarının tətbiqini gücləndirir.

Şəkil 8. SOCAR-ın "Xalis Sıfır" Hədəfləri (İllər Üzrə)




[1]Bu hədəf Azərbaycandakı daxili əməliyyatları (o cümlədən "upstream", "midstream" və "downstream" seqmentlərini) əhatə edir

[2]Bu hədəfin əhatə dairəsinə SOCAR'ın Azərbaycanda, Türkiyədə və Gürcüstanda həyata keçirdiyi fəaliyyətlər daxildir

SOCAR ölkə üzrə dekarbonizasiya səylərində aparıcı rol oynayır və 1990-cı illə müqayisədə istixana effekti yaradan qaz emissiyalarının 2050-ci ilə qədər 40% azaldılması hədəfinə nail olmaq üçün Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini fəal şəkildə dəstəkləyir.

Bu məqsədə nail olmaq üçün SOCAR daha təmiz texnologiyalara investisiya yatırır, bütün əməliyyatlarda enerjinin səmərəliliyini artırır və bərpa olunan enerji sahəsində imkanları araşdırır. Şirkət həmçinin beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək öz strateji yanaşmalarını qlobal iqlim təşəbbüslərinə uyğunlaşdırır.

Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə uyğun olaraq, Azərbaycan artıq 1990-cı ilin baza səviyyəsi ilə müqayisədə 2021-ci ilə qədər istixana effekti yaradan qaz emissiyalarını 35% azaldaraq 79 milyon ton $CO_2$-dən 58 milyon ton $CO_2$-yə endirmişdir. Hazırda ölkə emissiyaların 2050-ci ilə qədər 40% azaldılması hədəfinə nail olmaq yolundadır və 2030-cu il üçün aralıq məqsəd olaraq emissiyaların 51 milyon ton $CO_2$-yə qədər azaldılması nəzərdə tutulur.

Şəkil 9. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC), $mtCO_2$

Şəkil 10. Milli Bərpa Olunan Enerji Hədəfləri, GW




Şəkil 11. Emissiyaların azaldılması üzrə hədəflər[1]

| Hədəfin adı və təsir dairəsi | 2022 Baza səviyyəsi | 2023 Səmərəlilik | 2024 Səmərəlilik | Hədəf + İllər |
|---|---|---|---|---|
| "Upstream" Seqmentində Emissiyanın İntensivliyi[2]<br>Azərbaycan | 0.21<br>$tCO_2$ ekv./t məhsul | 0.22<br>$tCO_2$ ekv./t məhsul<br>↑5% | 0.43<br>$tCO_2$ ekv./t məhsul<br>↑105% | 0.15<br>$tCO_2$ ekv./t məhsul<br>↓30%<br>2030 |
| Korporativ Emissiyalarının İntensivliyi[3]<br>Azərbaycan | 0.46<br>$tCO_2$ ekv./t məhsul | 0.52<br>$tCO_2$ ekv./t məhsul<br>↑13% | 0.77<br>$tCO_2$ ekv./t məhsul<br>↑67% | 0.32<br>$tCO_2$ ekv./t məhsul<br>↓30%<br>2035 |
| "Upstream" Seqmentində Metanın İntensivliyi[4]<br>Azərbaycan | 0.92%<br>$CH_4$ itkisi / Qaz istehsalı | 0.86%<br>$CH_4$ itkisi / Qaz istehsalı<br>↓7% | 1.9%<br>$CH_4$ itkisi / Qaz istehsalı<br>↑107% | <0.2%<br>$CH_4$ itkisi / Qaz istehsalı<br>↓~100%<br>2035 |
| Mütləq Emissiyalar [5,*]<br>Azərbaycan+ Türkiyə + Gürcüstan | 12.6<br>$MtCO_2$ ekv. | 16.3<br>$MtCO_2$ ekv.<br>↑29% | 17.9<br>$MtCO_2$ ekv.<br>↑42% | +-0<br>$MtCO_2$ ekv.<br>↓100%<br>2050 |

[1] Hesabatda təqdim olunan emissiya göstəriciləri mövcud ölçmə sərhədlərinə uyğun olaraq Əhatə 1 və 2 emissiyalarını əks etdirir. SOCAR "Əhatə 3" emissiyalarının əhəmiyyətini qəbul edir və bu istiqamətdə geniş inventarın hazırlanması üçün zəruri hazırlıq tədbirləri həyata keçirir.

[2,3,4,5] 2022 və 2023-cü illərə dair məlumatlar metodoloji yeniləmələr əsasında yenidən hazırlanmışdır. Bu dəyişikliklər əvvəlki dövrlərdə hesabatdan çıxarılmış bəzi köhnə emissiya mənbələrini və məlumat axınını özündə birləşdirir.

* 2024-cü ildə 200 min ton həcmində metan sızması aşkarlanmışdır. Bu səbəbdən əvvəlki illərə aid olan mütləq İEYQ emissiyalar həmin həcmin əvvəlki illər üzrə paylanması yolu ilə yenidən hesablanmışdır. Nəticədə əlavə edilmiş ümumi metanın kütləsi 200 min tona bərabər olmuşdur. Yekun fərziyyələr aşağıdakı kimidir:: 2020 – 13,232,800 $CO_2e$ / 2021 – 13,477,900 $CO_2e$ / 2022 – 15,112,100 CO2e / 2023 – 20,341,100 $CO_2e$ / 2024 – 17,890,190 $CO_2e$

# AKVİZİSİYALAR, İNVESTİSİYALAR VƏ MALİYYƏ MƏHSULLARI

SOCAR davamlılığın əsas əməliyyatlara inteqrasiyası və yaşıl investisiyaların təşviqi məqsədilə 2024-cü ildə şirkət miqyasında struktur dəyişikliyi həyata keçirmişdir. “SOCAR Green” MMC-nin yaradılması iqlimyönümlü investisiya strategiyalarının institusionallaşdırılması istiqamətində mühüm mərhələ olmuşdur.

2024-cü il ərzində “SOCAR Green” MMC daxili təsdiq sənədləri əsasında üç irimiqyaslı bərpa olunan enerji layihəsi üzrə hazırlıq mərhələsinə başlamışdır: Neftçala Günəş ES (315 MVt), Biləsuvar Günəş ES (445 MVt) və Abşeron-Qaradağ Külək ES (240 MVt). “Masdar” şirkəti ilə tərəfdaşlıq çərçivəsində hazırlanmış bu layihələr İnvestisiya Komitəsinin təsdiqindən sonra icra mərhələsinə keçmişdir. Layihələrin ümumi dəyəri 938,9 milyon ABŞ dolları, “SOCAR Green” MMC-nin töhfəsi isə 234,7 milyon ABŞ dolları təşkil edir. İlkin işlər 2024-cü ilin sonunda başlamışdır və tammiqyaslı tikintinin 2025-ci ildə başlanması nəzərdə tutulur.

SOCAR bu investisiyaları sayəsində enerji diversifikasiyası və dekarbonizasiya üzrə milli hədəflərini dəstəkləyərək, kommunal miqyaslı bərpa olunan enerji mənbələrinə strateji girişini nümayiş etdirir. Ümumilikdə, layihələr istismara verildikdən sonra ildə 1 GVt quraşdırılmış təmiz enerji gücünə malik olacaqdır.

Kommunal miqyaslı bərpa olunan enerji layihələrinə əlavə olaraq, 2024-cü ildə SOCAR-ın “Downstream” seqmenti plastik tullantılardan istifadə etməklə bioloji yanacaq istehsal edən müəssisənin texniki-iqtisadi əsaslandırılmasına və ilkin layihələndirilməsinə başlamışdır. Azərbaycan İnvestisiya Şirkətinin və “Technip Energies” şirkətinin birgə təşəbbüsü ilə yaradılmış bu Yaşıl Layihənin hədəfi piroliz texnologiyası vasitəsilə 23,5 KTA Py-Oil yağı istehsal etməkdir. Layihə dövri iqtisadiyyat prinsiplərinə uyğunlaşdırılmışdır və 2025-ci ildə FEED (İlkin Texniki Layihələndirmə) mərhələsindən keçəcəkdir. İlkin mərhələdə SOCAR tərəfindən 19,7 milyon ABŞ dolları dəyərində investisiyanın yatırılması nəzərdə tutulmuşdur.

2024-cü ildə bünövrə işlərinin davam etdirilməsi ilə yanaşı, SOCAR-ın 2025-ci il üzrə investisiya planına “SOCAR Green” MMC tərəfindən həyata keçiriləcək yaşıl enerji layihələri üçün 125 milyon ABŞ dollarına qədər investisiyanın yatırılması daxildir. Bu investisiyalar 2024-cü ildə həyata keçirilmiş bünövrə işlərini, o cümlədən günəş və külək enerjisi layihələrini, boru kəmərinin inkişafını, həmçinin qlobal tərəfdaşlıqlar çərçivəsində yaşıl hidrogen, metanol və karbamid istehsalı imkanlarının tədqiqini davam etdirmək üçün təməl yaradacaq.

Şəkil 12. SOCAR-ın Azərbaycanda yaşıl enerji layihələri



# MARKETNQ TƏCRÜBƏLƏRİ VƏ KEYFİYYƏT TƏMİNATI

SOCAR biznes və sənaye əməliyyatlarında tam izlənməni və beynəlxalq tələblərə uyğunluğu təmin etmək məqsədilə marketinq və keyfiyyət təminatı təcrübələrindən istifadə edir. Belə ki, ASTM standartlarına əsasən, benzin və dizel kimi əsas məhsullar üçün bütün mərhələlərdə (nümunə götürülməsindən hesabatların hazırlanmasına kimi) tam izlənilmə təmin edilmiş və qlobal səviyyədə tanınmış sistemlərlə uyğunluq yaradılmışdır.

SOCAR ISO/IEC 17025 standartlarının tələblərinə cavab vermək üçün yüksək ixtisaslı və səriştəli kadrlar yetişdirir, avadanlıqların əlçatanlığını təmin edir. Məhsullar dizel üçün EN 590 və benzin üçün EN 228 standartlarına uyğun olaraq buraxılır. Bundan başqa, 2026-cı ildən etibarən Jet A1 yanacağının istehsalı üçün beynəlxalq tələblərə uyğunluq təmin ediləcəkdir.

2022-ci ildən etibarən keyfiyyət sistemlərinin və avadanlıqların müasirləşdirilməsi çərçivəsində 410 rəsmi sənəd hazırlanmışdır. İnsan xətaları minimuma endirilməsi və ISO/IEC 17025 standartlarına uyğun tam rəqəmsallaşdırılmış müştəri hesabatlarının təqdim olunması məqsədilə Laboratoriya Məlumat İdarəetmə Sistemi (LIMS) uğurla tətbiq edilmişdir.

SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Laboratoriyası məhsulun keyfiyyətini yoxlamaq məqsədilə maye və qaz karbohidrogenlərinin beynəlxalq dövri (laboratoriyalar arası) analizində, eləcə də suyun analizində fəal iştirak edir. Məhsul növləri üzrə akkreditasiyalar sınaq nəticələrinin etibarlılığına zəmanət verir və qlobal meyarlara uyğunluğu təmin edir.

Hal-hazırda Avro 5 dizel məhsulu (EN 590) TÜRKAK tərəfindən akkreditasiya olunmuşdur. Avro 5 (EN 228) benzin məhsulu, çirkab suyun analizləri, seçilmiş qaz parametrləri və karbamid analizləri üzrə akkreditasiyanın 2025-ci ilə qədər əldə edilməsi planlaşdırılır.

"SOCAR Lab" əsas əməliyyat dəyərləri kimi qərəzsizliyi və məxfiliyi ciddi şəkildə qoruyur. Keyfiyyət idarəetmə sistemi müştəri məmnuniyyəti sorğuları, risklərin qiymətləndirilməsi, uyğunsuzluğun idarə edilməsi, daxili və xarici auditlər, eləcə də nümunə saxlama qaydaları kimi mexanizmlərlə dəstəklənir. SOCAR marketinq təcrübələrini və keyfiyyət təminatını təkmilləşdirmək məqsədilə satınalmalarda şəffaflığı artırmış və təchizatçılarla əlaqələri gücləndirmişdir. 2024-cü ildə Təsdiqlənmiş Təchizatçılar Siyahısının (TTS) hazırlanması üçün elektron hərrac platforması vasitəsilə ümumilikdə 436 pre-kvalifikasiya tenderi təşkil edilmişdir. Təchizatçılar "İlkin Qiymətləndirmənin Təşkili və İdarə Edilməsi" adlı yeni təlimat vəsaitinin, müvafiq təlimatların və aydın meyarların əsasında sistemli şəkildə qiymətləndirilmişdirlər.

Prosedur ardıcıllığını təmin etmək və keyfiyyətlə bağlı təcrübələri gücləndirmək məqsədilə "7 Keyfiyyət Aləti" adlı təlimat vəsaiti hazırlanmış və təsdiqlənmişdir. Bu vəsait şöbələr arasında keyfiyyət metodlarının standartlaşdırılmasını dəstəkləyir və tanınmış sənaye bazaları ilə uyğunluq təşkil edir. Şirkət paralel olaraq keyfiyyət bəyannaməsini yenidən nəzərdən keçirmiş və rəsmi şəkildə təsdiqləmişdir. Beləliklə, SOCAR keyfiyyət idarəetmə sisteminə olan sadiqliyini bir daha nümayiş etdirmişdir.

Keyfiyyətə təminat çərçivəsində mal-materialların qəbulu zamanı 21 obyektdə 687 təftiş aparılmışdır. Keyfiyyətə nəzarət tədbirləri satınalma spesifikasiyalarının tələblərinə uyğunluğu təmin etmiş, əməliyyatlar zamanı riskin azaldılmasına töhfə vermiş, eləcə də nəzərdə tutulmuş işçilərin məlumatlandırılmasına kömək etmişdir. SOCAR qabaqcıl beynəlxalq təcrübələrə uyğunluğu təmin etmək məqsədilə sertifikatlaşdırmaya daha çox üstünlük vermişdir. Nəticədə, şirkətlər qrupuna daxil olan 15 laboratoriya 2024-cü ildə AZS ISO/IEC 17025:2020 standartına uyğun olaraq akkreditasiyadan keçmişdir. Bu akkreditasiyalar təşkilatın texniki səriştəsini, qlobal səviyyədə qəbul edilmiş sınaq və kalibrləmə standartlarına olan sadiqliyini bir daha təsdiqləyir.

Ümumiyyətlə, SOCAR metodoloji alətlərin tətbiqini, keyfiyyət mədəniyyətini və təchizatçıların idarə edilməsi sistemini davamlı şəkildə təkmilləşdirərək fəaliyyətin effektivliyini və şəffaflığını artırmışdır. Şirkət belə irəliləyişlərin sayəsində davamlılıq prinsiplərinə olan sadiqliyini gücləndirmiş və ESG faktorlarını öz fəaliyyətinə inteqrasiya etmişdir.

ISO 9001:2015 ISO 14001:2015 ISO 45001:2018

# İQTİSADİ TƏSİRLƏR VƏ GÖSTƏRİCİLƏR

SOCAR vergi ödənişləri, məşğulluq, satınalma və infrastruktur investisiyalarına ardıcıl töhfələr verməklə milli iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Şirkətin irimiqyaslı fəaliyyəti yerli sahibkarlığın, xüsusən də xidmət, logistika və tikinti sektorlarının inkişafına təkan vermişdir.

Şirkət ardıcıl kapital qoyuluşları vasitəsilə milli enerji təhlükəsizliyini gücləndirmiş və sənayenin diversifikasiyasını dəstəkləmişdir. Bu nəticələr milli iqtisadi məqsədlərə və davamlı inkişafa olan sadiqliyi özündə əks etdirir.

SOCAR 2024-cü ildə milli və yerli hakimiyyət orqanlarından heç bir maliyyə yardımı, subsidiya və ya stimullaşdırıcı vasitə almamışdır.

Şəkil 13. 2022–2024 illər üzrə əsas statistik göstəricilər



Cədvəl 2. SOCAR Qrupun 2022-2024-cü illə üzrə iqtisadi göstəriciləri, milyon AZN

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Ümumi gəlirlər | 119,228 | 85,201 | 84,689 |
| Satışın maya dəyəri | (104,526) | (76,639) | (77,296) |
| Paylanma xərcləri | (3,048) | (2,206) | (2,045) |
| Ümumi və inzibati xərclər | (1,851) | (1,939) | (2,252) |
| Digər əməliyyat xərcləri | (973) | (2,561) | (1,869) |
| Maliyyə xərcləri | (1,573) | (1,633) | (2,074) |
| Digər ümumi gəlirlər/(xərclər) | 2,131 | 2,050 | 3,774 |
| İllik mənfəət (itki) | 9,424 | 2,073 | 2,927 |
| Digər illik yekun itkilər (vergi istisna olmaqla) | 1,622 | (103) | (879) |
| İllik yekun ümumi gəlirlər/(itkilər) | 11,046 | 1,970 | 2,048 |

KAPİTAL XƏRCLƏR[1]
↗ 46%
4,582
million. AZN

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ
2,230
million. AZN

XALİS MƏNFƏƏT
↗ 42%
2,927
million. AZN

EBITDA MARJASI
ƏVVƏLKİ İL 9.5%
10.2%

[1] Bu il kapital xərclərdə müşahidə olunan artım təkcə əsas vəsaitlərə (daimi aktivlərə) edilən əlavələri deyil, həmçinin birgə müəssisələr üzrə əldə edilmiş əlavə iştirak paylarını (ümumi investisiya dəyərinin artmasına töhfə verən) özündə əks etdirir.

# VERGİ

SOCAR vergi fəaliyyətini dürüstlük, şəffaflıq və milli qanunvericiliklə yanaşı, beynəlxalq səviyyədə tanınmış standartlara tam uyğun şəkildə həyata keçirir. Şirkətin vergi siyasəti etik biznes davranışına, davamlı inkişafa və məsuliyyətli korporativ vətəndaşlıq prinsiplərinə bağlılığı özündə əks etdirir. Biz, dövlət müəssisəsi olaraq milli iqtisadi artımın, infrastrukturun inkişafının və sosial rifahın təmin olunmasında vergi öhdəliklərimizin daşıdığı strateji əhəmiyyəti qəbul edirik.

Şirkət Azərbaycan Respublikasının vergi qanunvericiliyinin və fəaliyyət göstərdiyi bütün yurisdiksiyaların tələblərinə ciddi şəkildə riayət edir. Vergi praktikamız qanunilik, ədalətlilik və hesabatlılıq prinsiplərinə əsaslanır.

SOCAR bütün vergi və fiskal öhdəliklərini tam və vaxtında yerinə yetirir, süni strukturlardan və ofşor yurisdiksiyalardan istifadə etməkdən çəkinir. Bizim məqsədimiz fəaliyyətimiz nəticəsində yaradılmış iqtisadi dəyərin hər bir yurisdiksiya üzrə vergi ödənişlərində ədalətli şəkildə əks olunmasını təmin etməkdir. Şəffaflıq SOCAR-ın vergi idarəçiliyi modelinin əsas prinsiplərindən biridir. Şirkət hərtərəfli və yoxlanıla bilən uçot aparır, həmçinin mövcud qanunvericilik tələblərinə uyğun olaraq vergi orqanlarına mütəmadi hesabatlar təqdim edir. Biz daxili vergi risklərinin qiymətləndirilməsini həyata keçirir və vergi hesabatlarımızı daha geniş maliyyə nəzarəti mexanizmləri çərçivəsində müstəqil auditlərə təqdim edirik. Tənzimləyici orqanlarla açıq və konstruktiv dialoqun aparılması hüquqi aydınlığı təmin edir və tələblərə uyğunluq risklərini azaldır.

Vergi strategiyası və siyasəti aydın hesabatlılıq və məsuliyyət bölgüsü əsasında ixtisaslı mütəxəssislər tərəfindən idarə olunur və İdarə Heyətinin nəzarəti altında həyata keçirilir. SOCAR vergi risklərinin müəyyənləşdirilməsini, azaldılmasını və monitorinqini təmin edir, eləcə də müəssisə risklərinin idarə edilməsi sistemində vergi qanunvericiliyinin tələblərini yerinə yetirir. Biz məsuliyyətli vergi ödəmə davranışını sosial investisiyanın və dövlətə xidmətin əsas şərti hesab edirik. Dövlət maliyyəşməsinə verdiyimiz töhfələr maraqlı tərəflər arasında etimadı gücləndirir və milli inkişaf məqsədlərini dəstəkləyir. SOCAR mütəmadi olaraq daxili vergi siyasətini nəzərdən keçirir. Şirkət bu siyasəti İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Vergitutma Bazasının Aşınması və Mənfəətin Köçürülməsi (BEPS) təşəbbüsü kimi beynəlxalq normativ baza tələblərinə uyğunlaşdırır. Biz şəffaf və sabit vergi yanaşması tətbiq edərək dövlətimiz, tərəfdaşlarımız və cəmiyyətimiz üçün uzunmüddətli dəyərlərin yaradılmasını təmin edirik.

Şəkil 14. 2024-cü ildə SOCAR-ın hər ölkədə həyata keçirdiyi fəaliyyətə görə ödədiyi cəmi vergilər, milyon AZN

| Ölkə | Məzənnə | Məbləğ |
|---|---|---|
| Azərbaycan | | 2,724 |
| Türkiyə[1] | 1 TRY =0.05 AZN<br>2024, illik orta | 21 |
| İsveçrə | 1 CHF = 1.93 AZN<br>2024, illik orta | 896 |
| Gürcüstan | 1 GEL = 0.62 AZN<br>2024, illik orta | 166 |
| Ukrayna | 1 UAN = 0.04 AZN<br>2024, illik orta | 37 |
| Avstriya | 1 Avro = 0.84 AZN<br>2024, illik orta | 8 |

[1] Bu rəqəm hökümət tərəfindən tətbiq olunan stimullar sonrası dövr ərzində ödənilmiş birbaşa korporativ vergini əks etdirir. Lakin 2024-cü maliyyə ilində Türkiyə Vergi Orqanlarına ödənilmiş birbaşa və dolayı vergilərin ümumi məbləği təxminən 2,7 milyard AZN olmuşdur.

# DAVAMLI İDARƏETMƏ

2024-cü ildə SOCAR dayanıqlılığın idarəetmə və strateji istiqamətlərə inteqrasiya olunmasını təmin etmək məqsədilə şirkət miqyasında transformasiya prosesinə başlamışdır. Şirkətin mövqeyini və prioritetlərini qiymətləndirmək üçün müxtəlif idarəetmə səviyyələrindən olan əməkdaşlardan ibarət işçi qrupu yaradılmışdır. Aparılmış "boşluq təhlili" əsasında mühüm inkişafın tələb olunduğu sahələri və mövcud siyasətləri əhatə edən 120 tədbir müəyyənləşdirilmişdir. "Davamlı İnkişaf Siyasəti" çərçivəsində həyata keçirilən əhəmiyyətlilik sorğusunun nəticələri əsasında əsas mövzular prioritetləşdirilmişdir.

Düzgün nəzarətin təmin edilməsi məqsədilə SOCAR-da davamlı inkişaf məsələlərinin idarə olunması ən yüksək səviyyədə həyata keçirilir və bu prosesə vitse-prezident səviyyəsində rəhbərlər və biznes seqmentləri üzrə məsul şəxslər mütəmadi olaraq cəlb olunurlar. Strateji qərarların qəbuluna təkan vermək və şöbələrarası inteqrasiyanı təmin etmək məqsədilə maliyyə, strategiya və enerji keçidi seqmentlərinin rəhbər işçiləri də daxil olmaqla Rəhbər Komitənin iclası çağırılmışdır. Davamlılıqla bağlı mövzular artıq SOCAR-ın uzunmüddətli biznes strategiyası çərçivəsində ekoloji və sosial risklərin mühüm əhəmiyyətini əks etdirən strateji planlaşdırma müzakirələrinə daxil edilmişdir.

## Siyasətlər, Standartlar və Beynəlxalq Öhdəliklər

SOCAR strukturlu korporativ davamlılıq siyasəti əsasında fəaliyyət göstərir. Bu siyasətə aşağıdakılar daxildir:

- Ətraf Mühit Siyasəti
- Ətraf Mühitin Mühafizəsi Məqsədləri haqqında Bəyanat
- Biomüxtəlifliyin Mühafizəsi haqqında Bəyanat
- 2021–2030 illər üzrə Aşağı Karbon İnkişaf Strategiyası
- Keyfiyyət Bəyanatı
- İnsan Haqları haqqında Bəyanat

SOCAR COP28 tədbirində Neft və Qazın Dekarbonizasiyası Xartiyasını (OGDC) birgə təsis etməklə və İmzalayan Tərəflər Komitəsinə qoşulmaqla qlobal miqyaslı iqlim problemlərinin həlli istiqamətində səylərini daha da artırmış və dekarbonizasiya üzrə öhdəliyini gücləndirmişdir.

SOCAR 2024-cü ildə neft və qaz dəyər zənciri üzrə metan emissiyaları haqqında hesabatında dəqiqliyi və şəffaflığı artırmaq məqsədilə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının (UNEP) qabaqcıl təşəbbüsü olan Neft və Qaz Metan Tərəfdaşlığı 2.0 (OGMP 2.0) proqramının rəsmi üzvü olmuşdur.

SOCAR davamlılığa dair öhdəliyini bir sıra əsas struktur dəyişiklikləri vasitəsilə gücləndirmişdir. Bunlara SOCAR Green MMC-nin və Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya (ETED) seqmentinin yaradılması daxildir. Bundan əlavə, davamlılıq üzrə tədbirlərin maliyyə təsirlərinin düzgün inteqrasiya olunmasını təmin etmək məqsədilə Korporativ Maliyyə Departamenti tərkibində ESG şöbəsi yaradılmışdır. SOCAR davamlılıqla bağlı amilləri şirkətin əsas səmərəlilik göstəriciləri (ƏSG), büdcə və risk idarəetmə bazası ilə birbaşa əlaqələndirir. Ona görə də Şirkət davamlılıq mexanizmini periferik fəaliyyət deyil, əməliyyat modelinin əsas elementi kimi qəbul etmişdir. SOCAR əsas tərəfdaşlarla, o cümlədən investorlarla, işçilərlə və yerli icmalarla əlaqələrin qurulmasına böyük önəm verir və davamlılıq üzrə qərarların qəbulu prosesində inklüzivliyi təmin edir. Bu çərçivədə forumlar, panel müzakirələri və məqsədyönlü dəyirmi masa görüşləri keçirilir. 2024-cü ildə Bakı şəhərində OGDC-nin tədbiri zamanı keçirilən sessiyalar buna misal ola bilər. Maraqlı tərəflərin məlumatları müvafiq hesabatlarda GRİ standartlarına uyğunlaşdırılır. ESG göstəricilərinin monitorinqi və tərəfdaşlarla bağlı məsələlərinin həlli üçün müvafiq mexanizmlər tətbiq edilir. Bu yanaşmaya əsasən, SOCAR-ın hesabatlılığa dair öhdəlikləri barədə məlumatlılıq maraqlı tərəflərin rəyi əsasında təmin edilir.

Daxili tələblərə uyğunluğu və proaktiv dəyişikliklərin idarə edilməsi mədəniyyətini təşviq etmək məqsədilə davamlılıq təhsili və maarifləndirmə proqramları həyata keçirilmişdir. Bu çərçivədə daxili potensialı gücləndirmək məqsədilə taktiki-əməliyyat rəhbərləri üçün seminarlar və davamlılıq üzrə fəaliyyət proqramları təşkil edilmişdir. Şöbələrarası əməkdaşlıq sayəsində davamlılıq təcrübələrinin satınalma, insan resursları və əməliyyatlar kimi funksiyalara inteqrasiyası təmin edilir. Səmərəlilik göstəriciləri illik davamlı inkişaf hesabatları əsasında ölçülür. Beləliklə, maliyyə nəticələri ilə yanaşı ESG hədəflərinin şəffaf monitorinqinə şərait yaranır.

ESG şöbəsi şirkətin məqsədlərini qlobal davamlılıq standartlarına uyğunlaşdırmaqla ESG Strategiyasının İnkişafı və İcra Koordinasiyasında mərkəzi rol oynayır. Bu şöbə həmçinin daxili və xarici tərəflərlə açıq ünsiyyətin və əməkdaşlığın yaradılmasını təmin edir, maraqlı tərəflərin cəlb olunması prosesini istiqamətləndirir. Bundan əlavə, ESG şöbəsi ESG hesabatlılığının və məhsuldarlığının monitorinqinə cavabdeh olub Şirkətə məxsus açıqlamaların beynəlxalq şəffaflıq tələblərinə uyğun olmasını təmin edir.

ESG şöbəsi öz vəzifəsi çərçivəsində ESG Reytinq Akkreditasiyası proseslərini idarə edir, beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlığı əlaqələndirir və daxili qaydaların tələblərə uyğun olmasını təmin edir. ESG şöbəsi həmçinin hərtərəfli mandat əsasında davamlılıq mexanizmini SOCAR-ın qərar qəbuletmə proseslərinə inteqrasiya edir. Bu yanaşma uzunmüddətli dəyərlərin yaradılmasını təşviq edir və Şirkətin ESG göstəricilərinə investorların inamını artırır.

SOCAR davamlı idarəetməsinin daha da institusionallaşdırılması məqsədilə ESG Komissiyasının yaradılmasını planlaşdırır. Bu təşəbbüs SOCAR Qrupda ekoloji, sosial və idarəetmə məsələlərinin səmərəli təşkilini, maliyyələşdirilməsini, hesabatlılığını və nəzarətini təmin edəcəkdir. Komissiya strateji qərarların qəbul edilməsinə və əsas tələblərin müəyyənləşdirilməsinə məsul olacaq, eləcə də SOCAR-ın İdarə Heyətinə və prezidentinə müvafiq rəylər və tövsiyələr təqdim edəcək. SOCAR ESG Komissiyasını yaratmaqla ESG təcrübələrinin inkişafına və tərəfdaşların gözləntilərinə cavab verən yüksək səviyyəli nəzarətin gücləndirilməsinə psadiqliyini bir daha nümayiş etdirir.

SOCAR

# DÜRÜST İDARƏETMƏ



# İDARƏETMƏNİN TƏMƏLİ

Korporativ idarəetmə SOCAR-ın fəaliyyətlərinin məsuliyyətli və şəffaf şəkildə həyata keçirilməsi üçün strukturlaşdırılmış təməl yaradır. Bu baza şirkətin strategiyasını və davamlılıqla bağlı məqsədlərini dəstəkləyir, effektiv qərarların qəbulunu, risklərin idarə edilməsini və uzunmüddətli dəyərin yaradılmasını təmin edir. Belə yanaşma SOCAR-ın etik davranışa, hesabatlılığa və beynəlxalq səviyyədə tanınmış ESG prinsiplərinə olan sadiqliyini əks etdirir.

SOCAR dövlət şirkəti olaraq enerji sektorunda milli əhəmiyyətini və strateji rolunu əks etdirən strukturlaşdırılmış idarəetmə mexanizmləri çərçivəsində fəaliyyət göstərir. Şirkətin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Bu orqanın səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2021-ci il tarixli, 1258 nömrəli "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Fərmanı ilə müəyyən edilmişdir.

Fərmana əsasən, SOCAR-ın yenidən təşkili və ləğvi, həmçinin Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi və vəzifədən azad olunması Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə daxildir. Yuxarıda qeyd olunan xüsusi məsələlər istisna olmaqla, Ümumi Yığıncağın səlahiyyətlərinə aid olan digər bütün məsələlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilir.

Şirkətin idarəetmə strukturu aşağıdakı kimidir:

Müşahidə Şurası müasir korporativ idarəetmə standartlarına uyğun olaraq effektivliyin artırılması və idarəetmənin təkmilləşdirilməsi məqsədilə SOCAR-ın fəaliyyətinə rəhbərlik və nəzarət edir. SOCAR-ın prezidentinin rəhbərlik etdiyi İdarə Heyəti isə fəaliyyətin və strateji məqsədlərin icrasına cavabdehdir. Bu model aydın vəzifə bölgüsünü təmin edir, hesabatlılığı gücləndirir və SOCAR-ın məsuliyyətli idarəçilik prinsiplərinə və uzunmüddətli dəyərlərə olan sadiqliyini dəstəkləyir.

## MÜŞAHİDƏ ŞURASI

Mikayıl Cabbarov
İqtisadiyyat Naziri
Müşahidə Şurasının Sədri

Audit Komitəsi
Təyinat və Mükafatlandırma Komitəsi
Strategiya və İnvestisiyalar Komitəsi

Anar Axundov
Iqtisadiyyat Nazirinin Müavini

Azər Bayramov
Maliyyə Nazirinin Müavini

Emin Hüseynov
Birinci Vitse-Prezidentin Köməkçisi

Elnur Soltanov
Energetika Nazirinin Müavini

İsrafil Məmmədov
Azərbaycan Respublikası Dövlət Neft Fondunun Baş İcraçı Direktoru

Ruslan Əlixanov
Azərbaycan İnvestisiya Holdinqinin Baş İcraçı Direktoru

## İDARƏ HEYƏTİ

Rövşən Nəcəf
SOCAR-ın prezidenti
Sədr

Risklərin İdarə Edilməsi Komitəsi
Satınalmalar Komitəsi
Kadrların idarə Edilməsi Komitəsi

Vitse-prezidentlər

Elşad Nəsirov
İnteqrə Edilmiş Qaz Seqmenti

Kənan Nəcəfov
Strategiya və Rəqəmsallaşma Seqmenti

İsmayıl Zərgərli
Hüquq və Uyğunluq Seqmenti

Arzu Cavadova
Təbii Ehtiyatların Kəşfiyyatı Seqmenti

Ziba Mustafayeva
İnsan Kapitalı və İnklüzivlik Seqmenti

Zaur Qurbanov
Maliyyə Seqmenti

Babək Hüseynov
İşlənmə və Hasilat Əməliyyatları Seqmenti

Anar Məmmədov
Emal və Neft-kimya Seqmentidir

Əfqan İsayev
Enerji Keçidi, Ətraf Mühit və Dekarbonizasiya Seqmenti

Fuad Musayev
Əməliyyat Dəstəyi, Sağlamlıq və Təhlükəsizlik Seqmenti

SOCAR

## MÜŞAHİDƏ ŞURASI

| Adı | K/Q | Təcrübə (il) | Vəzifə (il) |
|---|---|---|---|
| Mikayıl Cabbarov | K | 30 | 4 |
| Anar Axundov | K | 31 | 2 |
| Azər Bayramov | K | 35 | 4 |
| Emin Hüseynov | K | 27 | 4 |
| Elnur Soltanov | K | 21 | 4 |
| İsrafil Məmmədov | K | 30 | 4 |
| Ruslan Əlixanov | K | 27 | 4 |

## İDARƏ HEYƏTİ

| Adı | K/Q | Təcrübə (il) | Vəzifə (il) |
|---|---|---|---|
| Rövşən Nəcəf (prezident) | K | 24 | 3 |
| Anar Məmmədov | K | 30 | 2 |
| Arzu Cavadova | Q | 40 | 2 |
| Babək Hüseynov | K | 20 | 2 |
| Elşad Nəsirov | K | 44 | 19 |
| Əfqan İsayev | K | 28 | 2 |
| Fuad Musayev | K | 27 | 2 |
| İsmayil Zərgərli | K | 28 | 2 |
| Kənan Nəcəfov | K | 29 | 4 |
| Zaur Qurbanov | K | 20 | 4 |
| Ziba Mustafayeva | Q | 25 | 2 |

| Müşahidə Şurası | Şura üzvlərinin sayı | Şura iclaslarının sayı | Davamiyyət səviyyəsi,%[1] |
|---|---|---|---|
| SOCAR | 7 | 11 | 95 |
| SOCAR Türkiye Enerji A.Ş. | 7 | 3 | 84 |
| SOCAR Energy Georgia LLC | 5 | 2 | 75 |
| SOCAR Energy Ukraine LLC | 5 | 10 | 92 |
| SOCAR Energy Holdings AG | 7 | 2 | 92 |

Azərbaycan Respublikası Prezidentinin rəsmi qərarı olmadığı təqdirdə, Müşahidə Şurasının üzvlüyünün müddəti avtomatik olaraq uzadılır

## Azərbaycan İnvestisiya Holdinqi (AİH)

AİH dövlət müəssisələrinin idarəetmə sistemlərinin təkmilləşdirilməsi, şəffaflığın artırılması və fəaliyyətin səmərəliliyinin gücləndirilməsi məqsədilə yaradılmış publik hüquqi şəxsdir. Holdinqin mandatına dövlətə məxsus şirkətlərin, eləcə də idarəçiliyinə verilmiş dövlət mülkiyyətində olan digər qurumların fəaliyyətinə nəzarət daxildir. Holdinqin əsas vəzifələrindən biri də bu müəssisələrin beynəlxalq idarəetmə və fəaliyyət standartlarına uyğunlaşdırılması yolu ilə maliyyə dayanıqlılığının və rəqabət qabiliyyətinin gücləndirilməsidir. Azərbaycan İnvestisiya Holdinqi rəhbərliyi altında olan şirkətlərin mərkəzləşdirilmiş nəzarət mexanizmlərinə və milli strateji prioritetlərə uyğun olaraq fəaliyyət göstərməsini və uzunmüddətli dəyər yaratmasını təmin edir.

## Müşahidə Şurası

Müşahidə Şurası güclü korporativ idarəetmənin dəstəklənməsində və Şirkətin uzunmüddətli davamlılığının təmin edilməsində mühüm rol oynayır. Şura nəzarət funksiyası çərçivəsində SOCAR-ın strateji istiqamətlərinin hazırlanmasını və təsdiqini dəstəkləyir, həmçinin strukturlaşdırılmış qiymətləndirmə mexanizmləri vasitəsilə İdarə Heyətinin fəaliyyətinə nəzarəti həyata keçirir.

Bundan əlavə, şura korporativ strukturda baş verən dəyişikliklərin, törəmə müəssisələrin rəhbərliyinə dair qərarların və digər təşkilati qərarların idarəetmə prinsiplərinə və əməliyyat ehtiyaclarına uyğun olmasını təmin edir. Şura şəffaflıq və daxili hesabatlılığın gücləndirilməsi məqsədilə risklərin idarə edilməsinə, habelə tələblərə uyğunluq və daxili audit funksiyalarının təşkil olunmasına nəzarət edir.

Şura əsas maliyyə və fəaliyyət siyasətlərini təsdiqləməklə biznesin davamlılığının qorunmasına, maliyyə intizamının gücləndirilməsinə və tərəfdaş inamının artırılmasına töhfə verir. SOCAR idarəetməyə tətbiq olunan bu fəal və kompleks yanaşma əsasında davamlılıqla bağlı qlobal gözləntilərə cavab verən dürüstlük, effektivlik və məsuliyyətli biznes prinsiplərinə sadiqlik nümayiş etdirir.

Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən kənarlaşdırılan yeddi üzvdən ibarətdir. Hər bir üzv üç il müddətinə təyin olunur ki, bu da Şirkətin strateji nəzarətinin davamlılığını və effektivliyini təmin edir[1]. Şuranın tərkibi və mandatı milli qanunvericiliyin tələblərinə, həmçinin SOCAR-ın uzunmüddətli strateji hədəflərinə uyğundur və özündə sabit və məsul idarəetmənin əhəmiyyətini əks etdirir. Şura üzvləri enerji, maliyyə, bank işi, təhsil, vergi, investisiya və tikinti sahələrində müxtəlif peşəkar təcrübəyə malikdirlər.

2024-cü ildə Müşahidə Şurasının tərkibində dəyişiklik baş verməmişdir. Sədr ən azı üç ayda bir dəfə Müşahidə Şurasının iclasını çağırır və iclaslara sədrlik edir.

SOCAR-ın Müşahidə Şurası Şirkətin Nizamnaməsinə uyğun olaraq Müşahidə Şurası tərəfindən təyin edilmiş üzvlərdən ibarət üç işçi komitənin fəaliyyətinə nəzarət edir. Bu komitələr Audit Komitəsindən, Təyinat və Mükafatlandırma Komitəsindən və Strategiya və İnvestisiyalar Komitəsindən ibarətdir.

## İdarə Heyəti

Şirkətin strateji məqsədlərinə nail olmaq üçün ən effektiv yolların müəyyənləşdirilməsi, müvafiq fəaliyyətlərin təşkili və onların icrasına nəzarətin təmin edilməsi İdarə Heyətinin əsas vəzifələrini təşkil edir. Şirkətin Nizamnaməsinə əsasən, İdarə Heyəti SOCAR-ın prezidentindən, iki birinci vitse-prezidentdən və on iki vitse-prezidentdən ibarətdir. Prezident eyni zamanda İdarə Heyətinin sədri qismində fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2022-ci il tarixli, 3376 nömrəli Sərəncamı ilə Rövşən Nəcəf Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti təyin edilmişdir.

Hesabat ilində İdarə Heyəti 11 üzvdən ibarət olmuşdur ki, onların 18%-ni qadınlar, 82%-ni isə kişilər təşkil edir. Namizədlərin irəli sürülməsi və təyinatı prosesi milli qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilir, Şirkətin strateji prioritetləri ilə əməliyyat ehtiyacları arasında uyğunluq təmin edilir, effektiv liderlik və inklüziv təmsilçilik ön plana çəkilir, eləcə də strateji nəzarətin davamlı idarəetmə bazasına inteqrasiya olunması nəzərə alınır. 2024-cü il ərzində İdarə Heyətinin tərkibində heç bir dəyişiklik baş verməmişdir.

Təyinat və Mükafatlandırma Komitəsi Şura səviyyəsində Maliyyə Seqmenti tərəfindən idarə olunur. Bununla belə, "SOCAR-da Səmərəlilik Göstəricilərinin İdarə Edilməsi Prosesi" adlı sənədin 5.3.4-cü bəndinə əsasən, rəhbər işçilərin mükafatlandırılması dörd əsas səmərəlilik göstəricisinə görə müəyyən edilir: Maliyyə, Əməliyyat, Təhlükəsizlik və Davamlılıq, Təşkilat və Mədəniyyət. Bu struktura əsasən, ESG ilə bağlı aspektlər (məsələn, davamlılıq və mədəniyyət) icraçıların fəaliyyətinin qiymətləndirilməsi metodologiyasına daxil edilmişdir və kompensasiya ilə bağlı qərarlarda müəyyən dərəcədə nəzərə alınır.

[1] Azərbaycan Respublikası Prezidentinin rəsmi qərarı olmadığı təqdirdə, Müşahidə Şurasının üzvlüyü avtomatik olaraq uzadılır.

# SOCAR-IN İDARƏETMƏ ORQANLARININ KOMİTƏLƏRİ

## Audit Komitəsi

Audit Komitəsi SOCAR-ın daxili audit siyasətini və strateji istiqamətini müəyyənləşdirir. Komitə daxili audit planlarını təsdiqləyir və şirkət daxilində onların effektiv icrasına nəzarət edir. Komitə həmçinin daxili nəzarət sisteminin gücləndirilməsinə dair tövsiyələr verir və risklərin idarə olunması proseslərinin təkmilləşdirilməsi məqsədilə müvafiq idarəetmə orqanlarına təkliflər təqdim edir. Komitə həmçinin SOCAR-da və onun struktur vahidlərində əhəmiyyətli maliyyə-əməliyyat risklərinə məruz qalan sahələri müəyyənləşdirir, onların məqsədyönlü monitorinqini aparır və risklərin effektiv şəkildə azaldılmasını təmin edir

- Ruslan Əlixanov ★
- Emin Hüseynov
- İsrafil Məmmədov

## Təyinat və Mükafatlandırma Komitəsi

Təyinat və Mükafatlandırılması Komitəsi SOCAR-ın Müşahidə Şurasının və icraçı rəhbərliyinin fəaliyyətində davamlılığı təmin edir. Komitə Müşahidə Şurasının, rəhbərliyin və digər işçilərin fəaliyyətini müntəzəm və obyektiv şəkildə qiymətləndirir.

Komitə effektiv kadr siyasəti işləyib hazırlayır, ədalətli əməkhaqqı və mükafatlandırma sistemlərini müəyyənləşdirir, eləcə də rəhbər işçilər və işçilər üçün ixtisasartırma və inkişaf imkanları ilə yanaşı, sosial dəstəyin verilməsini də təmin edir. Komitə həmçinin SOCAR-ın Nizamnaməsindən, Qaydalarından və digər daxili korporativ sənədlərdən irəli gələn məsələlərin həlli ilə məşğul olur

- Anar Axundov ★
- Emin Huseynov
- Elnur Soltanov

## Strategiya və İnvestisiyalar Komitəsi

Strategiya və İnvestisiyalar Komitəsi SOCAR-ın investisiya cəlbediciliyinin artırılmasına və uzunmüddətli dəyərin yaradılmasına töhfə verir. Komitə şirkətin maliyyə və iqtisadi fəaliyyətinin strateji uyğunluğunu və effektiv şəkildə planlaşdırılmasını təmin edir.

Komitə həmçinin prioritet sahələri müəyyənləşdirir, əsas investisiya layihələrini seçir və SOCAR-ın maliyyə və operativ fəaliyyətini yaxından izləyir. Komitədə həmçinin monitorinqin nəticələrinə əsasən, maliyyə nəticələrinin təkmilləşdirilməsi və davamlı artımın dəstəklənməsi üçün müvafiq tədbirlər təklif olunur. Komitə dividend siyasəti və digər maliyyə bölgüsü ilə bağlı tövsiyələr verir, SOCAR-ın Nizamnaməsinə və daxili qaydalarına uyğun olaraq strateji-maliyyə məsələlərinin həlli ilə məşğul olur.

- Mikayıl Cabbarov ★
- Anar Axundov
- Ruslan Əlixanov
- Elnur Soltanov
- Azər Bayramov



## Risklərin İdarə Edilməsi Komitəsi

Risklərin İdarə Edilməsi Komitəsi Qrupun Risk İştahası Bəyanatını (RAS) hazırlayır və zəruri hallarda müvafiq düzəlişləri daxil etməklə, yoxlanılması üçün Audit Komitəsinə, təsdiq üçün isə Müşahidə Şurasına təqdim edir. Komitə eyni zamanda Qrup Riski Xəritəsini işləyib hazırlayır, risklərin monitorinqi və nəzarəti üzrə məsuliyyət bölgüsünə dair tövsiyələr verir, həmin tövsiyələri yoxlanma və təsdiq üçün təqdim edir.

Komitə korporativ risklərin vəziyyəti və həyata keçirilən risk idarəetmə tədbirlərinin effektivliyi barədə rüblük hesabatları təsdiqləyir. Komitə həmçinin strateji məqsədlərin həyata keçməsinə təsir edən risklərin azaldılması üçün tədbirlər müəyyənləşdirir, xüsusi risk məsələlərinin daxili qaydada idarə olunması və ya yuxarı rəhbərliyə, Audit Komitəsinə və ya Müşahidə Şurasına çatdırılması barədə qərar qəbul edir.

Bundan əlavə, Komitə xüsusi bacarıqlara (modelləşdirmə, aktuar hesablamalar, İT və s.) malik olan işçiləri və ya müstəqil ekspertləri daha dərin risk təhlillərinin aparılmasına cəlb edir. Komitə qəbul edilmiş risklərlə SOCAR-ın Risklərin İdarə Edilməsi Siyasəti və Strategiyası arasındakı uyğunluğa davamlı olaraq nəzarət edir.

## Kadrların idarə Edilməsi Komitəsi

Kadrların İdarə Edilməsi Komitəsi ixtisas kvotalarının tənzimlənməsi və namizəd ərizələrinin təsdiqi də daxil olmaqla, milli və beynəlxalq təqaüd proqramları çərçivəsində təyin edilmiş səlahiyyətlər və əsas kadrlarla bağlı qərarların idarə olunmasını təmin edir. Komitə həmçinin işçilərin fəaliyyətinin qiymətləndirilməsi və mükafatlandırma sistemindəki dəyişiklikləri nəzərdən keçirir və müvafiq tövsiyələr hazırlayır. Bundan əlavə, Komitə SOCAR-ın törəmə müəssisələrində işçi heyətinin sayının artırılması və təşkilati-struktur düzəlişləri ilə bağlı sorğuları qiymətləndirir.

Kadrların İdarə Edilməsi Komitəsi işçi qüvvəsinin optimallaşdırılmasına dair təklifləri nəzərdən keçirir və zərərli iş şəraiti ilə əlaqədar əmək haqqı əmsallarının artırılmasına uyğun olan vəzifələrin siyahısını təsdiqləyir.

Komitə, həmçinin, əməkdaşların daxili sorğularının nəticələri əsasında işçi təcrübəsinin artırılmasına yönəlmiş təklifləri araşdırır, öz səlahiyyətləri çərçivəsində SOCAR-ın prezidentinə müvafiq tövsiyələr təqdim edir. Komitə bu çərçivədə iş vaxtı standartlarını nəzərdən keçirir və təsdiqləyir, eləcə də işçilərin törəmə müəssisələrdən Baş ofisə təyin edilməsi ilə bağlı müraciətləri qiymətləndirir.

Bundan əlavə, Komitə insan resursları ilə bağlı qərarların qəbulu proseslərinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görür və SOCAR-ın daxili normativ sənədlərinə, həmçinin prezidentin göstərişlərinə uyğun olaraq digər kadr məsələlərini idarə edir.

## Satınalmalar Komitəsi

Satınalmalar Komitəsi satınalma prosedurlarının mövcud normativ tələblərə uyğun olmasını təmin edir, satınalma ilə bağlı yaranan mübahisələri həll edir və təchizatçı siyahılarını təsdiqləyir və ya onların təsdiqi üçün müvafiq səlahiyyətlər verir.

Komitə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində satınalma strategiyalarını, iştirakçı siyahılarını və tender nəticələrini, o cümlədən malların, işlərin və xidmətlərin müsabiqədənkənar satın alınmasını təsdiqləyir. Bundan əlavə, Komitə ümumi müqavilə dəyərlərinin artırılmasına icazə verir və struktur bölmələr arasında satınalma proseslərinin əlaqələndirilməsini təmin edir.

Komitə zəruri hallarda müqavilənin yekunlaşmasından əvvəl satınalma proseduralarını dayandıra bilər. Komitə normativ baza əsasında metodologiyanı, təlimatları və prosedur sənədlərini qəbul edir. O, həmçinin satınalma qrupunun nizamnamələrini təsdiqləyir və satınalmaların səmərəliliyinin artırılması məqsədilə struktur bölmələr üçün fərdi səlahiyyət hədlərini müəyyənləşdirir.

Bundan başqa, Komitə müəyyən edilmiş səlahiyyət hədləri daxilində xarici təchizatçılarla və podratçılarla çərçivə müqavilələrinin bağlanmasına icazə verir. Əgər seçilmiş təkliflər hesablanmış satınalma dəyərindən əhəmiyyətli dərəcədə fərqlənərsə, Komitə satınalma nəticələrini ləğv edə və tələb olunduğu halda yeni satınalma proseslərinin tətbiqini təmin edə bilər.

# RİSKLƏRİN İDARƏ EDİLMƏSİNƏ VƏ DAVAMLILIĞA NƏZARƏT VƏ İDARƏETMƏ

Şirkət daxilində davamlılıq və risklərin idarə edilməsi strateji uyğunlaşmanı, fəaliyyətin etibarlılığını və uzunmüddətli dayanıqlığı təmin edən çoxpilləli idarəetmə strukturu əsasında həyata keçirilir.

Müşahidə Şurası ən yüksək səviyyədə risklərə nəzarətin ümumi çərçivəsini müəyyənləşdirir və şirkətin risk idarəetmə prosesinə müvafiq yanaşmanın tətbiq edilməsi üçün davamlılıq məqsədlərinə uyğun olan aydın istiqamətlər göstərir. Şura bu vəzifə çərçivəsində risklərin idarə edilməsi siyasətini və Risklərin İdarə Edilməsi Komitəsinin Nizamnaməsini təsdiqləyir, həmçinin komitənin daimi üzvlərini təyin etməklə idarəetmə prosesində fasiləsizliyi və təcrübəni təmin edir.

Bundan əlavə, Müşahidə Şurası Azərbaycan İnvestisiya Holdinqi tərəfindən müəyyən edilmiş ƏSG qiymətləndirmə metodologiyasına əsaslanaraq SOCAR-ın İdarə Heyətinin korporativ davamlılıq ƏSG-lərini müəyyənləşdirərək davamlılıq mexanizminə birbaşa nəzarət edir. Bu ƏSG-lər seqment rəhbərləri vasitəsilə bütün təşkilatda tətbiq olunur və davamlılıq strategiyalarının effektivliyinə dair müvafiq tövsiyələrin verilməsinə şərait yaradır.

Davamlı təkmilləşdirməni dəstəkləmək məqsədilə cəlb olunan kənar məsləhətçilər davamlılıq üzrə ƏSG-lərin effektivliyinə dair məsləhət və təminat verirlər.

Bu nəzarət funksiyasını tamamlayan Audit Komitəsi Müşahidə Şurasının nəzdində fəaliyyət göstərərək risk idarəetmə effektivliyinin artırılmasında mühüm rol oynayır. Komitə Şirkətdə və onun törəmə müəssisələrində maliyyə və qeyri-maliyyə risklərinin yüksələ biləcəyi sahələri müəyyənləşdirir və İdarə Heyətinə sistemin gücləndirilməsinə xidmət edən məqsədyönlü tövsiyələr təqdim edir.

Bu qarşılıqlı əlaqə sayəsində Audit Komitəsi strateji nəzarət ilə əməliyyatın icrası arasında körpü rolunu oynayır və idarəetmə prioritetləri əsasında konkret risk əleyhinə tədbirlərin həyata keçirilməsinə kömək edir.

İdarə Heyəti risklərin idarə edilməsi üzrə gündəlik fəaliyyətlərin icrasına və monitorinqinə məsuliyyət daşıyır. Bu vəzifələr Risklərin İdarə Edilməsi Komitəsi (RİK) vasitəsilə həyata keçirilir. Komitə müəyyənləşdirilmiş risklərin mütəmadi şəkildə nəzərdən keçirilməsini, zəruri hallarda diqqətə çatdırılmasını, eləcə də Şirkətin strateji planlaşdırma sisteminə inteqrasiya olunmasını təmin edir.

Risklərin İdarə Edilməsi Komitəsi həmçinin məlumatlı qərarları dəstəkləyən və təşkilati hesabatlılığı gücləndirən risk məlumatlılığı mədəniyyətini təşviq edərək şöbələrarası əməkdaşlığa şərait yaradır.

Bu idarəetmə orqanlarının əlaqələndirilmiş fəaliyyəti iqlim təsirlərindən tutmuş sosial və etik məsələlərə qədər davamlılıqla bağlı risklərin vaxtında müəyyən olunmasını və effektiv şəkildə idarə edilməsini təmin edir. Belə çoxsəviyyəli yanaşma şirkətin yaranmaqda olan risklərə çevik cavab vermək qabiliyyətini gücləndirməklə yanaşı şəffaflıq və məsuliyyətli rəhbərlik vasitəsilə maraqlı tərəflərin etimadını da möhkəmləndirir. Nəticədə, bu mexanizmlər şirkətin davamlı inkişaf və məsuliyyətli korporativ davranışla bağlı uzunmüddətli baxışını dəstəkləyir.

### Uyğunluğa Nəzarət və Siyasətin İşlənib Hazırlanması

Şirkətin etik davranışa və etibarlı normativ bazaya olan sadiqliyini dəstəkləmək məqsədilə 2024-cü ildə tələblərə uyğunluğun idarəçiliyi əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Hüquq və Uyğunluq Seqmenti tərəfindən, seqment rəhbərinin nəzarəti altında aşağıdakı siyasətlər hazırlanmışdır:

Biznes Etikası və Davranış Kodeksi

Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın legallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə Siyasəti

Qlobal Sanksiyalar Siyasəti

Maraqların Toqquşması Siyasəti

Sosial Xarakterli Sərmayələr, Xeyriyyəçilik və Sponsorluq Siyasəti

Hər bir siyasətdə şirkətin etik biznes təcrübələrinə və davamlı icma əlaqələrinə dair məsuliyyəti öz əksini tapmışdır.

Bu siyasətin ilkin versiyaları tamamlandıqdan sonra rəsmi yoxlama və təsdiq üçün Müşahidə Şurasına təqdim edilmişdir. İdarə Heyəti eyni ildə təklif olunan sənədləri təsdiqləyərək icra təşəbbüsü ilə nəzarət funksiyası arasında uyğunluq nümayiş etdirmişdir. Bu siyasi prinsiplər təsdiqləndikdən sonra Şirkətin əməliyyat və uyğunluq fəaliyyətlərini istiqamətləndirmək üçün İdarə Heyətinə göndərilmişdir.

Hüquq və Uyğunluq Seqmentinin rəhbəri daxili idarəetmə qaydalarına və siyasət tələblərinə uyğun olaraq Şirkət prezidentinə mütəmadi şəkildə birbaşa hesabat verir. Bu birbaşa hesabatvermə mexanizmi şəffaflığı artırır, uyğunluqla bağlı risklər haqqında məlumatların vaxtında çatdırılmasını təmin edir və korporativ rəhbərliyin ən yüksək səviyyələrində hesabatlılığı gücləndirir.

Bu siyasətlərin Şirkətin geniş idarəetmə bazasına inteqrasiya edilməsi hüquqi və reputasiya risklərinə qarşı dayanıqlığı və məsuliyyətli biznes davranışına olan sadiqliyi gücləndirir. Bu tədbirlər etik standartların dəstəklənməsi, tərəfdaş inamının artırılması və bütün fəaliyyət sahələrində tələblərə uyğunluğun təmin edilməsi istiqamətində göstərilən səylərin mühüm hissəsini təşkil edir.

### Siyasi İştirak və Lobbiçilik

Şirkət heç bir siyasi fəaliyyət və ya lobbiçiliklə məşğul olmur. SOCAR bu sahə ilə bağlı hər hansı yerli və ya beynəlxalq təşəbbüslərdə iştirak etməmişdir və bu istiqamətdə dövlət orqanları ilə müzakirələr aparmamışdır.



## Dövlət Siyasətinin Müdafiəsi və Təbliği

SOCAR milli siyasət bazasının davamlı inkişaf və enerji keçidindəki mühüm rolunu qəbul edir. SOCAR dövlət neft şirkəti olaraq dövlət siyasətinin və müvafiq qaydaların işlənib hazırlanması üçün milli və regional orqanlarla fəal əməkdaşlıq edir. Bu siyasət və qaydalar Şirkətin biznes fəaliyyəti ilə Azərbaycanın iqlim öhdəlikləri, Paris Sazişi və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) arasında uyğunluq yaradır.

Məsuliyyətli Təbliğat Prinsipləri. SOCAR-ın siyasətə yanaşması qeyd olunan prinsiplər əsasında formalaşır:

SOCAR siyasət təşəbbüslərinin əsas istiqamətlərini açıq şəkildə bəyan edir, milli prioritetlərə və beynəlxalq davamlılıq məqsədlərinə uyğun gəlməyən hər hansı lobbiçilik fəaliyyətindən çəkinir.

Strateji məqsədlərə uyğunluq:

Şirkətin siyasət mövqeyinə əsasən, enerji səmərəliliyinin artırılması, İEYQ emissiyalarının azaldılması və təmiz enerji sahəsinə investisiyaların artırılması kimi uzunmüddətli strateji hədəflər dəstəklənir.

Maraqlı tərəflərin iştirakı:

SOCAR inklüziv və elmə əsaslanan siyasətin formalaşdırılmasını təşviq edir, iqlim və ətraf mühit məsələlərinin həllində akademik dairələrlə, qeyri-hökumət təşkilatları ilə və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq qurur.

İdarəetməyə nəzarət:

SOCAR-ın rəhbərliyi strateji təbliğat mövzularını nəzərdən keçirərək onların korporativ dəyərlərə, karbonsuzlaşdırma məqsədlərinə və tərəfdaş gözləntilərinə uyğun olmasını təmin edir.

## Milli Siyasətin Təbliğatında SOCAR-ın Rolu

SOCAR dövlət siyasəti proseslərində aşağıdakı istiqamətlər üzrə iştirak edir:

İqlim qanunvericiliyi, metan emissiyalarının idarə olunması və aşağı karbonlu inkişaf strategiyaları üzrə Azərbaycan Hökuməti ilə aparılan texniki məsləhətləşmələr;

Yeni proqramlarla bağlı ədalətli keçid məsələlərinin və strateji təsirlərin qiymətləndirilməsi üzrə nazirliklərarası işçi qruplarında iştirak;

UNFCCC çərçivəsində milli İEYQ inventarının hazırlanması və hesabatlılıq prosesinə töhfə verən məlumatlar və təcrübələr.

# SOCAR-IN İQLİM FƏALİYYƏTİNƏ YANAŞMASI VƏ DAVAMLILIQ TƏLƏBLƏRİNƏ UYĞUNLUQ

2024-cü ildə də SOCAR davamlı inkişaf istiqamətində əzmkar şəkildə irəliləməyə davam etmişdir. 2023-cü ildən etibarən Şirkət Milli Enerji Şirkəti və dayanıqlı enerji təchizatçısına çevrilmək istiqamətində keçidə başlamışdır. SOCAR bu ilkin mərhələdə aydın keçid strategiyası təqdim etməklə milli neft şirkəti kimi fəaliyyətini davam etdirməkdədir.

Şirkətin strateji məqsədi 2050-ci ilə qədər “xalis sıfır” emissiya profilinə malik olan, aparıcı milli enerji şirkətinə çevrilməkdir. Bu öhdəlik qlobal iqlim məqsədləri ilə şəkildə uzlaşır və beynəlxalq enerji tələblərinə cavab verir.

SOCAR-ın transformasiya prosesi daxili siyasətlərin uyğunlaşdırılması və davamlılıq idarəçiliyinin təkmilləşdirilməsi yolu ilə dəstəklənir. Sözügedən tədbirlər Şirkətin iqlim və enerji keçidi üzrə yol xəritəsinin əsasını təşkil edir və bu hesabatın müvafiq bölmələrində ətraflı şəkildə təsvir edilmişdir.

SOCAR iqlim fəaliyyəti və davamlılıq üzrə strateji öhdəliklər çərçivəsində öz fəaliyyətində iqlimlə bağlı irəliləyişləri izləmək məqsədilə əsas səmərəlilik göstəricilərini (ƏSG) işləyib hazırlamış və tətbiq etmişdir. Hesabat dövründə Şirkət “$CO_2$ emissiyaları” üzrə yeni ƏSG-ləri təqdim etmişdir. Bu göstəricilər İEYQ emissiyalarının intensivliyini ifadə edir və onların daha dəqiq idarə olunmasına imkan yaradır. Bu ƏSG-lər hərtərəfli daxili qiymətləndirmə aparıldıqdan və SOCAR-ın strateji davamlılıq prioritetləri ilə uyğunlaşdırıldıqdan sonra Müşahidə Şurası tərəfindən rəsmi olaraq təsdiqlənmişdir. Göstəricilər təsdiqləndikdən sonra korporativ səviyyəli ölçü meyarı kimi qəbul edilmiş, Şirkətin ümumi fəaliyyət monitorinqi sisteminə inteqrasiya edilmişdir. Bununla da, emissiyaların azaldılmasında şəffaflıq, hesabatlılıq və davamlı təkmilləşdirmə daha geniş yer almışdır.

ƏSG metodologiyası SOCAR-ın əsas əməliyyat fəaliyyətləri ilə birbaşa əlaqəli olan emissiyalara fokuslanır. Kəsrin yuxarı hissəsi istixana effektinə səbəb olan $CO_2$ emissiyalarının ümumi miqdarını (kiloqramla) göstərir. Bu emissiyalar “upstream” və “midstream” əməliyyatlarında əmələ gələn "Əhatə 1" və "Əhatə 2" emissiyalarıdır. Beləliklə, Şirkətin nəzarəti altında olan əsas əməliyyat sahələrdə emissiyaların ölçülməsi üçün aydın və ardıcıl yanaşma tətbiq edilir.

ƏSG kəsrinin məxrəcində isə Azərbaycanın “upstream” seqmentindəki karbohidrogen hasilatı və Türkiyə aktivlərindəki “downstream” seqmentinin istehsalı göstərilir. Bu göstəricilər neft ekvivalenti bareli ilə (BOE) qiymətləndirilir.

Başqa sözlə desək, hesablamalara kəşfiyyat-hasilat əməliyyatları, neft və qazın nəqli, həmçinin neft-kimya əməliyyatları nəticəsində yaranan emissiyalar daxil edilmişdir. Buraya “upstream”, “midstream” və “downstream” əməliyyatları daxildir, lakin yalnız "Əhatə 3" emissiyaları istisna edilir.

Bu məqsədyönlü yanaşma SOCAR-ın ətraf mühitin mühafizəsi istiqamətində birbaşa karbon izlərinin izlənilməsi və azaldılması öhdəliyini əks etdirir. Seçilmiş metodologiya həm beynəlxalq davamlılıqla bağlı gözləntilərə, həm də 31 dekabr 2023-cü il tarixinədək qüvvədə olan daxili korporativ idarəetmə standartlarına uyğunlaşdırılmışdır

HƏDƏFLƏR




Keçidin Başlanğıcı

İdarəetmə və ƏSG-nin tətbiqi

Qaz məşəlinin söndürülməsi

“Upstream” Seqmentində Metanın İntensivliyinin Sıfıra Yaxınlaşması

Xalis Sıfır Öhdəlikli Milli Enerji Şirkəti

# BİZNES ETİKASI

SOCAR dövlət neft şirkəti olaraq öz etik dəyərlərini qanunvericiliyə uyğunluq və korporativ məsuliyyət prinsipləri əsasında formalaşdırır. Bu prinsiplər Şirkətin idarəetmə praktikasının əsasını təşkil edir, qanunun aliliyinə hörməti təmin edir və bütün fəaliyyət sahələrində yüksək peşəkar davranış standartlarının tətbiq olunmasına töhfə verir.

SOCAR-ın Müşahidə Şurası sürətlə inkişaf edən sənaye mühitinə uyğunlaşmaq məqsədilə 2024-cü ildə bir sıra yeni sənədlər təsdiqləmiş və onların icrasına başlamışdır. Həmin sənədlərə SOCAR-ın Biznes Etikası və Davranış Kodeksi, Maraqların Toqquşması Siyasəti, Qlobal Sanksiyalar Siyasəti, Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə Siyasəti, Sosial Xarakterli Sərmayələr və Sponsorluq Siyasəti daxildir.

Qəbul edilmiş bu yeni siyasətlər SOCAR-ın daha yüksək etik standartlara olan sadiqliyini bir daha nümayiş etdirmiş, təşkilatın bütövlüyünü təmin etmiş, eləcə də Şirkətin işgüzar nüfuzuna və ya etik dəyərlərə xələl gətirən potensial təhdid və risklərin qarşısını effektiv şəkildə almışdır.

SOCAR-ın yeni qəbul edilmiş Biznes Etikası və Davranış Kodeksində Şirkətin məqsədlərinə nail olmaq, davamlı inkişafı dəstəkləmək, eləcə də Azərbaycan Respublikasında daha geniş cəmiyyətin və şirkət işçilərinin rifahına töhfə vermək üçün bütün tərəfdaşların gözlədiyi davranış normaları və standartları təsbit edilmişdir.

Hesabat dövründə Kodeks barədə məlumatlar daxili veb-platformalar və təlimlər vasitəsilə verilmişdir. Bu yanaşmaya əsasən, yeni işə qəbul olunmuş işçilərdən tələb olunur ki, müvafiq Kodeks ilə tanış olduqlarını və onun prinsiplərinə riayət edəcəklərini yazılı surətdə təsdiqləsinlər.

Bundan başqa, mövcud əməkdaşlara məlumat verilmişdir ki, onlar tələb olunan təlimi başa vurduqdan sonra bir il ərazində Davranış Kodeksinin müddəalarına uyğunluğu təsdiqləyən sertifikatlaşmanı imzalamalıdırlar.

Əvvəlki Biznes Etikası Məcəlləsindən fərqli olaraq, yeni Kodeksdə bütün işçilərə şamil edilən ümumi vəzifələrlə yanaşı, rəhbər şəxslər üçün əlavə öhdəliklər də müəyyənləşdirilmişdir. Bundan başqa, sənədə insayder məlumatları, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və cinayətlərin maliyyələşdirilməsinə qarşı mübarizə, vergidən yayınmanın qarşısının alınması, beynəlxalq ticarət məhdudiyyətləri, insan hüquqları və digər sahələri əhatə edən yeni müddəalar daxil edilmişdir.

SOCAR-ın etik davranış və tələblərə uyğunluq sistemini tənzimləyən əsas sənəd Biznes Etikası və Davranış Kodeksidir. Bununla yanaşı, onun müddəalarından irəli gələn xüsusi mövzular üzrə bir sıra daxili sənədlər və siyasətlər də mövcuddur.



# TƏLƏBLƏRƏ UYĞUNLUQ

SOCAR-ın daxili uyğunluq qaydalarının təkmilləşdirilməsi istiqamətində davam edən proses çərçivəsində, 2024-cü ildə Hədiyyələr, Əyləncələr, Həvəsləndirmələr, Qonaqpərvərlik və Qonaqlama üzrə yeni Siyasətin ilkin versiyası yoxlanılma və təsdiqlənmə üçün Müşahidə Şurasına təqdim edilmişdir. Bundan başqa, hal-hazırda iki yeni prosedurun hazırlanması və daxili tətbiqi üzrə hazırlıq işləri davam edir. Həmin prosedurların 2025-ci ildə tamamlanması gözlənilir:

1.Uyğunluğun Kompleks Ekspertizası (Due Dİligence) Proseduru. Bu Prosedur «Qarşı tərəflərin Yoxlanılması haqqında» Standartı (2012-ci ildən qüvvədədir) əvəz edəcək;

2. ESOCAR-ın Etika və Uyğunluq üzrə Yardım Xətti və Qisas Tədbirlərinə qarşı Təminatlara dair Proseduru. Bu Prosedur «Pozuntular, o cümlədən SOCAR-ın Etika Normaları və Korrupsiyaya qarşı Tələblərinin Pozulması Halları haqqında Məlumatlandırma Sistemi» Standartını əvəz edəcək.

### Məxfi və Şəxsi Məlumatların Qorunması

SOCAR konfidensial və fərdi məlumatların qorunmasını biznes etikasının əsas komponenti kimi prioritetləşdirir. Şirkət həssas məlumatların qüvvədə olan qanunvericiliyə və qabaqcıl qlobal təcrübələrə uyğun olaraq qorunmasının vacibliyini qəbul edir. SOCAR Konfidensial informasiyanın və fərdi məlumatların qorunması üzrə Siyasətini qəbul etmişdir. Bu siyasət Şirkətin fəaliyyət göstərdiyi bütün yurisdiksiyalarda hüquqi-normativ tələblərə, həmçinin geniş qəbul edilmiş tövsiyələrə tam uyğunluğu təmin etmək üçün hazırlanmışdır. Siyasət sənədi 5 avqust, 2022-ci il tarixində Müşahidə Şurası tərəfindən rəsmi olaraq təsdiqlənmişdir.

Bu siyasət həmin vaxtdan etibarən SOCAR-ın bütün fəaliyyət sahələrində tətbiq olunur və daxili uyğunluq sistemlərinə inteqrasiya edilir. Siyasət sənədində konfidensial və fərdi məlumatların növləri, eləcə də onların qorunması üçün müvafiq qaydalar və məsuliyyət məsələləri təsbit edilmişdir. Sənəddə həmçinin tələblərə əməl edilməsinə nəzarət və Siyasətin müntəzəm şəkildə nəzərdən keçirilməsi prosedurları verilmişdir.

### Korrupsiyaya Qarşı Mübarizə

SOCAR, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilmiş korrupsiyaya əleyhinə mübarizə prinsiplərini və tələblərini, biznes etikası standartlarını, beynəlxalq normativ-hüquqi aktları, eləcə də xarici ölkələrin qanunları və qabaqcıl beynəlxalq təcrübələr əsasında korrupsiyanın bütün formalarına qarşı dözümsüzlük yanaşmasını tətbiq edir.

Şirkət bu öhdəliyə uyğun olaraq 2012-ci ildən etibarən qüvvədə olan əvvəlki siyasətin əvəzinə Korrupsiyaya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə üzrə yeni Siyasət hazırlamış və 2024-cü ildə tətbiq etməyə başlamışdır.

SOCAR bu siyasəti həyata keçirərək tətbiq olunan qanunvericiliyə, beynəlxalq prinsiplərə və qüvvədə olan digər hüquqi tələblərə uyğun olaraq korrupsiyaya qarşı mübarizəyə və şəffaflığın artırılmasına yönəlmiş hərtərəfli daxili normativ baza yaratmışdır.

Bundan başqa, yeni qəbul edilmiş Biznes Etikası və Davranışı Kodeksində, habelə veb-saytda ictimaiyyətə açıqlanmış ayrıca sənəddə SOCAR-ın biznes tərəfdaşları, o cümlədən təchizatçılar, podratçılar və xidmət təminatçılarından gözləntilər aydın şəkildə müəyyən edilmişdir. SOCAR-ın etika və uyğunluğa dair pozuntuların bildirilməsi üçün yaradılmış "Qaynar Xətt" fəaliyyətini tənzimləyən standartın Azərbaycan və ingilis dillərindəki versiyaları şirkətin rəsmi internet səhifəsində ictimaiyyətə təqdim edilmişdir.

SOCAR Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, 2024-cü il üzrə tədbirlər planını hazırlamış, təsdiqləmiş və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyasına təqdim etmişdir. Həmin planda işə qəbul prosesində şəffaflığın artırılması, ictimai nəzarət mexanizmlərinin tətbiqi, məlumatlılığın artırılması, əməkdaşlar üçün korrupsiya əleyhinə mübarizə üzrə təlimlərin təşkili, eləcə də korrupsiya risklərinin qiymətləndirilməsi və idarə edilməsi üzrə görülən tədbirlər öz əksini tapmışdır. Bundan başqa, ilin sonunda komissiyaya və Nazirlər Kabinetinə həyata keçirilmiş tədbirlər barədə hesabat təqdim edilmişdir.

2025-ci ildə yeni tədbirlər planının təsdiqi və icrası nəzərdə tutulur və nəticələrə uyğun olaraq aidiyyəti qurumlara hesabat təqdim ediləcəkdir. Bununla yanaşı, SOCAR-ın korrupsiyaya qarşı mübarizə istiqamətində fəaliyyəti barədə məlumatlar ictimai informasiya kanalları vasitəsilə ictimaiyyətə çatdırılmışdır.

Hesabat dövründə SOCAR-ın struktur bölmələrində korrupsiya halları aşkar edilməmişdir. Şirkət daxili nəzarət mexanizmlərinin və uyğunluq prosedurlarının effektivliyini artırmağa, təşkilatın bütün səviyyələrində dürüstlük və şəffaflıq prinsiplərini qorumağa sadiqdir. SOCAR-ın korrupsiyaya qarşı dözümsüzlük siyasətinə ciddi şəkildə riayət etməsi qabaqlayıcı və maarifləndirici tədbirlərin uğurla həyata keçirilməsinə töhfə verir.

### Korrupsiyaya Qarşı Mübarizə Fəaliyyətinin Əsas Prinsipləri



## Maraq Toqquşmasının Tənzimlənməsi

SOCAR maraq toqquşmasının qarşısını almaq məqsədilə işçilərin şəxsi maraqlarının şirkətin fəaliyyətinə mane olmaması və qərarların qəbulu prosesində obyektivliyi pozmaması üçün xüsusi sistem tətbiq etmişdir. İşçilərin tərəfdaş və ya rəqib şirkətlərə olan marağını gizlətməməsini təmin etmək məqsədilə davamlı nəzarət mexanizmləri həyata keçirilir. 2014-cü ildən etibarən müvafiq məlumatların toplanması üçün maraqların toqquşması haqqında bəyannamələr tətbiq olunur və bütün müəyyən edilmiş və ya potensial hallar faktiki münaqişəyə və ya korrupsiya təcrübəsinə çevrilmə riskinə əsasən qiymətləndirilir.

2024-cü ildə Maraqların Toqquşması Siyasətinin həyata keçirilməsi ilə əlaqədar olaraq, potensial hallar üzrə qiymətləndirmələrin aparılması üçün SOCAR-ın Baş ofisində xüsusi işçi qrupu yaradılmışdır. Siyasətdə nəzərdə tutulmuş müddəalara uyğun olaraq, işçilər üçün xüsusi və yarımillik bəyannamə formaları, işçi olmaq üçün müraciət edən namizədlərə isə məlumat açıqlama formaları hazırlanaraq Şirkətin daxili şəbəkəsində yerləşdirilmişdir. Bundan əlavə, SOCAR Groupa daxil olan müəssisələrdə analoji işçi qruplarının yaradılması və müvafiq bəyannamə formalarının tətbiqi barədə göstərişlər verilmişdir.

## Etika və Uyğunluq Risklərinin İdarə Edilməsinə Tətbiq Olunan Yanaşma və Hesabatlılıq

SOCAR məsuliyyətli idarəetməyə daha güclü sadiqlik nümayiş etdirərək etik risklərin müəyyənləşdirilməsi və aradan qaldırılması üçün formal mexanizmlər yaratmışdır.

Şirkət dürüstlük və şəffaflıq standartlarını tətbiq etmək üçün etika və uyğunluq risklərini müntəzəm şəkildə qiymətləndirir. Bu qiymətləndirmələr müəyyən edilmiş nəzarət mexanizmləri əsasında aparılan yoxlamalar və risk qiymətləndirmələrinin vasitəsilə dəstəklənir. Prosesin əsas alətlərindən biri də “Korrupsiyaya Qarşı Mübarizə Sisteminin Qiymətləndirilməsi Metodologiyası üzrə Standart”dır. Bu standartda nəzarət tədbirləri, yoxlamanın planlaşdırılması, hesabatlılıq, qərar vermə mexanizmləri və düzəldici tədbirlər də daxil olmaqla əsas istiqamətlər və qiymətləndirmə üsulları öz əksini tapmışdır. Standartın əsas məqsədi korrupsiyaya qarşı mübarizə prinsiplərinə effektiv nəzarət etmək, antikorrupsiya sisteminin səmərəlilik göstəricilərinin monitorinqini aparmaq və Şirkət daxilində korrupsiya risklərini minimuma endirməkdir. Standartın tətbiqi potensial zəifliklərin və uyğunsuzluqların vaxtında aşkar edilməsinə şərait yaradır. Qiymətləndirmələrin nəticələri sənədləşdirilir və daxili nəzarət sisteminin təkmilləşdirilməsini istiqamətləndirir. Bu yanaşma SOCAR-ın etika və uyğunluq risklərinin idarə olunması strategiyasının əsasını təşkil edir və davamlı inkişafı dəstəkləyir.

SOCAR strukturlaşdırılmış uyğunluq proqramları və korporativ məlumatlandırma mexanizmləri vasitəsilə etik hesabatlılığı təmin edir. Şirkətin tələbinə əsasən, bütün işçilər Biznes Etikası və Davranışı Kodeksilə tanış olduqlarını öz imzaları ilə təsdiqləməlidirlər. İşçilər eyni zamanda Kodeksin prinsiplərinə nə dərəcədə sadiq olduqlarını təsdiqləyən illik sertifikatlaşmadan keçməlidirlər. 2025-ci ildə SOCAR bütün əməkdaşlara və digər maraqlı tərəflərə əlçatan olacaq Yardım Xəttini yaradacaq və qisas tədbirlərinə qarşı təminatlara dair Proseduru tətbiq edəcək. Bu Prosedur Şirkətin daxili şəbəkəsində yerləşdiriləcək, məlumatların təqdim edilməsi, qəbulu, araşdırılması, məlumat verənlərin qorunması və hesabat vermə mexanizmlərini tənzimləyəcəkdir.

Korporativ məlumatlandırma kanalları, o cümlədən əvvəlki «Qaynar Xətti» əvəzləyəcək «Yardım Xətti» anonim məlumatlandırma platforması və xüsusi elektron poçt ünvanı SOCAR-ın rəsmi internet səhifəsində (https://socar.az) yerləşdiriləcək. İstifadəçilərin məlumatlılığını artırmaq məqsədilə bu resurslarla yanaşı izahlı məlumatlar da yerləşdiriləcək. Prosedurun müddəaları müqavilə öhdəliklərində nəzərdə tutulmuş tələblərə uyğun olaraq SOCAR ilə müqavilə əsasında fəaliyyət göstərən şəxslərə də şamil olunacaq. Bu tədbirlər etika və uyğunluq ilə bağlı narahatlıq doğuran məsələlərin ortaya çıxarılması üçün şəffaf və təhlükəsiz mühitin yaradılmasına xidmət edir.

SOCAR hesabat dövrü ərzində mövcud kommunikasiya kanalları vasitəsilə daxil olmuş müraciətlərin və məlumatların qəbulunu və emalını davam etdirmişdir. 2024-cü ildə mövcud «Qaynar Xətt» platforması vasitəsilə daxili və xarici mənbələrdən ümumilikdə 23 şikayət daxil olmuşdur. Şikayətlər Şirkətin fəaliyyətinin bir neçə istiqamətləri ilə bağlı narahatlıq doğuran müxtəlif məsələləri əhatə etmişdir. Hər bir müraciət Şirkətin etika və uyğunluq risklərinin idarə edilməsi prosedurlarına uyğun olaraq diqqətlə qiymətləndirilmiş, araşdırmalar obyektiv şəkildə aparılmış və nəticələr əsasında fərdi cavablar təqdim olunmuşdur. Zəruriət yarandıqda müəyyən edilmiş problemlərin aradan qaldırılması üçün düzəldici və profilaktik tədbirlər görülmüşdür. Bu təcrübələr şəffaflıq, hesabatlılıq və davamlı təkmilləşdirmə mədəniyyətinin formalaşmasına töhfə verir.

## Korporativ Etika, Tələblərə Uyğunluq, Korrupsiyaya Qarşı Mübarizə üzrə Təlimlər və Maarifləndirmə

SOCAR bütün təşkilati səviyyələrində korporativ etika, tələblərə uyğunluq və korrupsiyaya qarşı mübarizə ilə bağlı məlumatlılığı artırmaq məqsədilə strukturlaşdırılmış təlim proqramları həyata keçirir. Bütün əməkdaşlar və yeni işçilər Şirkətin Korrupsiya, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, Cinayətlərin maliyyələşdirilməsi və Vergidən Yayınma ilə Mübarizə Siyasəti, Maraqların Toqquşması Siyasəti və Biznes Etikası və Davranış Kodeksi ilə tanış olurlar. Üzbəüz və uzaqdan (onlayn) keçirilən təlim sessiyalarında Kodeks və siyasətlərin müddəaları, tətbiq olunan prosedurlar və əməkdaşların üzərinə düşən məsuliyyət sahələri izah edilir.

2024-cü ildə SOCAR-da ölkə başçısının təsdiq etdiyi “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq xüsusi təlimlər keçirilmişdir. Bu təlim sessiyaları “Korrupsiyaya Qarşı Davranış Modeli” kurikulumu əsasında təşkil edilmişdir. Təlimdə qərar qəbul edən 627 əməkdaşı iştirak etmişdir. Təlimlərin effektivliyi qiymətləndirilmiş, əldə olunan nəticələr əsasında gələcək proqramların təkmilləşdirilməsinə dair tövsiyələr hazırlanmışdır.

2025-ci il üçün SOCAR tərəfindən yeni fəaliyyət planı hazırlanmış və daha geniş təlim təşəbbüsləri nəzərdə tutulmuşdur. Yenilənmiş Biznes Etikası və Davranışı Kodeksi, habelə yeni uyğunluq siyasətləri üzrə təlim sessiyalarının keçirilməsi planlaşdırılır.

## Davranış Kodeksinin Pozulması Haqqında Məlumat

2024–cü ildə SOCAR-da Biznes Etikası və Davranış Kodeksi ilə bağlı heç bir pozuntu faktı qeydə alınmamışdır.

# RİSK İDARƏETMƏ BAZASI

SOCAR ISO 31000 və COSO standartlarının kompleks tətbiqinə əsaslanan və Şirkətin fəaliyyət sahəsində biznes proseslərinə uyğunlaşdırılmış əhatəli risk idarəetmə sistemini tətbiq etmişdir. Bu yanaşma SOCAR-ın strateji məqsədlərini və uzunmüddətli dayanıqlılığı dəstəkləyərək daha effektiv və strukturlu risk idarəetmə prosesinin tətbiqinə şərait yaradır. SOCAR hər iki beynəlxalq standartın güclü tərəflərini bu sistemdə birləşdirərək risklərin idarə edilməsi prosesinin bütün mərhələlərində (aşkarlanma və qiymətləndirmədən başlayaraq prioritetləşmə, Risklərin idarə edilməsi tədbirləri və nəzarətdə saxlanılması, monitorinq və hesabatlığa qədər) effektivliyi artırır.

Rəsmi olaraq təsdiqlənmiş və 2024-cü ildə tətbiq edilmiş yeni metodologiya SOCAR-ın müxtəlif riskləri idarə etmək imkanlarını daha da gücləndirmişdir.

Qərarların qəbulu proseslərinə risk barədə məlumatlılıq mədəniyyətinin formalaşması SOCAR-ın şəffaflıq, hesabatlılıq və fəaliyyətin uzunmüddətli sabitliyinə olan sadiqliyini nümayiş etdirir.

Şirkət bütün fəaliyyət sahələrində əməliyyatın dayanıqlığını təmin etmək məqsədilə güclü risk idarəetmə bazası yaratmışdır. Bu proses vahid metodologiya və daxili hesabat vermə standartlarını təsbit edən Baş ofisin Risklərin İdarə Edilməsi Departamenti (RİED) tərəfindən əlaqələndirilir. Struktur bölmələr və törəmə müəssisələr mütəmadi olaraq Baş ofisə risk hesabatları təqdim edirlər (Şəkil 15).

Proses inteqrasiyasını gücləndirmək məqsədilə RİED ikinci müdafiə xətti funksiyaları ilə əməkdaşlıq edir və risk sahiblərinə effektiv daxili nəzarətlərin saxlanılmasında dəstək göstərir.

Bu ikinci müdafiə xəttini Risklərin İdarə Edilməsi Departamenti və hər bir törəmə müəssisədə təyin olunmuş risk mütəxəssisləri təşkil edir. RİED risklərin növündən və xarakterindən asılı olaraq, Ətraf Mühit, Uyğunluq, İnformasiya Təhlükəsizliyi, eləcə də Sağlamlıq və Əməyin Təhlükəsizliyi şöbələri ilə birgə risklərin qiymətləndirməsini həyata keçirir. Bu çarpaz-funksional yanaşma SOCAR-ın potensial riskləri proqnozlaşdırmaq, idarə etmək və vaxtında cavab tədbiri görmək imkanlarını gücləndirir (Şəkil 16).

Şəkil 15. Risklərin İdarə Edilməsi Fəaliyyətinin Təşkilati Strukturu



Şəkil 16. Risklərin İdarə Edilməsi Prosesində İkinci Müdafiə Xətti üzrə Məsul Vəzifələr




SOCAR risklərin idarə edilməsi proseslərində mühüm rol oynayan İnsidentlərin İdarə Edilməsi Sistemini yaratmışdır. Bu mexanizm gələcəkdə oxşar hadisələrin qarşısını almaqla yanaşı, reallaşmış risklərə dair məlumatların vaxtında və dəqiq şəkildə toplanılmasını, təhlilini və müvafiq tərəfdaşlara çatdırılmasını təmin edir.

Reallaşmış risklər barədə toplanılan məlumatlar gələcək risklərin təhlili və strateji planlaşdırması üçün etibarlı mənbə rolunu oynayır. İnsidentlərdən öyrənilən dərslər sistemli şəkildə risklərin idarə edilməsi praktikasına inteqrasiya olunur, fəaliyyət sahələrinin davamlı şəkildə təkmilləşdirilməsinə töhfə verir, eləcə də təşkilat daxilində ümumi təhlükəsizlik və idarəetmə mədəniyyəti formalaşdırır.

SOCAR qəbul edilmiş risk səviyyəsinin korporativ məqsədlərə uyğun olmasını təmin etmək üçün Risk İştahası Bəyannaməsi (RİB) işləyib hazırlamış və tətbiq etmişdir. Bu bəyannamə SOCAR-ın təsdiqlənmiş korporativ strategiyasına və müvafiq seqment strategiyalarına uyğun olaraq müəyyənləşdirilmişdir.

Bu çərçivənin bir hissəsi olaraq, Əsas Risk Göstəriciləri (ƏRG) müəyyən edilmiş və korporativ məqsədlərə uyğun şəkildə xəbərdarlıq və limit hədləri təyin olunmuşdur.

Erkən xəbərdarlıq siqnallarının verilməsi və risklərin fəal şəkildə idarə edilməsi üçün ƏRG-lərin mütəmadi monitorinqi aparılır.

SOCAR davamlılıq hesabatının hazırlanması zamanı müəyyən edilmiş əsas mövzulara uyğun olaraq, risklə bağlı yanaşmaları strateji planlaşdırma proseslərinə inteqrasiya edir. Qiymətləndirmə zamanı toplanan məlumatlar ESG məqsədlərinə və uzunmüddətli öhdəliklərə potensial təsirləri qiymətləndirmək üçün istifadə olunur.

Tənzimləmə və uyğunluq riskləri tərəfdaşların dəyişən gözləntilərini və qlobal yenilikləri nəzərə almaqla təhlil edilir. Risklərin idarə edilməsi sisteminin davamlılıq prioritetləri ilə uyğunlaşdırılması daxili cavabdehliyi gücləndirir və maraqlı tərəflərin inamını artırır.

SOCAR yeni təhdidlərin (məsələn, kibertəhlükəsizlik və iqlimlə bağlı risklər) qarşısını almaq məqsədilə cavab tədbirlərini vaxtında və effektiv şəkildə həyata keçirmək üçün öz alətlərini və təcrübələrini mütəmadi olaraq təkmilləşdirir. Bu yanaşma şirkətin şəffaflığa, sağlam idarəetməyə və fəal nəzarətə olan sadiqliyini nümayiş etdirir.

### İqlim Risklərinin Strateji Planlaşdırma və Risk İştahasına İnteqrasiyası

İqlim risklərinin SOCAR-ın strateji planlaşdırma və risk iştahası sisteminə inteqrasiyası şirkətin uzunmüddətli davamlılıqla bağlı yanaşmasının mühüm hissəsinə çevrilmişdir. İqlim riskinə qarşı sağlam strategiyalar şirkətin mövcud dekarbonizasiya təşəbbüsləri ilə yanaşı, biznesin davamlılığının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

İqlimlə bağlı risklərin maliyyə və əməliyyat sabitliyinə artan təsirini nəzərə alaraq, şirkət üzrə iqlim risklərinin idarə olunması üçün müvafiq proqramın hazırlanmasına xarici məsləhətçiləri cəlb edilmişdir. Qiymətləndirmə həm fiziki, həm dəkeçid riskləri nəzərə alınmış, SOCAR-ın dənizdə və quruda həyata keçirilən əməliyyatlarına xüsusi diqqət yetirilmişdir.

Proqramın hazırlanması zamanı əsas zəif cəhətlərin və əməliyyat asılılıqlarının müəyyənləşdirilməsi məqsədilə müxtəlif biznes vahidlərinin nümayəndələri ilə sistemli müsahibələr aparılmış və maraqlı tərəflərin fəal iştirakı təmin edilmişdir. SOCAR-ın riskə məruz qalma səviyyələrini kontekstləşdirmək və qabaqcıl təcrübələri müəyyənləşdirmək üçün həmkar şirkətlərlə müqayisələr aparılmış və qlobal enerji sektoru üzrə tendensiyalar təhlil edilmişdir. İnvestor gözləntilərinə və inkişaf edən normativ bazalara uyğunluğu təmin etmək üçün ESG institutlarının yanaşmaları və TCFD prinsipləri nəzərdən keçirilmişdir. Müxtəlif fəaliyyət sahələrinə məsul olan şəxslərlə aparılan müsahibələr “upstream”, “midstream” və “downstream” seqmentləri üzrə iqlim risklərinin uyğunluğunu daha dərindən anlamaq imkanı vermişdir. Toplanan məlumatlar əsasında müəyyənləşdirilmiş cavab tədbirləri qrup səviyyəsində hazırlanmış, iqlim dəyişikliklərinə qarşı davamlılıq planına daxil edilmişdir. Əlavə olaraq, iqlim riskinin azaldılması ilə bağlı konkret qərarlar hazırlanaraq daha geniş risk idarəetmə çərçivəsinə inteqrasiya edilmişdir.

Bunlara ssenari təhlili, yenilənmiş korporativ risk reyestrləri və uzunmüddətli strateji və maliyyə planlaşdırmasına inteqrasiya daxildir.

Həyata keçirilən tədbirlər həm aktivlər və həm təşkilat səviyyəsində davamlılığı gücləndirərək SOCAR-ın müxtəlif iqlim ssenariləri üzrə hazırlığını dəstəkləyir. Bu yanaşma iqlimlə bağlı mülahizələrin ayrı məsələ kimi deyil, müəssisə miqyasında nəzərə alınmasını və idarəetmə-planlaşdırma proseslərinə tam şəkildə inteqrasiya olunmasını təmin edir. SOCAR inteqrasiyalı yanaşma çərçivəsində fəaliyyətin dayanıqlığını gücləndirməyi, maraqlı tərəflərlə şəffaflığı artırmağı və uzunmüddətli, davamlı dəyərlərin yaradılmasını hədəfləyir. SOCAR-ın iqlim və enerji keçidi üzrə tətbiq etdiyi yanaşmalar risklər və onlarla bağlı təsirilərin azaldılmasına yönəlmiş təşəbbüslərdən irəli gəlir və SOCAR-ın mövcud mövqeyi ilə uyğunlaşdırılır.

### Emal Müəssisələrində Qəzalar və Planlaşdırılmamış Dayanmalar

SOCAR-ın üzləşdiyi əsas əməliyyat risklərindən biri də emal müəssisələrində baş verən qəza halları və planlaşdırılmamış dayanmalardır. Yanğınlar, avadanlıqların sıradan çıxması və mexaniki nasazlıqlar kimi hadisələr istehsalat əməliyyatlarının qismən və ya tamamilə dayandırılmasına səbəb olar bilər. Bunun nəticəsində şirkətin əhəmiyyətli əməliyyatları, maliyyə və nüfuzu ilə bağlı müxtəlif fəsadlar yaranır.

2024-cü ildə SOCAR belə hadisələrin başvermə ehtimalını qiymətləndirmiş, emalın miqyasını və mürəkkəbliyini nəzərə alaraq, belə hadisələri qaçılmaz hesab etmişdir. Potensial təsirlər müxtəlif kəskinlik dərəcəsinə (məsələn xəsarət, ətraf mühitin çirklənməsi, uzunmüddətli dayanmalar, maliyyə itkiləri və s.) malik olur.

SOCAR belə riskləri azaltmaq məqsədilə texnoloji avadanlıqlar üçün nəzərdə tutulmuş əsaslı təmir və texniki xidmət proqramlarını ciddi şəkildə həyata keçirir, istehsalat və istismar sahələrində müəyyən edilən texniki xidmət ehtiyaclarını isə operativ şəkildə aradan qaldırır. Bu fəal yanaşma avadanlıq nasazlıqlarının və dayanmaların başvermə ehtimalını əhəmiyyətli dərəcədə azaldır.

SOCAR-ın risk iştahası sistemində texnoloji təhlükəsizlik qaydalarının pozulmasına, eləcə də insan sağlamlığına və ətraf mühitə zərər vurmaq potensialı olan fəaliyyətlərə qarşı sıfır tolerantlıq prinsipi öz əksini tapmışdır. Bu çərçivə qəzalardan və planlaşdırılmamış dayanmalardan irəli gələn bütün risklərin yüksək diqqətlə və ehtiyatlı şəkildə idarə edilməsini təmin edir.

### Qazma Prosesində Çətinlik Yaradan Hallar və Qəzalar

Qazma əməliyyatları özünəməxsus əməliyyat riskləri yaradır; bunlara quyunun nəzarətdə saxlanması ilə bağlı çətinliklər və avadanlıq nasazlıqları daxildir ki, bunlar həm qəzalara, həm də ciddi əməliyyat gecikmələrinə səbəb ola bilər. 2024-cü ildə belə risklərin baş vermə ehtimalı çox yüksək qiymətləndirilmiş, qazma fəaliyyətlərinin çox təhlükəli olması xüsusilə vurğulanmışdır. Mümkün fəsadlar müxtəlif kritik təsirlərə (məsələn xəsarət, ətraf mühitin çirklənməsi, aktivlərin itirilməsi, maliyyə fəsadları və s.) malik olur.

SOCAR bu risklərin azaldılması məqsədilə ciddi əməliyyat-nəzarət tədbirləri həyata keçirir. Belə tədbirlərə zərurət yarandıqda əlavə quyu ağzının (gövdəsinin) genişləndirilməsini, qazma məhlulu parametrlərinin davamlı şəkildə yoxlanılmasını, qazma mayesinin sıxlığının layın şəraitinə uyğun olaraq dəqiqliklə seçilməsini və sementləmə planlarının icrasını aid etmək olar. Şirkət həmçinin sementləmə əməliyyatları zamanı dövri təzyiq səviyyələrinə nəzarət edir, palçığın çəkisini və aşqarları tələb olunan səviyyədə saxlayaraq quyunun sabitliyini təmin edir, eləcə də geoloji dəyişikliklərdən yaranan diferensial təzyiq təsirlərini minimuma endirir.

SOCAR qazma əməliyyatlarında texnoloji təhlükəsizlik və sağlamlıq tələblərinə cavab vermək üçün "sıfır risk iştahası" prinsipini tətbiq edir. Şirkət işçi heyətinin təhlükəsizliyini və ətraf mühitin mühafizəsini təmin etmək məqsədilə yerli qanunvericiliyə, qabaqcıl beynəlxalq təcrübələrə və daxili təhlükəsizlik standartlarına tam riayət olunmasını tələb edir.

### Maliyyə Riskinin İdarə Edilməsi

SOCAR Əsas Risk İndikatorlarını (ƏRİ) maliyyə stimullaşdırma çərçivəsinə inteqrasiya etmişdir. Bu inteqrasiya işçilərin yalnız nəticəyə yönəlməsini deyil, həm də fəaliyyətlərini məqbul risk hüdudları daxilində həyata keçirməsini təşviq edir və onların fərdi məqsədlərini şirkətin risk iştahası ilə uzlaşdırır.

Bundan əlavə, SOCAR maliyyə risklərinin idarə edilməsi çərçivəsinin mühüm hissəsi kimi stress testlərini və həssaslıq təhlillərini həyata keçirir. Bu təhlillərin əsasında bazar risklərinin (valyuta, əmtəə qiyməti və faiz dərəcəsi riskləri) şirkətin maliyyə göstəricilərinə təsirləri qiymətləndirilir, eləcə də risklərin qabaqlayıcı şəkildə azaldılması və maliyyə dayanıqlığı təmin edilir.

### Risk Mədəniyyəti və Təlimləri

2025-ci ildə SOCAR beynəlxalq səviyyədə tanınmış ISO 31000 Risklərin İdarə Edilməsi Standartına tam uyğunlaşdırılmış formal təlim proqramları təşkil edərək risk mədəniyyətinin gücləndirilməsi istiqamətində mühüm addımlar atmışdır. Təlim proqramları yalnız risklərin idarə edilməsi sisteminin əsas prinsiplərini təqdim və izah etmək məqsədilə deyil, həm də iştirakçılar arasında praktiki anlayışı və tətbiqi təmin etmək üçün hazırlanmışdır. Sessiyalardan sonra iştirakçıların mövzunu nə dərəcədə mənimsədiyini və bu prinsipləri öz vəzifə öhdəlikləri çərçivəsində effektiv şəkildə tətbiq etmə bacarığını obyektiv qiymətləndirmək üçün ixtisas imtahanları keçirilmişdir.

SOCAR müəssisə daxilində riskdən xəbərdar mühitin yaradılmasında rəhbərliyin əhəmiyyətini nəzərə alaraq, vitse-prezidentlər, müəssisə rəhbərləri və departament rəisləri də daxil olmaqla üst rəhbərlik üçün xüsusi təlim proqramları hazırlamış və həyata keçirmişdir. Bu təlim proqramları strateji və operativ səviyyələrdə risklərin idarə edilməsi sisteminin inteqrasiyasını gücləndirmiş, şirkətin "risk iştahası" prinsiplərinə və davamlılıqla bağlı məqsədlərinə uyğun olaraq ardıcıl qərar qəbul etmə təcrübələrini təşviq etmişdir.

SOCAR belə təşəbbüslərin sayəsində güclü və proaktiv risk mədəniyyətinin formalaşdırılmasını, risklə bağlı məlumatlılığın tələblərə uyğunluq çərçivəsindən çıxaraq gündəlik biznes proseslərinin tərkib hissəsinə çevrilməsini təmin edir. Şirkət belə hesab edir ki, məlumatlı, fəal işçilər ön xəttdən tutmuş idarə heyətinə qədər potensial riskləri erkən aşkarlamaq, effektiv şəkildə idarə etmək və biznesin davamlı inkişafını dəstəkləmək baxımından mühüm əhəmiyyət kəsb edir.

### Riskin Monitorinqi, Auditi və Davamlı Təkmilləşdirmə

SOCAR hər il risk profilinin ümumi illik qiymətləndirilməsini həyata keçirir və risklərin idarə olunmasına tətbiq etdiyi yanaşmaları müvafiq şəkildə yeniləyir. Şirkət həmçinin qəzalar, planlaşdırılmamış dayanmalar və qazma əməliyyatları ilə bağlı mürəkkəbləşmələr də daxil olmaqla, bütün əməliyyat risklərinin effektiv şəkildə idarə olunmasını təmin etmək məqsədilə təsirazaltma tədbirlərinin icrasına rüblük əsasda nəzarət edir və onların effektivliyini qiymətləndirir. Bu mütəmadi monitorinq tədbirləri yeni risklərin vaxtında aşkarlanmasına və risklərə nəzarət mexanizmlərinin operativ şəkildə uyğunlaşdırılmasına şərait yaradır.

SOCAR fəaliyyətin bütövlüyünü və uyğunluğunu təmin etmək məqsədilə akkreditə olunmuş müstəqil üçüncü tərəf şirkətlər tərəfindən kənar auditlərin keçirilməsini təmin edir. Bu auditlər ISO standartlarına cavab verən uyğunluq, normativ tələblər, fəaliyyətin bütövlüyü və maliyyə hesabatlılığı da daxil olmaqla, geniş sahələri əhatə edir. Ciddi audit prosesi əsasında müstəqil təminat verilir və bununla da SOCAR-ın fəaliyyətinin dayanıqlığı və risk idarəetmə çərçivəsi davamlı olaraq təkmilləşdirilir.

# İNNOVASİYALAR VƏ RƏQƏMSAL HƏLL YOLLARI

SOCAR-da innovasiya aydın məqsədə xidmət edir: bu məqsəd texnologiya və effektiv yanaşma əsasında davamlı iqtisadi inkişafı dəstəkləməkdir. 2024-cü ildə biz bu öhdəliyi möhkəmləndirərək üç "downstream" müəssisəsini əhatə edən dəyəryaratma proqramını işə saldıq və "Azəriqaz" və "Azneft" İB kimi törəmə qurumlarla sıx əməkdaşlıq etdik. Hədəflənmiş əməliyyat təkmilləşdirmələri sayəsində proqram 150 milyon ABŞ dollarından çox faktiki iqtisadi təsir yaratdı; burada Türkiyədəki STAR zavodu 63,3 milyon ABŞ dolları ilə liderlik edir, Azərbaycan üzrə Heydər Əliyev adına Neft Emalı Zavodu isə 59,8 milyon ABŞ dolları həcmində əldə edilmiş dəyərlə onu yaxından izləyir. Bu təşəbbüs SOCAR üzrə daha geniş rəqəmsal və texnoloji transormasiyanın əsasını qoymuşdur.

SOCAR məlumat əsaslı qərar qəbuletmə prosesinin gücünü nəzərə alaraq, Maliyyə, İnsan kapitalı və inklüzivlik seqmenti, "Azəriqaz" İB və digər fəaliyyət sahələri üzrə mühüm məlumatları birləşdirən, kompleks aralıq məlumat platforması yaratmışdır. Bu təşəbbüs sadəcə olaraq məlumatların saxlanması ilə kifayətlənməyərək, etibarlı və əlçatan "həqiqət mənbəyi" yaratmış, daha məlumatlı, daha sürətli və davamlı biznes qərarlarının qəbuluna təkan vermişdir. Platforma həmçinin rəqəmsal həll yollarının artırılması və qabaqcıl analitik yanaşmaların əsas əməliyyat proseslərinə inteqrasiyası üçün baza rolunu oynamışdır.

SOCAR güclü məlumat bazası əsasında qısa müddətdə dolayı iqtisadi dəyər yaradan qabaqcıl süni intellekt və analitika təşəbbüslərini təqdim etmişdir. ENOM modeli (Karbamid Zavodunun Enerji Şəbəkəsi üçün xətti optimallaşdırma modeli) elektrik sərfiyyatının azaldılması, buxardan istifadənin optimallaşdırılması və etibarlılığın artırılması sayəsində 5,6 milyon AZN dəyərində vəsaitə qənaət etmək imkanı vermişdir. Texnologiyanın bu cür məqsədyönlü tətbiqləri şirkətin fəaliyyətində enerjinin yeni mənzərəsini formalaşdırır və rəqəmsal transformasiyanın nəzərə çarpan faydalarını açıq şəkildə nümayiş etdirir.

Rəqəmsal innovasiyaya olan öhdəliyimiz həmçinin birbaşa əməliyyat sahələrinə də şamil olunur. Məşəl İzləmə Sistemi kimi alətlər məşəl qurğularının real vaxt rejimində izlənilməsinə imkan verərək, anomal halların dərhal aşkarlanmasını və proaktiv cavab tədbirlərinin görülməsini təmin edir. Bununla yanaşı, Qabaqcıl Seysmik və Quyu Məlumatlarının Vizuallaşdırılması üzrə Tətbiq Proqramı texniki qruplara mürəkkəb geoloji məlumatları 2D və 3D formatlarında vizuallaşdırmaq imkanı verir. Bu yanaşma kəşfiyyat və hasilatla bağlı qərarların qəbulunda sürəti və dəqiqliyi əhəmiyyətli dərəcədə artırır.

Rəqəmsal transformasiyaya doğru səyahətimiz Türkiyədəki aktivlərimiz olan Petkim və STAR sayəsində daha da sürətlənmişdir. Bu sənaye sahələrində qabaqcıl Sİ həll yolları ilk dəfə sınaqdan keçirilmişdir. Petkim-də tətbiq edilən süni intellekt əsaslı Krekinq Avadanlığının Optimizasiyası layihəsi zavodun EBITDA göstəricisini 10% artırmaqla yanaşı, yanacaq qazı sərfini və $CO_2$ emissiyalarını əhəmiyyətli dərəcədə azaltmışdır. Bu uğurlar bizim inamımızı bir daha doğrultdu: ağıllı rəqəmsal investisiyalar iqtisadi dəyərlə yanaşı, ekoloji dəyər də yaradır.

SOCAR-ın Türkiyədəki nailiyyətləri beynəlxalq miqyasda da tanındı. Dünya İqtisadi Forumu SOCAR-ı ağır sənaye sahələrində rəqəmsal texnologiyalar tətbiq edən lider kimi qəbul edərək, Petkim-i neft-kimya sektorunda, STAR-ı isə emal sektorunda ilk "Rəqəmsal Mayak" kimi təqdim etdi. Davos platformasında verilən bu qiymətli mükafatlar transformasiya və davamlılıq istiqamətində rəqəmsal həll yollarının tətbiqində SOCAR-ın oynadığı aparıcı rolun qlobal səviyyədə qəbul edildiyini təsdiqləyir.

SOCAR bu dinamikanı davam etdirmək məqsədilə 2024-cü ilin noyabr ayında, COP29 çərçivəsində regionda effektivliyin, davamlılığın və innovasiyaların gücləndirilməsi üçün strateji platforma olan Xəzər Süni İntellekt İnstitutunu təsis etdi. Bu institut SOCAR-ın əməliyyatlarını, Azərbaycanın daha geniş enerji hədəflərini və Xəzər hövzəsindəki tərəfdaşlarımızı dəstəkləməklə yanaşı, qabaqcıl Sİ təcrübələrini dünya sənayesinin real tətbiq sahələri ilə əlaqələndirməyi hədəfləyir. İnstitut həmçinin təşkilatımızın bütün fəaliyyət sahələrində rəqəmsal intellektin sistemli tətbiqinin növbəti mərhələsini təmsil edir.





"SOCAR Türkiye" Elmi-Tədqiqat, Layihələndirmə və İnnovasiya Mərkəzi ən müasir texnoloji tədqiqatların aparılmasında mərkəzi rol oynayır. Altı ixtisaslaşdırılmış laboratoriya və pilot obyektindən ibarət olan, 1200 $m^2$ ərazini əhatə edən mərkəz 2022–2024-cü illər ərzində müqavilə əsasında 47 layihəni uğurla həyata keçirmiş və ya icrasına başlamışdır. Elmi tədqiqatlar davamlı texnologiyalar, dövri iqtisadiyyatın həlli yolları, rəqəmsal transformasiya və proseslərin optimallaşdırılması kimi sahələri əhatə edərək SOCAR-ın innovasiyaya olan sadiqliyini nümayiş etdirir.

2024-cü ildə "SOCAR Türkiye"-nin Elmi Tədqiqat, Layihələndirmə və İnnovasiya Mərkəzi İSO 56002 sertifikatını əldə edərək, innovasiyaların idarə edilməsi üzrə beynəlxalq standartın tələblərinə riayət edən ilk sənaye müəssisəsi oldu. "SOCAR Türkiye" daxili təkmilləşdirmələrlə yanaşı, universitetlər, texnologiyanın transferi ofisləri və Avropa İttifaqının elmi tədqiqat ocaqları ilə qurulmuş tərəfdaşlıqlar vasitəsilə açıq innovasiya strategiyalarını inkişaf etdirir, sektorlararası əməkdaşlıq sayəsində dolayı iqtisadi təsirləri artırır.

"SOCAR Türkiye"-nin rəqəmsal gələcəyini formalaşdıran "Nəsil D" (GEN-D) Proqramı yeni istedadların yetişdirilməsinə və növbəti nəsil rəqəmsal ekspertlərin hazırlanmasına yönəlmişdir. 2024-cü ilə qədər proqramı 60 iştirakçı uğurla tamamlamış, tədris planına Generativ Süni İntellekt kimi inkişaf etməkdə olan texnologiyalar da daxil edilmişdir. Beynəlxalq səviyyədə üç nüfuzlu mükafatla tanınan GEN-D Proqramı uzunmüddətli innovasiyaların və rəqabətliliyinin təmin olunması üçün gələcəyə hazır işçi qüvvəsinə SOCAR-ın investisiya yatırdığını əyani şəkildə sübut edir.

SOCAR-da innovasiya fəaliyyətin səmərəliliyindən kənara çıxaraq davamlılığa olan öhdəliyimizlə sıx şəkildə əlaqələndirilir.

"SOCAR Türkiye"-də iqlim yönümlü innovasiyanın əsas istiqamətlərindən biri üç perspektivli yanaşma əsasında davam etdirilən davamlı aviasiya yanacaqlarının (DAY) inkişafıdır. Bu təşəbbüslərə mikroyosunlardan DAY-nın hazırlanması üzrə ALGAESOL layihəsi; dəniz suyunda yetişdirilən yosunların birbaşa çevrilməsinə imkan verən PCMR texnologiyası; həmçinin tutulmuş $CO_2$ Fischer–Tropsch sintezi vasitəsilə DAY-a çevrilməsini təmin edən daxili proqramlar daxildir.

Ətraf mühit yönümlü innovasiyalar biotexnologiya, materialşünaslıq və karbon konversiyası sahələrini də əhatə edir. BIOTECH layihəsi qabaqcıl biotexnoloji üsulları vasitəsilə kimyəvi yükləri və təmizlənmə xərclərini azaldaraq neft-kimya sənayesində tullantı sularının təmizlənməsi üçün xərc baxımından səmərəli həll yolu təqdim edir. BIOLINK layihəsi eyni zamanda TÜBİTAK 1509 proqramı çərçivəsində ispan tərəfdaş Los Masos ilə əməkdaşlıq edərək dövri iqtisadiyyat məqsədlərinə xidmət edən, bioloji cəhətdən parçalana bilən, bioəsaslı plastik qablaşdırmaya fokuslanmışdır. Bundan başqa, "SOCAR Türkiyə" daxili təcrübə və akademik tərəfdaşlıqlar əsasında $CO_2$-ni metanol, DME və olefinlər kimi strateji xammal ehtiyatlarına çevirmək üçün kompleks platformalar yaradır. Əməliyyat mükəmməlliyinə və rəqəmsal innovasiyalara göstərilən səylər 2024-cü il STAR Neft Emalı Zavodunun "Turnaround" proqramı kimi əsas təşəbbüslərdə özünü aydın şəkildə göstərmişdir. Bu prosesdə dronlardan və robot yoxlama sistemlərindən istifadənin artırılması təftiş müddətini əhəmiyyətli dərəcədə qısaltdı, əməyin təhlükəsizliyini gücləndirdi və dayanma vaxtını minimuma endirdi. SOCAR pilotsuz uçuş vasitələrinin və robotlaşdırılmış sistemlərin tətbiqi ilə mühüm mərhələyə qədəm qoyub, texniki xidmət əməliyyatlarının "Industry 4.0" texnologiyaları əsasında dəyişməsi, eləcə də təhlükəsizlik və effektivlik üzrə yeni standartların yaradılması bir daha nümayiş etdirilib. SOCAR-ın gələcəyə baxışı süni intellekti, geniş həcmli məlumatları və avtomatlaşdırmanı əməliyyat zəncirinin bütün mərhələlərinə ("upstream" seqmentində kəşfiyyatdan başlayaraq "downstream" seqmentində pərakəndə satışa qədər) inteqrasiya etməkdir. Xəzər Süni İntellekt İnstitutunun uğurla təsis olunması və daxili rəqəmsal işçi komandalarının artan potensialı SOCAR-ı təkcə enerji sektorunda deyil, həm də Xəzər regionunda sənayenin rəqəmsallaşdırılması baxımından lider mövqeyə çıxarır. Strategiyamız aydındır: innovasiyalardan yalnız enerji keçidinə uyğunlaşmaq üçün deyil, həm də gələcəkdə dayanıqlı, effektiv və güclü sistemlər yaratmaqla bu keçidi formalaşdırmaq üçün istifadə etmək!



# TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİ

SOCAR-da təchizat zəncirinin idarə edilməsi yerli qanunvericiliyə, beynəlxalq standartlara və daxili normativ-texniki sənədlərə uyğunlaşdırılmış möhkəm baza əsasında həyata keçirilir. Şirkət Satınalmalar Komitəsinin, Əməliyyatlar, Satınalmalar və Təchizat Departamentinin və Kapital Layihələr üçün Xidmətlərin Satın Alınması Departamentinin fəal iştirakı sayəsində fəaliyyətin tələblərə uyğunluğunu təmin edir.

SOCAR şəffaflığın və effektivliyin artırılması məqsədilə "elektron tender" portalı, analitik qiymətləndirmə sistemləri və "SAP" modulu da daxil olmaqla müxtəlif qabaqcıl alətlər tətbiq etmişdir. Bu mexanizmlər ədalətli rəqabəti asanlaşdırır, qərar qəbul etmə prosesini gücləndirir və bütün layihələrdə satınalma proseslərinin izlənilməsini təmin edir.

Mütəmadi qiymətləndirmələrə əsasən, SOCAR-ın təchizat zənciri üzrə fəaliyyəti davamlılıq və idarəetmə prinsiplərinə, eləcə də yerli və beynəlxalq standartların tələblərinə cavab verir.

SOCAR təchizat zəncirində idarəçiliyini gücləndirmək öhdəliyinə sadiq qalaraq, satınalmaların effektivliyini artırmaq və təchizat sistemində köklü dəyişikliklər etmək üçün məqsədyönlü təşəbbüslər həyata keçirir. Şirkət Satınalma Komitəsinin, Satınalma Kateqoriyalarının İdarə Edilməsi Departamentinin, Satınalma Əməliyyatlarına Dəstək Departamentinin və Satınalma Əməliyyatlarının İnkişaf və Mükəmməllik Departamentinin fəal iştirakı sayəsində bu fəaliyyətin tələblərə uyğunluğunu təmin edir.

SOCAR-ın həyata keçirdiyi genişmiqyaslı rəqəmsallaşma proqramı çərçivəsində, mühüm biznes proseslərindən biri kimi tanınan satınalma və təchizat fəaliyyətlərinin optimallaşdırılması məqsədilə analitik qiymətləndirmələrin tətbiqi nəzərdə tutulur. Qarşıdakı SAP S/4HANA sisteminə keçid ilə yanaşı, satınalma məlumatlarının təhlili, vahid təchizatçı məlumat bazasının formalaşdırılması və kateqoriya idarəçiliyi metodologiyalarının tətbiqi əsas prioritetlər sırasındadır.

Bu təşəbbüslər SOCAR-ın törəmə müəssisələri arasında sinerjinin gücləndirilməsini və satınalma əməliyyatlarının qabaqcıl qlobal təcrübələrə uyğunlaşdırılmasını dəstəkləyir. Planlaşdırılan analitik qiymətləndirmələr təchizat zəncirində şəffaflığın, effektivliyin və davamlılığın gücləndirilməsində mühüm rol oynayacaq.

Növbəti bölmədə operativ və rəqəmsal irəliləyişlərin korporativ davamlılıq məqsədlərinə verdiyi töhfələr ətraflı şəkildə təqdim olunur.

Analitik qiymətləndirmələrin aparılması gələcəkdə aşağıdakı istiqamətlərdə təkmilləşdirmələrə zəmin yaradacaq:

- Kateqoriya idarəçiliyinin həyata keçməsinə şərait yaradan etibarlı və dəqiq məlumatların əldə edilməsi;
- Əsas məlumat sisteminin təmizlənməsinə hazırlaşmaq;
- Satınalma fəaliyyətinin optimallaşdırılması və artıq xərclərin azaldılması məqsədilə əvvəlki xərclərin və sifariş həcmlərinin təhlil edilməsi;
- İnventarın idarə edilməsində dəqiqliyin və effektivliyin artırılması;
- Çatdırılma müddətləri, keyfiyyət və uyğunluq kimi göstəricilər əsasında təchizatçı fəaliyyətinin sistemli şəkildə idarə olunması.
- Məlumatların təhlili əsasında təchizat zəncirində potensial risklərin idarə olunması (məsələn, təchizatçı etibarlılığı, bazar dəyişiklikləri);
- Məlumatların və bazar trendlərinin təhlili əsasında müəssisələrin gələcək strateji ehtiyaclarının proqnozlaşdırılması və planlaşdırmanın təkmilləşdirilməsi.

### Satınalma proseslərinin optimallaşdırılması.

SOCAR istehsalın fasiləsizliyini təmin etmək və neft-qaz məhsullarına olan tələbatı qarşılamaq məqsədilə kompleks logistika və təchizat sistemləri qurmuşdur. Şirkətin təchizat əməliyyatları səmərəli prosedurların tətbiqinə, maliyyə resurslarının optimallaşdırılmasına, eləcə də malların, materialların və xidmətlərin yüksək keyfiyyət standartlarına uyğun olaraq vaxtında satın alınmasına əsaslanır.

Bu sistemlər fasiləsiz istehsal dövrlərini dəstəkləmək üçün əməliyyat sürətini etibarlılıqla birləşdirir və məntiqi ardıcıllıqla fəaliyyət göstərir. "Upstream" və "downstream" əməliyyatları kimi missiya baxımından mühüm əhəmiyyət kəsb edən sahələrdə təchizat zəncirinin effektivliyi ilə ümumi biznes dayanıqlığı arasında uyğunluğun yaradılmasına xüsusi diqqət yetirilir.

Keyfiyyət, operativlik və qənaətcilliyin inteqrasiyası SOCAR-ın satınalma fəlsəfəsinin əsasını təşkil edir. Bu tarazlığın qorunması əməliyyat risklərini minimuma endirməklə yanaşı, dinamik bazar tələblərinə çevik şəkildə cavab vermək qabiliyyətini gücləndirir.

### Təchizat Zəncirinin Davamlılığının Təmin Edilməsi

SOCAR bu əməliyyat prinsiplərinə əsaslanaraq, bütün satınalma proseslərində şəffaflığı, ətraf mühitə qarşı məsuliyyəti və təhlükəsizliyi prioritet kimi vurğulayır. Təchizat sistemi SOCAR-ın fəaliyyət göstərdiyi regionlarda müsbət iqtisadi-sosial və ekoloji təsirlərin yaradılmasına xidmət edəcək şəkildə strukturlaşdırılıb.

Hər bir təchizatçının SOCAR-ın əsas dəyərlərinə, etik standartlarına və prinsiplərinə cavab verməsi şirkətin əsas prioritetlərindəndir. Bu tələblər birgə müəssisələrə də eyni şəkildə şamil olunur. Satınalma prosedurlarında tenderin ilkin mərhələsindən müqavilənin icrasına qədər bütün mərhələlərdə dürüstlük və davamlılığın qorunmasını nəzərdə tutulur. Şirkətin gözlədiyi nəticələri əldə etmək üçün tender və müqavilə prosesləri zamanı üçüncü tərəflərin fəaliyyəti mütəmadi şəkildə qiymətləndirilir.

SOCAR-ın qarşı tərəflərlə münasibətləri Satınalmalar Siyasəti sənədləri, Korrupsiyaya Qarşı Mübarizə Standartları və Qarşı Tərəfin Kompleks Qiymətləndirilməsi üzrə Standart əsasında tənzimlənir. Bu mexanizmlər təchizat zəncirinin bütövlüyünü təmin etməklə yanaşı, idarəetmə və davamlılıqla bağlı olan daha geniş öhdəlikləri də özündə əks etdirir.

SOCAR şəffaflığın və risklərin idarə edilməsi sistemini daha da gücləndirmək məqsədilə satınalma ilə bağlı normativ sənədlərə və daxili təlimatlara uyğun olaraq strukturlaşdırılmış İlkin Kvalifikasiya Prosedurası tətbiq etmişdir. Bu prosedura əsas meyarlara uyğun olaraq (əməliyyat riskləri, ətraf mühit və sosial göstəricilər, icra qabiliyyəti, keyfiyyət təminatı sistemləri və texniki ekspertiza) təchizatçıların obyektiv şəkildə qiymətləndirilməsini təmin edir.

Qiymətləndirmə prosesində təchizatçıların innovativ potensialı, avadanlıq, material və işçi resurslarının əlçatanlığı, eləcə də əməyin mühafizəsi və təhlükəsizliyi (ƏMT) qaydaları nəzərə alınır.

## Yerli Təchizatçılara Dəstək

SOCAR tələb olunan malların, materialların və xidmətlərin satın alınmasında yerli şirkətlərə üstünlük verərək, Azərbaycanın müxtəlif sektorlarının iqtisadi inkişafına mühüm töhfə verir. Bu yanaşma yerli məşğulluğun və sənaye potensialının gücləndirilməsinə, həmçinin milli təchizat bazasının davamlı inkişafına xidmət edir.

Yerli təchizatçılara üstünlük verilməsi satınalmanın planlaşdırılması və təchizatçıların seçimi proseslərinə sistemli şəkildə inteqrasiya edilmişdir. SOCAR bu öhdəliyi yerinə yetirərək təkcə təchizat zəncirinin dayanıqlığını möhkəmləndirmir, həm də fəaliyyət göstərdiyi regionlarda sosial-iqtisadi təsirini artırır.

Yerli resursların istifadəsini hədəfləyən bu strategiya milli inkişaf məqsədləri və ESG prioritetləri ilə tam uyğunluq təşkil edir.

2024-cü ildə SOCAR-ın törəmə müəssisələri üzrə tədarük xərcləri ümumilikdə 5487 milyon manat təşkil etmişdir. Bunun 2417 milyon manatı malların və materialların, 3071 milyon manatı isə xidmətlərin satın alınmasına yönəldilmişdir.

Vəsaitin əhəmiyyətli hissəsi (4491 milyon manat) yerli təchizatçılarla əməkdaşlığa ayrılmışdır ki, bu da SOCAR-ın yerli biznesi dəstəkləmək və milli iqtisadiyyatın inkişafına töhfə vermək öhdəliyini əks etdirir.

Satınalmaların bu bölgüsü dəyər zənciri üzrə SOCAR-ın əməliyyat ehtiyaclarının miqyasını və müxtəlifliyini nümayiş etdirir. SOCAR, eyni zamanda, yerli resurslardan istifadənin və sosial-iqtisadi töhfələrin artırılmasına xüsusi diqqət ayırır.

Şəkil 17 2022-2024-cü illər üzrə SOCAR Qrup tərəfindən yerli təchizatçılara xərclənən vəsaitin nisbəti (%)




"SOCAR Türkiye" üzrə məlumatlar şirkətin yeni qruplarına və məlumatın təqdim olunması üçün tətbiq edilən yanaşmalara əsasən yenilənib.

Şəkil 18. SOCAR (Azərbaycan) üzrə mal və materialların satın alınmasının əsas istiqamətləri, 2024, %




Şəkil 19. SOCAR (Azərbaycan) üzrə xidmətlərin satın alınmasının əsas istiqamətləri, 2024, min AZN ilə



## Təchizatçının Monitorinqi və Yoxlanılması

SOCAR tədarükçülərin qiymətləndirilməsi və məhsulların qəbul edilməsi üzrə müvafiq prosesləri müəyyənləşdirmişdir. Şirkət hər il mal və xidmət təminatçılarının fəaliyyətini obyektiv şəkildə qiymətləndirmək üçün əsas səmərəlilik göstəriciləri (ƏSG) tətbiq edir. Bu göstəricilər keyfiyyət, vaxtında çatdırılma, sağlamlıq və əməyin təhlükəsizliyi üzrə tələblərə riayət, habelə ətraf mühitə təsirin idarə olunması kimi meyarları əhatə edir. Monitorinq prosesi il ərzində davamlı şəkildə tətbiq edilir və əldə olunan nəticələr şəffaflığın təmin edilməsi, eyni zamanda təchizatçıların davamlı inkişafının təşviqi məqsədilə müvafiq maraqlı tərəflərlə paylaşılır.

Təchizatçıların hərtərəfli yoxlanılması prosesi aşağıdakı mərhələləri əhatə edir:

1. Təchizatçının Yoxlanılması Prosesi

SOCAR-da təchizatçıların yoxlanılması prosesi "Pre-Kvalifikasiyanın Təşkili və İdarə Edilməsi üzrə Təlimat"a (SOCAR-TCH-TMT-002) uyğun olaraq həyata keçirilir. Bu prosesin məqsədi təchizatçıların SOCAR-ın tələblərinə, etibarlılıq standartlarına və tətbiq olunan sənaye normalarına cavab verməsini təmin etməkdir. İlkin kvalifikasiya prosesi altı əsas sahə üzrə qiymətləndirmə meyarlarını əhatə edir:

- **Maliyyə:** Təchizatçının maliyyə sabitliyinin, ödəmə qabiliyyətinin və risk səviyyələrinin təhlili.
- **Tələblərə uyğunluq və qanunvericilik:** Qanuni tələblərə, etik prinsiplərə və şirkətin daxili siyasətinə riayətin yoxlanılması.
- **Təcrübə:** Təchizatçının əvvəlki layihələr üzrə fəaliyyət təcrübəsinin, tamamlanmış işlərin miqyasının və keyfiyyətinin qiymətləndirilməsi.
- **Keyfiyyət:** Təchizatçının mal və xidmətlərinin müəyyən edilmiş keyfiyyət standartlarına uyğunluğunun yoxlanılması.
- **Sağlamlıq və əməyin təhlükəsizliyi:** Əməyin mühafizəsi və təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi.
- **Ətraf mühitin mühafizəsi:** Ətraf mühitin qorunması qaydalarına riayət və davamlı inkişaf prinsiplərinin tətbiqi.

2. Alətlər

İlkin kvalifikasiya prosesində istifadə olunan sorğu vərəqələrinin məzmunu risk səviyyələrinə uyğun olaraq dəyişir. Materiallar və xidmətlər mühümlüyünə görə yüksək, orta və ya aşağı risk kateqoriyasına bölünür. Müvafiq olaraq, xüsusi risk tələblərinə cavab vermək üçün altı müxtəlif sorğu vərəqəsi hazırlanmışdır. Bu anketlər iki növ sualdan ibarətdir:

- Qiymətləndirilmiş suallar: Bu sualların sayı risk səviyyəsindən asılı olaraq müəyyən edilir və 0-dan 3-ə qədər şkala üzrə qiymətləndirilir. Bəzi hallarda "Tətbiq Edilmir" (T.E.) seçimi verilir.
- Məcburi suallar: Məcburi sualların sayı da risk səviyyəsindən asılıdır. Əgər məcburi sual qeyri-qənaətbəxş cavabla nəticələnirsə, sonrakı suallar üzrə əlavə qiymətləndirmə aparılmadan təchizatçı dərhal diskvalifikasiya edilir.

3. Qiymətləndirmə

Qiymətləndirmə mərhələsində ilkin kvalifikasiya prosesindən müvəffəqiyyətlə keçən, mümkün olan maksimum balın ən azı 50%-ni toplayan və bütün məcburi suallara qənaətbəxş cavab verən təchizatçılar SOCAR-ın təsdiqlənmiş təchizatçılar Siyahısına daxil edilə bilər. Bundan əlavə, yüksək risk kateqoriyasına daxil edilmiş təchizatçıların faktiki fəaliyyət təcrübəsini yoxlamaq məqsədilə sahə səfərləri təşkil oluna bilər. Təchizatçılar vaxtaşırı olaraq aşağıdakı cədvəl əsasında yenidən qiymətləndirilir:

- Yüksək risk qrupu – ən gec 2 ildən bir;
- Orta risk qrupu – ən gec 3 ildən bir;
- Aşağı risk qrupu – ehtiyac olduqda.

Təchizatçının qiymətləndirilməsi və inkişafı prosesi ESG məqsədlərini dəstəkləyəcək şəkildə strukturlaşdırılmışdır. Hər il təchizatçılar fəaliyyət və davamlılıq göstəricilərini əks etdirən ƏSG-lər əsasında qiymətləndirilir. Müəyyən çatışmazlıqları olan təchizatçılar məqsədyönlü inkişaf tədbirlərinə cəlb edilir. Belə tədbirlər potensialın gücləndirilməsini və sonrakı qiymətləndirmələri əhatə edir. Bu yanaşma təchizat zəncirində məsuliyyətli mənbələrdən istifadəyə və davamlı təkmilləşdirməyə olan sadiqliyimizi gücləndirir.

Table 3. Təchizatçının Yoxlanılması

| Hədəflər | SOCAR-ın Təsdiqlənmiş Təchizatçıların Siyahısına təchizatçıların daxil edilməsi üçün təşkil edilmiş ilkin prekvalifikasiya prosesinin tətbiqi | İlkin kvalifikasiya proseslərinin təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi |
|---|---|---|
| Tələblərə cavab vermədi | 0-80 Təchizatçı | 0%-50% |
| Tələblərə qismən cavab vermədi | 81-100 Təchizatçı | 51%-60% |
| Tələblərə cavab verdi | 101-120 Təchizatçı | 61%-80% |
| Tələbləri üstələdi | 121-150 Təchizatçı | 81%-90% |
| Yüksək səviyyəli göstəriciyə malikdir | 151-200 Təchizatçı | 91%-100% |



# ƏTRAF MÜHİTƏ TƏSİRLƏRİN MİNİMUMA ENDİRİLMƏSİ



# ƏTRAF MÜHİTİN QORUNMASI

Ətraf mühitə təsirlərin minimuma endirilməsi SOCAR-ın davamlılıq proqramının əsas prioritetlərindən biri olaraq, Şirkət prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Ətraf Mühitin Mühafizəsi üzrə Hədəflərinə dair Bəyanat"da müəyyən edilmiş prinsiplərə əsaslanır. SOCAR-ın rəsmi internet səhifəsində ictimaiyyət üçün açıqlanmış bu sənəddə dekarbonizasiya, resurs və enerji səmərəliliyinin artırılması, yaşıl texnologiyaların inteqrasiyası kimi strateji hədəflər öz əksini tapmışdır. Bu sənəd həmçinin SOCAR-ın ekosistemlərin qorunmasına və sənaye fəaliyyətindən irəli gələn mənfi təsirlərin azaldılmasına olan sadiqliyini bir daha təsdiqləyir. Sözügedən rəhbər prinsiplər enerji keçidi, dekarbonizasiya və ətraf mühitin qorunması sahəsində tətbiq etdiyimiz yanaşmanın əsas istiqamətlərini formalaşdırır.

SOCAR-ın dekarbonizasiya proqramı enerjinin effektivliyinin artırılması, bərpa olunan enerji mənbələrinin inkişafı və karbon emissiyalarının azaldılması istiqamətində qarşıya qoyulmuş məqsədləri özündə birləşdirir. Şirkət bu baxımdan aşağı karbonlu texnologiyalara investisiya yatırır, Əhatə 1 və Əhatə2 emissiyalarının azaldılması üçün əməliyyatları optimallaşdırır. Enerjinin effektivliyinə yönəlmiş tədbirlər həmçinin emal və neft-kimya müəssisələrinin müasirləşdirilməsini əhatə edir ki, bu da ölçülə bilən emissiya azalmalarına birbaşa olaraq töhfə verir. Bu kompleks yanaşma SOCAR-ın iqlim dəyişikliyinə qarşı davamlılığını gücləndirir və şirkəti qlobal enerji keçidinin fəal iştirakçısına çevirir.

SOCAR biomüxtəlifliyin qorunması, tullantıların azaldılması və davamlı resurslardan istifadənin təşviqini dəstəkləyən ekoloji təşəbbüsləri davamlı şəkildə həyata keçirir. Şirkətin ətraf mühitin idarəetmə sistemi ekoloji risklərin monitorinqini təmin etmək və bütün aktivlər üzrə əməliyyat təsirlərini minimuma endirmək üçün nəzərdə tutulmuşdur. Bu yanaşma uzunmüddətli hədəfimizi - dəyişən iqlim şəraitində məsuliyyətli fəaliyyət göstərmək və davamlı inkişafı təmin etmək məqsədini – dəstəkləyir.

2024-cü ildə Enerji keçidi, ətraf mühit və dekarbonizasiya seqmenti öz əməliyyatları çərçivəsində şirkətin ekoloji aspektlərinin və təsirlərinin qiymətləndirilməsini aparmış, əsas ekoloji risk sahələrini müəyyənləşdirmiş və əhəmiyyətli potensial təsirə malik olan fəaliyyət sahələri üçün təminat mexanizmləri tətbiq etmişdir.

SOCAR

## SOCAR-IN İQLİM DƏYİŞİKLİYİNƏ UYĞUNLAŞMA STRATEGİYALARI VƏ KEÇİD PLANLARI

SOCAR-ın vizyonu qlobal miqyasda sərfəli, etibarlı və dayanıqlı enerjin təmin edən milli enerji şirkətinə çevrilməkdir. Şirkət 2024-cü ilin yanvar ayında başlanan proqram çərçivəsində bütün aktivləri üzrə fəaliyyətini 9 əsas istiqamətdə karbonsuzlaşdırmağı qarşısına məqsəd qoymuşdur.

- Kimya müəssisələrində $CO_2$ qazını məhsula çevirmək üçün Karbonun Tutulması və Utilizasiyası
- Enerjinin səmərəliliyi proqramları
- "Downstream" seqmentində qaz məşəllərinin söndürülməsi programı
- "Əhatə 2" mənbələrinin bərpa olunan enerji ilə əvəzlənməsi
- Mədən yanacağını əvəz etmək üçün bioloji qazın istehsal edilməsi
- Avadanlıqların elektrikləşdirilməsi
- Metanın azaldılması proqramı/ Sızıntının aşkarlanması və aradan qaldırılması (LDAR)
- Karbonun Tutulması, Utilizasiyası və Saxlanılması (CCUS)
- Əvəzlənmə

Bu təşəbbüslər emissiyaların azaldılmasına yönəlmiş strukturlaşdırılmış yanaşmanı əks etdirir və SOCAR-ın aşağı karbona keçid strategiyasının əsasını təşkil edir.

2024-cü ildə "SOCAR Green" Birləşmiş Ərəb Əmirliklərinin Masdar şirkəti ilə ümumi gücü 1 GVt təşkil edən üç bərpa olunan enerji layihəsinin icrası məqsədilə səhmdar sazişləri imzalamışdır. Bu layihələrə Biləsuvarda (445 MVt) və Neftçalada (315 MVt) günəş elektrik stansiyaları, eləcə də Abşeron-Qaradağda (240 MVt) yerüstü külək enerjisi stansiyası daxildir. Həmin təşəbbüslər Azərbaycanın 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrində quraşdırılmış gücün 30%-ə çatdırılması üzrə milli məqsədlərini dəstəkləyir və SOCAR-ın bu istiqamətdəki fəal rolunu nümayiş etdirir. Bu qurğular birlikdə hər il təxminən 2,3 TVt/saat təmiz elektrik enerjisi istehsal edəcək, nəticədə 765000-ə yaxın ailə təsərrüfatının enerjiyə olan tələbatı ödəniləcək və eyni zamanda təqribən 943000 ton $CO_2$ emissiyası azaldılacaq. SOCAR, BP şirkəti ilə əməkdaşlıq çərçivəsində Cəbrayılda gücü 240 MVt olan "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisini həyata keçirir. Bu layihənin məqsədi regionun ən böyük enerji infrastrukturu olan Səngəçal neft-qaz terminalını "Virtual Enerji Ötürmə" mexanizmi vasitəsilə elektrikləşdirməkdir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yatırılmış ən iri xarici investisiya hesab edilən bu təşəbbüs münaqişədən sonrakı ərazilərdə innovasiya, yaşıl bərpa və özəl sektor liderliyinin inteqrasiyasına parlaq nümunədir.

"Şəfəq" layihəsi milli iqlim hədəflərinə töhfə verməklə yanaşı, SOCAR-ın əməliyyat infrastrukturunun karbonsuzlaşdırılması istiqamətində strateji mərhələni təmsil edir. SOCAR 2024-cü ildə prezidentin direktivi əsasında təsdiqlənmiş rəsmi dekarbonizasiya proqramını qəbul etmiş və uzunmüddətli təsirlərin azaldılması istiqamətində həyata keçirilən tədbirləri daha da gücləndirmişdir.

Proqram çərçivəsində enerjiyə qənaət edən və ekoloji baxımdan təmiz texnologiyaların və dayanıqlı daşınma təcrübələrinin tətbiq edilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, texnoloji itkilərin azaldılması və karbon intensivliyinin aşağı salınması nəzərdə tutulmuşdur. SOCAR-ın bütün müəssisələrində proqramın icrasına başlanılmışdır. Bu tədbirlərə məşəl qazının tutulması, səmərəli işıqlandırma sistemlərinin quraşdırılması, meşələrin bərpası, eləcə də logistika sektorunda alternativ yanacağın istifadəsi daxildir.

Şəkil 20. Azərbaycanda həyata keçirilən SOCAR – MASDAR Tərəfdaşlıq Layihəsinin bölgüsü (%/QVt)



## İqlim və Davamlılıq Layihəsi

2023-cü ildə SOCAR uzunmüddətli emissiyaların azaldılmasını dəstəkləmək məqsədilə Boston Consulting Group (BCG) ilə birgə İqlim və Davamlılıq Layihəsinin icrasına başlamışdır. Bu iki illik təşəbbüs SOCAR-ın əməliyyatlarında dekarbonizasiya proseslərinin sürətləndirilməsinə yönəlmişdir. Proqramın əsas məqsədi bütün əməliyyatlarda davamlılığı gücləndirmək, aşağı karbonlu biznes modellərini işləyib hazırlamaq, rəqəmsal həll yollarını tətbiq etmək və ekoloji təkmilləşdirmələrə təkan verməklə şirkətin “2050-ci ilə kimi Xalis Sıfır Öhdəlik” məqsədlərini dəstəkləməkdir. Təşəbbüsün prioritet istiqamətlərinə aşağıdakılar daxildir:

- Dekarbonizasiya proqramının icrası;
- "Əhatə 1" və "Əhatə 2" inventarizasiyalarının hazırlanması;
- Sızmaların aşkarlanması proqramlarının tətbiqi;
- Metan Sİ platformasının yaradılması və iqlim reytinqlərinin inteqrasiyası;
- Su və tullantıların idarə olunması strategiyalarının tətbiqi;
- Aşağı karbonlu biznes imkanlarının araşdırılması, şirkətin dayanıqlılığının gücləndirilməsi və qlobal enerji keçidi yollarına uyğunlaşma.

## SOCAR-ın Dekarbonizasiya Proqramı

SOCAR-ın Aşağı Karbon üzrə Yol Xəritəsində əsas diqqət aşağıdakı təsir azaltma tədbirlərinə yönəldilib:

Enerjinin səmərəliliyinin artırılması və ekoloji təmiz texnologiyaların tətbiqi

Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi

Qaz sızıntısı mənbələrinin aradan qaldırılması

Əlaqəli qaz emissiyalarının azaldılması

İEYQ emissiyaları üzrə hesabatvermə və ölçmə imkanlarının artırılması

## İEYQ EMİSSİYALARININ ÖLÇÜLMƏSİ METODOLOGİYASI

2024-cü ildə SOCAR istixana effekti yaradan qazlar (İEYQ) üzrə aylıq hesabat sistemini ümumi emissiyaların idarə edilməsi bazasına daxil etməklə ətraf mühitin idarə olunması prosesini daha da təkmilləşdirmişdir. Bu geniş sistem bütün əməliyyat bölmələrini və filialları əhatə edir, eləcə də fəaliyyət sahələrində istixana qazı emissiyalarının sistemli monitorinqini, yoxlanılmasını və hesabatlılığını təmin edir. Yeni proses əl ilə edilən səhvlərin əhəmiyyətli dərəcədə azaldılmasına, yenilənmiş konversiya amilləri və metodologiyalarının tətbiqinə şərait yaratmışdır. Nəticədə emissiya ilə bağlı məlumatların dəqiqliyi və ardıcıllığı artmışdır.

Azərbaycanda mütərəqqi texnologiyaların, o cümlədən dronların və peyk əsaslı sistemlərin tətbiqi məlumatların dəqiqliyini daha da artırmışdır. Bu yeniliklər əvvəllər aşkarlanmamış emissiya mənbələrinin müəyyən edilməsinə və potensial emissiya ocaqlarının xəritəsinin daha dəqiq şəkildə çəkilməsinə şərait yaratmışdır.

SOCAR-ın birbaşa əməliyyatlardan yaranan "Əhatə 1" emissiyaları əsasən neft və qaz sektorunun “upstream” seqmentində hasilat, “midstream” seqmentində nəqliyyat və ixrac, “downstream” seqmentində isə emal və neft-kimya fəaliyyətləri ilə əlaqə təşkil edir. Bu mərhələlər arasında “upstream” seqmenti emissiyaların ən vacib mənbəyi olaraq qalmaqdadır.

Satın alınmış elektrik enerjisindən yaranan dolayı emissiyalar da daxil olmaqla, "Əhatə 2" emissiyaları bir sıra sənaye sahələrində həyata keçirilmiş gücləndirilmiş enerji səmərəliliyi tədbirləri nəticəsində azalmışdır. Azərbaycanda "Əhatə 2" emissiyalarını törədən əsas müəssisələrə Heydər Əliyev adına Neft Emalı Zavodu, “Azərikimya” İstehsalat Birliyi və Karbamid Zavodu daxildir. Bu obyektlər enerji tutumlu proseslərdə elektrik enerjisinə olan yüksək tələbatla səciyyələnir.

Seqment səviyyəsində aparılmış təhlillərdə emal və neft-kimya əməliyyatlarının karbon tutumlu profili xüsusi olaraq vurğulanır, SOCAR-ın enerji keçidi məqsədlərini dəstəkləmək üçün “downstream” sektorlarında məqsədyönlü dekarbonizasiya strategiyalarının tətbiqi ön plana çəkilir.

SOCAR qlobal emissiyaların idarə olunması təcrübələrinə uyğunlaşmaq məqsədilə “upstream” əməliyyatları üzrə karbon intensivliyi göstəricisini tətbiq etmişdir. Bu göstərici hər neft ekvivalenti barelinə düşən $CO_2$ ekvivalentinin kiloqramı (kq $CO_2$e/barel) ilə ölçülür. 2024-cü ildə həmin göstərici ümumi karbohidrogen hasilatı əsasında 61,57 kq $CO_2$e/barel səviyyəsində qeydə alınmışdır. Bu meyarlar daxili səmərəlilik göstəricilərinin izlənilməsini asanlaşdırır, eləcə də emissiyaların azaldılmasına və iqlim dəyişikliyinə qarşı davamlılığın gücləndirilməsinə yönəlmiş uzunmüddətli yol xəritəsini dəstəkləyir.

SOCAR-ın dəyər zənciri üzrə dolayı emissiyaları əhatə edən "Əhatə 3" kateqoriyasının kəmiyyət göstəriciləri hələlik müəyyən edilməmişdir, lakin şirkət bu emissiyaların strateji əhəmiyyətini dərk edir və hərtərəfli "Əhatə 3" inventarının hazırlanması istiqamətində hazırlıq işləri aparır. Bu təşəbbüs iqlim təsirlərinin tam spektrinin açıqlanmasına və beynəlxalq davamlılıq hesabatı standartlarına olan sadiqliyi özündə əks etdirir.

# İEYQ EMİSSİYALARI

2024-cü ildə SOCAR bütün əməliyyat seqmentlərində və filiallarda istixana effekti yaradan qazlar (İEYQ) üzrə aylıq hesabat sistemini mövcud hesabat bazasına inteqrasiya etməklə ekoloji hesabatlılığı daha da gücləndirmişdir. Yeni sistem "upstream", "midstream" və "downstream" seqmentlərindən, o cümlədən elektrik enerjisi, buxar istehsalı və köməkçi xidmətlərdən yaranan istixana qazı emissiyalarının izlənilməsini və yoxlanılmasını təmin edir. Nəticə etibarilə, emissiya ilə bağlı məlumatlar müntəzəm qaydada toplanılmış, təhlil edilmiş və təşkilat daxilində müqayisələr aparılmışdır. Bu təşəbbüs şəffaflığın artırılmasına və məlumat əsaslı qərarların qəbul edilməsinə şərait yaratmışdır.

2024-cü ildə SOCAR-ın ümumi İEYQ emissiyaları 2023-cü illə müqayisədə 26% artaraq 10 509,1 min ton $CO_2$ ekvivalentinə çatmışdır. Qeyd edilən artım geniş miqyaslı fəaliyyətlərlə bağlı olmayıb, qabaqcıl texnologiyaların, o cümlədən pilotsuz uçuş aparatları və peyk əsaslı sistemlərin tətbiqi sayəsində məlumatların toplanmasında dəqiqliyin artırılması ilə əlaqə təşkil edir. Bu alətlər əvvəllər nəzarət olunmamış emissiya mənbələrini müəyyənləşdirmək və potensial emissiya ocaqlarını daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır.

"Əhatə 1" emissiyaları 2024-cü ildə 9 590,5 min ton $CO_2$ ekvivalentinə bərabər olmuşdur. Bu emissiyalar əsasən neft və qaz hasilatı (upstream), daşınma və ixrac (midstream), həmçinin emal və neft-kimya məhsullarının istehsalından (downstream) əmələ gəlmişdir. "Upstream" seqmenti SOCAR-ın hasilat əməliyyatlarının miqyasını əks etdirərək 5 878,2 min ton göstərici ilə ən böyük paya malik olmuşdur.

"Əhatə 2" emissiyaları 2024-cü ildə 918,6 min ton $CO_2$ ekvivalenti təşkil etmişdir. 2023-cü ildən etibarən bir sıra müəssisələrdə enerji səmərəliliyinin artırılması nəticəsində bu göstərici azalmışdır.

Seqmentlər üzrə aparılmış təhlillərə əsasən, "upstream" seqmenti 5 878,2 min ton $CO_2$ ekvivalenti ilə əsas mənbəyə çevrilmişdir. "Downstream" seqmentində 3765,7 min ton, "midstream" seqmentində 793,3 min ton və xidmət funksiyaları seqmentində 72000 ton $CO_2$ emissiyası əmələ gəlmişdir. Bu nəticələr emal və neft-kimya əməliyyatlarının karbon tutumlu xarakterini vurğulayır və SOCAR-ın enerji keçidi məqsədlərinə nail olması üçün "downstream" əməliyyatlarında məqsədyönlü dekarbonizasiya tədbirlərinin vacibliyini ön plana çıxarır.

"Əhatə 3" emissiyaları (dəyər zənciri üzrə dolayı emissiyalar) hələlik ölçülməmişdir. Bununla yanaşı, SOCAR bu emissiyaların strateji əhəmiyyətini etiraf edir və etibarlı Əhatə 3 inventarının yaradılması istiqamətində hazırlıq tədbirləri həyata keçirir. Bu gələcək təşəbbüslər iqlimlə bağlı məlumatların açıqlanmasına və davamlılıq hesabatında verilmiş qabaqcıl beynəlxalq təcrübələrə olan sadiqliyi bir daha nümayiş etdirir.

Şəkil 21. 2024-cü ildə ölkələr üzrə İEYQ emissiyaları, min ton CO2-eq




Şəkil 22. 2024-cü ildə SOCAR (Azərbaycan) üzrə İEYQ emissiyaları, min ton CO2-eq



Şəkil 23. . SOCAR Qrupda İEYQ emissiyaları, 2022-2024, min ton $CO_2$-eq

"Əhatə 1" emissiyaları

"Əhatə 2" emissiyaları




[1] ¹2023 və 2024-cü illər üzrə SOCAR Georgia üçün qeydə alınmış İEYQ emissiyaları rəqəmləri hesabatın əhatə dairəsinin genişləndirilməsi məqsədilə SGG və SGP göstəricilərini də əhatə edəcək şəkildə yenilənmişdir.

## AZALTMA TƏŞƏBBÜSLƏRİ, TEXNOLOGİYALAR VƏ İNVESTİSİYALAR

SOCAR istixana effekti yaradan qaz (İEYQ) emissiyalarını azaltmaq məqsədilə BP ilə əməkdaşlıq çərçivəsində Metanla bağlı Rəhbər Prinsiplər (MGP) əsasında hazırlanmış proqramın – Qlobal Metan Azaldılması (AGMR) təşəbbüsünün icrasını dəstəkləmişdir. Bu təşəbbüsün məqsədi neft-qaz sektorunda metan emissiyalarının azaldılmasına yönəlmiş ən yaxşı təcrübələri təşviq etmək, bilik mübadiləsini asanlaşdırmaq, monitorinq və hesabatlılıq sistemini təkmilləşdirmək, eləcə də qabaqcıl texnologiyaların tətbiqini təmin etməkdir.

2024-cü ilin aprel ayında “Neft Daşları” hasilat platformasın və Səngəçal Terminalına təşkil olunmuş birgə sahə səfərləri metan emissiyalarının monitorinqi və azaldılması üzrə təcrübə və bilik mübadiləsinə şərait yaratmışdır. Səfərlərdə iştirak edən UNEP, OGCI və BP nümayəndələri SOCAR-ın Sızıntıların Aşkarlanması və Aradan Qaldırılması (LDAR) proqramının icrasını nəzərdən keçirmiş və ən müasir metan monitorinqi vasitələrinin tətbiqini müşahidə etmişlər.

Emissiyaların idarə olunması sahəsində SOCAR-ın texnoloji irəliləyişlərinə misal olaraq Metan Sİ İdarəetmə Platformasını göstərmək olar. Bu platforma BCG və Xəzər Sİ İnstitutu ilə tərəfdaşlıq çərçivəsində yaradılmışdır. Platformada metan emissiyalarının izlənilməsi, qlobal standartlara uyğun hesabatlılığın təmin edilməsi və azaltma tədbirlərinin həyata keçirilməsi üçün metanla bağlı olan bütün fəaliyyətlər üzrə “vahid pəncərə” həll yolu təqdim edilir.

Metan Sİ Platformasının əsas istiqamətləri:

- Metan emissiyaları ilə bağlı məlumatların şəffaf və yoxlanıla bilən tərzdə açıqlanmasını təmin etmək üçün OGMP 2.0 kimi beynəlxalq səviyyədə tanınmış hesabatvermə bazasının tələblərinə cavab vermək.
- Ən dəqiq qiymətləndirməni və məlumat əsaslı qərarların verilməsini dəstəkləmək üçün ölçmələrin, hesablamaların və ekstrapolyasiyaların inteqrasiyasına əsaslanan emissiya proqnozlarının verilməsi.
- Emissiyaların monitorinqini təmin etmək, mənbələri dəqiq koordinatlarla müəyyənləşdirmək və aşkarlanmış hallara qarşı operativ reaksiya vermək üçün istilik xəritələrinə əsaslanan qabaqcıl monitorinq panellərinin tətbiqi.
- Emissiyaların sistemli şəkildə azaldılmasını təmin etmək və təsirin minimuma endirilməsi cəhdlərini optimallaşdırmaq üçün aktivlərin azalma əyrilərinin və strateji yol xəritəsinin hazırlanması.
- Emissiya mənbələrinin müəyyənləşdirilməsi, proseslərin effektivliyinin artırılması və komandalara azaltma ilə bağlı tapşırıqların verilməsi məqsədilə əməliyyat müdaxilələrinin həyata keçirilməsi və əsas səbəblərin təhlil edilməsi.

SOCAR müvafiq aktivlər/müəssisələr üzrə metan emissiyalarının monitorinqi imkanlarını artırmaq məqsədilə GHGSat peyk texnologiyasının istifadəsini təmin etmişdir. GHGSat-ın ən müasir peykləri kosmosdan metan emissiyalarının dəqiq ölçülməsini həyata keçirməklə yanaşı, geniş ərazilərin yüksək dəqiqlikli təsvirlərinin əldə edilməsinə şərait yaratmışdır. Peyk əsaslı monitorinq sisteminin emissiyaların idarə edilməsi strategiyasına inteqrasiyası nəticəsində metan emissiyalarının həcmi və paylanılması barədə ətraflı məlumat vaxtında əldə edilmişdir. Bu yanaşma daha məqsədyönlü və məlumat əsaslı cavab tədbirlərinin həyata keçirilməsinə şərait yaratmış, əməliyyat sahələrində təsir gücünü azaltma təşəbbüslərinin icrasını dəstəkləmişdir. Məlumata əsaslanan bu yanaşma emissiyaların azaldılması tədbirlərini prioritetləşdirmək və iqlimə uyğunlaşma strategiyasını gücləndirmək imkanı yaratmışdır.

Bununla yanaşı, TotalEnergies ilə birgə həyata keçirilmiş pilot layihə çərçivəsində (AUSEA texnologiyasının tətbiqi əsasında) metanın pilotsuz uçuş aparatları ilə aşkarlanması mexanizmləri inkişaf etdirilmişdir. Yüngül çəkili hava spektrometri metan konsentrasiyasını və emissiya mənbələrini müəyyənləşdirərək, çətin keçilə bilən ərazilərdə yüksək dəqiqliyə malik nəticələr təqdim etmişdir. Xəzər dənizində və SOCAR-ın istehsalat obyektlərində aparılmış sınaqlar alətin effektivliyini təsdiqləmiş, əməliyyat şəffaflığının artırılmasına və emissiyalara nəzarətin gücləndirilməsinə mühüm töhfə vermişdir. SOCAR metan emissiyalarının azaldılmasını daha da sürətləndirmək məqsədilə “Azəriqaz” İB-nin paylayıcı şəbəkəsində sızmaların müəyyən edilməsi üçün “Picarro” texnologiyası ilə təchiz edilmiş avtomobillərdən istifadə edərək “Italgas” şirkəti ilə birgə pilot layihəyə başlamışdır. Bu mobil monitorinq sistemi metan sızmalarının davamlı şəkildə və məlumatla zəngin sistemlər əsasında aşkarlanmasına şərait yaradaraq operativ müdaxiləni və emissiyaların azaldılmasını təmin edir. Bu texnologiyanın tətbiqi şəbəkənin effektivliyinin artırılmasına və ətraf mühit göstəricilərinin artmasına töhfə verir.

SOCAR şəffaflığın və etibarlılığının artırılması məqsədilə ətraf mühitlə bağlı məlumatların açıqlanması üçün rəqəmsal Monitorinq, Hesabat və Yoxlama (MHY) sisteminin inteqrasiyasını sürətləndirir. Bu sistem insan səhvlərinin azaldılmasına, hesabatvermə prosesinin avtomatlaşdırılmasına və əsas ekoloji səmərəlilik göstəricilərinin (ƏSG) daha dəqiq izlənilməsinə xidmət edəcəkdir. Bu sistemi tam tətbiq olunduqdan sonra emissiyalarla bağlı dəqiq məlumatların verilməsini təmin edəcək, eləcə də müvafiq qanunvericilik tələblərinə, habelə beynəlxalq səviyyədə qəbul edilmiş standartlara və qabaqcıl təcrübələrə uyğunluğu dəstəkləyəcəkdir.

SOCAR “upstream” seqmentində “Upstream Emissiyaları Azaldılması (UEA)” çərçivəsində infraqırmızı görüntü və təmir funksiyaları vasitəsilə “sızma” emissiyalarının müəyyən edilməsi və azaldılması layihəsinə başlamışdır. “Neft Daşlarında” aparılmış ilkin qiymətləndirmələr nəticəsində klapanlar və boru birləşmələri daxil olmaqla yüksək təsirə malik emissiya mənbələri aşkarlanmışdır. Həyata keçirilmiş təmir işləri nəticəsində qaz itkilərinin qarşısı alın mış, eləcə də ekoloji və maliyyə dəyəri yaratmış karbon krediti üzrə sertifikatlaşdırma sistemi tətbiq edilmişdir.

# ENERJİ



SOCAR daxili və xarici fəaliyyətində bərpa olunan enerji mənbələrinin inkişafına xüsusi önəm verərək enerji keçidini sürətləndirir. 2024-cü ildə "SOCAR Green" Biləsuvar (445 MVt) və Neftçala (315 MVt) günəş elektrik stansiyaları, həmçinin Abşeron-Qaradağ (240 MVt) külək elektrik stansiyası da daxil olmaqla, ümumi gücü 1.000 MVt təşkil edən üç kommunal miqyaslı bərpa olunan enerji layihəsinin həyata keçirilməsi üçün "Masdar" şirkəti ilə səhmdar müqavilələri imzalamışdır. Sözügedən qurğuların birgə illik elektrik istehsalının 2,3 TVt-saat səviyyəsində olacağı proqnozlaşdırılır ki, bu da 765000-dən artıq ev təsərrüfatının enerji tələbatını ödəməyə imkan verəcək, eyni zamanda təbii qaz istehlakını 496 milyon $m^3$-dən artıq azaltmaqla təxminən 943000 ton $CO_2$ emissiyasının qarşısını alacaqdır. Bu təşəbbüslər 2030-cu ilə qədər quraşdırılmış gücə malik bərpa olunan enerji mənbələrinin payını 30%-ə yüksəltmək üçün Azərbaycanın qarşıya qoyduğu məqsədlərin reallaşmasına mühüm töhfə verir.

SOCAR BP şirkəti ilə tərəfdaşlıq çərçivəsində Cəbrayıl rayonunda yerləşən 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisini həyata keçirir və Səngəçal Terminalını yaşıl elektrik enerjisi ilə təchiz etmək üçün "Virtual Enerji Ötürmə" mexanizmini inteqrasiya edir. Ümumi sahəsi 800 hektardan artıq sahəni əhatə edən bu layihə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində günəş enerjisi sahəsinə yatırılmış ən böyük xarici investisiyanı təmsil edir. Bu təşəbbüs 2024-cü ilin noyabr ayında imzalanmış investisiya və torpaq icarəsi müqavilələri ilə dəstəklənmişdir ki, bu da SOCAR-ın uzunmüddətli dayanıqlığını və elektrik şəbəkəsinin karbonsuzlaşdırılmasına verdiyi mühüm töhfələri bir daha təsdiqləyir. "Şəfəq" layihəsi SOCAR-ın davamlı enerji keçidinin etibarlı təminatçısı və iqlimə davamlı infrastrukturun qurucusu kimi aparıcı rolunu möhkəmləndirir.

SOCAR Çin enerji şirkətləri ilə əməkdaşlıq çərçivəsində bərpa olunan enerji mənbələrini inkişaf etdirmiş və texnoloji-coğrafi diversifikasiyanı təmin etmişdir. "China Energy Overseas Investment Co." şirkəti ilə birgə tikilən Füzuli Günəş Elektrik Stansiyasının gücü 160 MVt təşkil edəcək və layihə 482 hektar ərazidə həyata keçiriləcəkdir. 2024-cü ilin noyabr ayında imzalanmış Birgə İnkişaf Sazişi layihənin effektiv icrasını təmin etmək üçün texniki, maliyyə və digər fəaliyyət istiqamətlərində qurulmuş sıx əməkdaşlığa əsaslanır. SOCAR həmçinin sərhədlərarası yaşıl enerji inteqrasiyasında rolunu möhkəmləndirmək və gələcəkdə bərpa olunan enerji layihələrinin miqyasını genişləndirmək məqsədilə "China Datang" və "PowerChina" şirkətləri ilə əlavə Anlaşma Memorandumları imzalamışdır.

SOCAR Xəzər dənizində 3,5 QVt güc potensialının yaradılması üzrə strateji əməkdaşlığa başlamışdır. 13 noyabr 2024-cü il tarixində "SOCAR Green" Xəzər dənizinin Azərbaycan sektorunda dəniz küləyi enerjisinin birgə qiymətləndirilməsi və inkişafı məqsədilə "Masdar" və "ACWA Power" şirkətləri ilə Anlaşma Memorandumu imzalamışdır. Razılaşma çərçivəsində işçi qrupunun yaradılması, ilkin texniki-iqtisadi əsaslandırmanın aparılması və layihənin maliyyə bazasının müəyyən edilməsi nəzərdə tutulmuşdur. Bu təşəbbüs bərpa olunan enerji təchizatının artırılması ilə bağlı prioritetlərə uyğun olmaqla yanaşı, Azərbaycanın dayanıqlı mavi iqtisadiyyat konsepsiyasını dəstəkləyir. Dəniz küləyi layihəsi SOCAR-ın enerji keçidi yol xəritəsində strateji mərhələ təşkil edir və bərpa olunan enerji mənbələrinin artırılmasında mühüm növbəti addım kimi çıxış edir.

"SOCAR Green" "Baker Hughes" və "SLB" şirkətləri ilə əməkdaşlıq çərçivəsində geotermal kəşfiyyat işlərinə başlamışdır. İlkin tədqiqatlar yüksək geotermal potensiala malik bölgələrdə, o cümlədən Lənkəran, Masallı, Laçın və Kəlbəcər rayonlarında həyata keçirilir. COP29 tədbiri zamanı imzalanmış əməkdaşlıq sazişləri ilə dəstəklənən bu təşəbbüslərin əsas məqsədi hidrotermal ehtiyatların və gücləndirilmiş geotermal sistemlərin həyat qabiliyyətini qiymətləndirməkdir. Bu tədqiqatlar eyni zamanda elektrik enerjisi istehsalı və birbaşa tətbiq sahələri üçün iqtisadi səmərəliliyi və praktik tövsiyələri qiymətləndirməyə yönəlmişdir.

SOCAR davamlı və çoxşaxəli enerji portfelini dəstəkləmək məqsədilə aşağı karbonlu biznes imkanlarının hərtərəfli qiymətləndirilməsini həyata keçirir. Şirkət əvvəlki illərdə biokömür, bioqaz və digər bioəsaslı həll yollarının qiymətləndirilməsində birinci mərhələni tamamlamışdır. İkinci mərhələdə isə əsas diqqət texnoloji mümkünlüyün, iqtisadi səmərəliliyin və mövcud əməliyyatlara inteqrasiya potensialının dərin təhlilinə yönəldiləcəkdir. Bu təşəbbüs SOCAR-ın neft-qaz sektorundakı dövri iqtisadiyyat təcrübələrini və yaşıl innovasiyalar sahəsindəki liderlik ambisiyasını özündə birləşdirir.

SOCAR Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə əməkdaşlıq çərçivəsində su ehtiyatlarının idarə edilməsində enerji sərfinin azaldılması məqsədilə diaqnostik-texniki qiymətləndirmələr aparır. Tərəfdaşlıq çərçivəsində həmçinin enerjinin səmərəliliyinin artırılması məqsədilə GRI 302-4 standartlarına uyğun olaraq sektor üzrə bərpa olunan enerji yol xəritəsinin hazırlanması nəzərdə tutulmuşdur. Bu sektorlararası təşəbbüs resursların optimallaşdırılmasına töhfə verir və kommunal xidmətlərdə desentralizasiya edilmiş enerji tətbiqi sahələri üçün zəmin yaradır.

SOCAR

Cədvəl 4. 2022-2024-cü illər üzrə SOCAR Qrupda elektrik enerjisinin sərfiyyatı, min KVt/saat

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| For SOCAR, cəmi | 2,708,321 | 2,871,191 | 2,671,649 |
| SOCAR (Azərbaycan) | 1,202,879 | 1,295,521 | 1,288,334 |
| SOCAR Türkiye | 1,455,071 | 1,527,862 | 1,335,102 |
| SOCAR Energy Georgia | 31,369 | 27,584 | 27,803 |
| SOCAR Energy Ukraine | 8,989 | 10,448 | 10,634 |
| SOCAR Energy Switzerland | 10,013 | 9,776 | 9,775 |
| SOCAR Energy Austria | | 3,936 | 2,469 |

Cədvəl 5. 2022-2024-cü illər üzrə SOCAR Qrupda elektrik enerjisi intensivliyinin nisbəti, hər işçi üzrə

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | 25.04 | 26.8 | 26.8 |
| SOCAR Türkiye | 279.3 | 277.3 | 234.7 |
| SOCAR Energy Georgia | 6.4 | 6.8 | 6.4 |
| SOCAR Energy Ukraine | 5.2 | 5.8 | 6.0 |
| SOCAR Energy Switzerland | 12.8 | 12.0 | 12.1 |
| SOCAR Energy Austria | | 19.7 | 11.9 |

Cədvəl 6. 2022-2024-cü illər üzrə SOCAR Qrupda yanacağın sərfiyyatı

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | | | |
| Benzin, ton | 6,233 | 5,985 | 5,731 |
| Dizel, ton | 31,403 | 27,131 | 25,954 |
| Təbii qaz, min m³ | 1,303,360 | 1,665,528 | 1,742,423 |
| SOCAR Türkiye | | | |
| Benzin, ton | 0 | 46.8 | 49.7 |
| Dizel, ton | 985.6 | 1,287 | 1,357 |
| Təbii qaz, min m³ | 662,123 | 567,713 | 625,535 |
| SOCAR Energy Georgia | | | |
| Benzin, ton | 465 | 336 | 343 |
| Dizel, ton | 478 | 559 | 587 |
| Təbii qaz, min m³ | 9.6 | 1.5 | 4.0 |
| SOCAR Energy Ukraine | | | |
| Benzin, ton | 135 | 218 | 134 |
| Dizel, ton | 193 | 279 | 257 |
| Təbii qaz, min m³ | 16.4 | 9.5 | 9.7 |



# SU TƏSƏRRÜFATININ İDARƏ EDİLMƏSİ

## SOCAR-da Su Ehtiyatlarının İdarə Edilməsi

SOCAR su ilə bağlı ekoloji təsirlərinin azaldılmasını və bütün dəyər zənciri boyunca su ehtiyatlarının məsuliyyətli idarə edilməsini prioritetləşdirir. Bu məqsədlə bütün aktivlərdə/müəssisələrdə suyun çəkilməsi, istifadəsi və axıdılması proseslərinin hərtərəfli qiymətləndirilməsi həyata keçirilmişdir. Araşdırmalar nəticəsində suya tələbatın proqnozlaşdırılması, su mənbələrinin texniki imkanlarının qiymətləndirilməsi və təkrar istifadənin artırılması potensialının müəyyənləşdirilməsi təmin edilmişdir.

SOCAR, bu nəticələrə əsasən, su ehtiyatlarının səmərəli idarə olunmasını təmin etmək üçün mərkəzləşdirilmiş və strukturlaşdırılmış idarəetmə proseduru hazırlamışdır. Bu prosedurda daxili öhdəliklər aydın şəkildə müəyyən edilmiş, milli qanunvericiliyin və GRI 303 standartlarının tələblərinə uyğunluq təmin edilmişdir. "İqlim və Davamlılıq – Mayak" proqramı çərçivəsində mərkəzləşdirilmiş su idarəetmə sistemi yaradılmış, 2022-ci il isə əsas su göstəriciləri üçün baza ili kimi təyin edilmişdir. Bu sistem 2025-ci ildən etibarən tətbiq edilməsi planlaşdırılan yeni su hesabatı aləti ilə dəstəklənəcəkdir.

## Sudan İstifadənin Səmərəliliyi və Effektivliyi

SOCAR su ehtiyatlarının mühafizəsi məqsədilə suyun effektiv istifadəsi və çirklənmənin qarşısının alınması üzrə tədbirlərini davam etdirir. 2024-cü ildə Şirkətin daxili əməliyyatları üzrə çıxarılmış suyun həcmi 2023-cü ildəki 57,8 milyon m³ göstəricisi ilə müqayisədə 56 milyon m³-ə qədər azalmışdır. Bu azalma onu göstərir ki, sudan istifadənin səmərəliliyi davamlı şəkildə artırılır və şirkətimiz öz öhdəliyinə uyğun olaraq bütün fəaliyyət sahələrində resursların dayanıqlı şəkildə idarə olunmasını təmin edir.

Suya tələbatın azaldılması üçün yeni layihələrdə innovativ yanaşmalara, o cümlədən qapalı dövriyyə sistemlərinin və suyun aşağı sərfinə xidmət edən texnologiyaların tətbiqinə üstünlük verilir. Həyata keçirilən tədbirlər şirin su ehtiyatlarından asılılığın və yerli su stressinin azaldılmasına birbaşa töhfə verir.

## Lay Su Ehtiyatlarının İdarə Edilməsi və Ekoloji Mühafizə Vasitələri

SOCAR 2010-cu ildən etibarən lay sularının ətraf mühitə axıdılmasının qarşısını almaq məqsədilə ekoloji cəhətdən məsuliyyətli qaydalar tətbiq edir. Bu yanaşma ilkin emaldan sonra lay sularının təkrar vurulmasını və istifadəsini nəzərdə tutur ki, bu da ekoloji risklərin azaldılmasına və suyun dövriyyəli istifadəsinə xidmət edir.

2024-cü ildə ümumilikdə 25,2 milyon m³ lay suyu idarə olunmuşdur ki, bunun 6,7 milyon m³-i "Azneft" İB-nin, 18,4 milyon m³-i isə tərəfdaşlarımız tərəfindən idarə olunan müəssisələrin payına düşür. Bu göstəricilər qabaqcıl sənaye təcrübələrinə və normativ tələblərə uyğun olaraq qapalı sistemli suyun emal edilməsi və yeraltı suların təkrar vurulması üçün SOCAR-ın daşıdığı öhdəlikləri özündə əks etdirir.

Cədvəl 7. 2022-2024-cü illərdə SOCAR Qrup üzrə çıxarılmış suyun həcmi, milyon $m^3$

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | 56.91 | 57.84 | 56.03 |
| SOCAR Türkiye | 24.87 | 23.12 | 21.98 |
| SOCAR Energy Georgia | 0.14 | 0.13 | 0.12 |
| SOCAR Energy Ukraine | 0.08 | 0.10 | 0.10 |

Cədvəl 8. 2022-2024-cü illərdə SOCAR Qrup üzrə su intensivliyinin nisbəti (hər işçi üzrə, min $m^3$ su)

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | 1.18 | 1.2 | 1.17 |
| SOCAR Türkiyə | 4.77 | 4.20 | 3.86 |
| SOCAR Energy Georgia | 0.03 | 0.03 | 0.03 |
| SOCAR Energy Ukraine | 0.05 | 0.06 | 0.06 |

Cədvəl 9. 2022–2024-cü illərdə SOCAR (Azərbaycan) tərəfindən çıxarılmış lay suyu, min $m^3$

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| "Azneft" İB | 6,122.5 | 6,149.9 | 6,724.5 |
| Əməliyyat şirkətləri | 17,028.2 | 18,605.1 | 18,431.5 |
| Cəmi | 23,120.4 | 24,755 | 25,156 |

Cədvəl 10. . 2022-2024-cü illərdə SOCAR Qrup üzrə tullantı suların idarə edilməsi, $m^3$

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | | | |
| Əmələ gəlmiş çirkab suyun həcmi | 7,652,450 | 8,283,706 | 8,531,817 |
| Təmizlənmədən axıdılan çirkab suyun həcmi, o cümlədən: | 283,495 | 244,492 | 546,937 |
| Torpağa axıdılmış | 7,898 | 123,525 | 239,379 |
| Suya axıdılmış | 275,597 | 120,967 | 307,558 |
| Təmizləndikdən sonra axıdılmış suyun həcmi | 7,368,955 | 8,039,214 | 7,984,880 |
| SOCAR Türkiye | | | |
| Əmələ gəlmiş çirkab suyun həcmi | 12,132,534 | 10,552,998 | 9,667,478 |
| Təmizlənmədən axıdılan çirkab suyun həcmi | 12,504 | 15,662 | 13,583 |
| Təmizləndikdən sonra axıdılmış çirkab suyun həcmi | 12,120,660 | 10,537,336 | 9,648,550 |

Cədvəl 11. 2022-2024-cü illərdə SOCAR (Azərbaycan) üzrə istehsalat prosesi zamanı qapalı sistemlərdə istifadə edilmiş suyun həcmi, milyon $m^3$

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Təkrar emal olunmuş su | 281.5 | 274.2 | 310.8 |
| Təkrar istifadə edilmiş su | 1.2 | 0.01 | 0.56 |

# MATERIALLARIN İSTİFADƏSİ, TULLANTILAR VƏ DÖVRİLİK

## SOCAR-da Materialların İstifadəsi, Tullantılar və Dövrilik

SOCAR dövri iqtisadiyyat prinsiplərinə və ekoloji effektivliklə bağlı hədəflərə uyğun olaraq, materialların istifadəsi və tullantıların idarə edilməsi üçün resurs baxımından səmərəli və strukturlu yanaşma tətbiq edir. 2024-cü ildə Şirkət tullantıların mərkəzləşdirilmiş idarəetmə modelini təkmilləşdirmiş və təkrar emal infrastrukturunu optimallaşdırmışdır. Bu məqsədlə əsas tullantı axınlarının təhlili aparılmış və effektiv təkrar istifadə strategiyaları işlənib hazırlanmışdır.

Müsbət irəliləyişlərin sayəsində SOCAR-ın SAP ERP sisteminə SAP EHS – "Tullantıların İdarə Edilməsi" modulu inteqrasiya edilmişdir. Bu sistem tullantılarla bağlı məlumatların daha dəqiq izlənilməsini və hesabatlılığın gücləndirilməsini təmin edir.

2024-cü ildə SOCAR-ın müəssisələrində təxminən 96,3 min ton təhlükəli tullantı və 64,6 min ton təhlükəsiz tullantı əmələ gəlmişdir. Eyni zamanda, 1,2 min ton təhlükəli tullantı təkrar emala yönəldilmişdir ki, bu da təkrar istifadənin payının artdığını göstərir.

2024-cü ildə ümumilikdə 25,2 milyon m³ lay suyu idarə olunmuşdur ki, bunun 6,7 milyon m³-i "Azneft" İB-nin, 18,4 milyon m³-i isə tərəfdaşlarımız tərəfindən idarə olunan müəssisələrin payına düşür. Bu göstəricilər qabaqcıl sənaye təcrübələrinə və normativ tələblərə uyğun olaraq qapalı sistemli suyun emal edilməsi və yeraltı suların təkrar vurulması üçün SOCAR-ın daşıdığı öhdəlikləri özündə əks etdirir.

SOCAR-ın ekoloji siyasəti təbii ehtiyatların və xammalın davamlı şəkildə idarə olunmasına dair hərtərəfli öhdəlikləri əhatə edir. Bu siyasətin əsas istiqamətlərindən biri də təbii ehtiyatlardan və xammaldan istifadənin səmərəliliyinin artırılması və onların dayanıqlı idarə olunmasıdır. Sözügedən öhdəliklər maraqlı tərəflərlə qarşılıqlı əməkdaşlığın və əlaqələrin gücləndirilməsi yolu ilə yerinə yetirilir.

## İstehsalat Tullantılarının İdarə Edilməsi və Dövrilik Strategiyasının Tətbiq Olunması

SOCAR Tullantıların İdarə Olunması Mərkəzi (TİEM) vasitəsilə müasir infrastruktur və xüsusi təcrübə əsasında sənaye tullantılarının təhlükəsiz və səmərəli şəkildə idarə olunmasını təmin edir. 2024-cü ildə TİEM tərəfindən 29919,8 ton qazma tullantısı, 17007,3 ton istehsal çöküntüsü və 2.618,1 ton istehsalat tullantısı emal olunmuşdur. Qeyd etmək lazımdır ki, TİEM tərəfindən qəbul edilən plastik tullantıların 93%-i və kağız tullantılarının 71%-i sertifikatlı üçüncü tərəflər vasitəsilə təkrar emal edilmişdir ki, bu da Şirkətin resursların dövriliyinə olan sadiqliyini daha da gücləndirir.

TİEM tullantıların idarə olunması üzrə dəyər zəncirində həm milli ekoloji tələblərə, həm də GRI 306 təlimatlarına uyğun olaraq fəaliyyət göstərir. Bununla yanaşı, poliqonlardan asılılığın azaldılması və tullantı materialların bərpası səviyyəsinin yüksəldilməsi dayanıqlılıqla bağlı daha geniş məqsədlərin həyata keçməsinə töhfə verir.

## Aktivlərin Bütövlüyü və Dağılma Hallarının Qarşısının Alınması

SOCAR ətraf mühitin mühafizəsi və əməliyyat təhlükəsizliyi üzrə öhdəlikləri çərçivəsində neftin dağılması hallarının qarşısının alınması və idarə olunmasını strateji prioritet kimi müəyyən etmişdir. "İqlim və Davamlılıq Layihəsi" proqramı çərçivəsində beynəlxalq məsləhətçilərin iştirakı ilə boru kəmərləri, çənlər və anbar sistemləri də daxil olmaqla infrastrukturun hərtərəfli diaqnostik təhlili həyata keçirilmişdir. Bu qiymətləndirmə prosesi yüksək riskli sahələrin müəyyənləşdirilməsinə və təsir gücünün azaldılması tədbirlərin planlaşdırılmasına şərait yaratmışdır.

Eyni zamanda, "Neft Dağılmalarının İdarə Edilməsi Planı" hazırlanmış, Xəzər dənizinin Azərbaycan sektorunda, quruda və dənizdə həyata keçirilən əməliyyatlarda istifadə edilmişdir. Sözügedən plan ekosistemlərə və insan sağlamlığına təsirlərin minimuma endirilməsini təmin etməklə yanaşı, mümkün insidentlərə qarşı operativ və effektiv cavab tədbirlərinin həyata keçirilməsinə şərait yaradır.

Şəkil 24. SOCAR (Azərbaycan) üzrə əmələ gəlmiş tullantılar, min ton[1]

■ Təhlükəli tullantılar
■ Təhlükəsiz tullantılar




Şəkil 25. "SOCAR Türkiyə" üzrə əmələ gəlmiş tullantılar, min ton[2]

■ Təhlükəli tullantılar
■ Təhlükəsiz tullantılar




[1] Tullantıların təsnifatı üçün tətbiq edilən yeni metodologiyaya əsasən, 2024-cü ildə SOCAR-ın Azərbaycandakı müəssisələrində əmələ gəlmiş təhlükəli və təhlükəsiz tullantıların həcmi əvvəlki illərin göstəricilərindən fərqlənmişdir.
[2] 2024-cü ildə "SOCAR Türkiyə"-də əmələ gəlmiş təhlükəsiz tullantıların ümumi həcmi Petkim-də tikinti layihəsinin tamamlanması nəticəsində əhəmiyyətli dərəcədə azalmış və qeydə alınmış dağıntı tullantılarının miqdarı da aşağı düşmüşdür.

# HAVANIN KEYFİYYƏTİ

SOCAR öz əməliyyatları üzrə emissiyaların mütəmadi monitorinqini və hesabatlılığını həyata keçirərək havanın keyfiyyətinə nəzarəti təmin edir. Şirkət şəffaflığı artırmaq və milli ekoloji standartlara cavab vermək məqsədilə toplanmış məlumatları sistemli şəkildə təhlil edir. Emissiyalar üzrə nəticələr hər il aidiyyəti dövlət qurumlarına təqdim olunur ki, bu da SOCAR-ın qanunvericilikdə müəyyən edilmiş tələblərə uyğunluğunu və ətraf mühitin qorunması istiqamətində məsuliyyətli yanaşmasını əks etdirir. SOCAR ətraf mühitin mühafizəsi proqramı çərçivəsində uzunmüddətli təhlillərin aparılması və təkmilləşdirmə sahələrinin müəyyənləşdirilməsi üçün emissiyaların mərkəzləşdirilmiş məlumat bazasını idarə edir. Bu yanaşma ətraf mühitə təsirlərin qiymətləndirilməsini və beynəlxalq standartlara uyğun monitorinqin həyata keçirilməsini təmin edir.

Şəkil 26. SOCAR Qrup üzrə hava emissiyaları, 2022-2024




Şəkil 27. 2024-cü ildə SOCAR Qrup üzrə hava emissiyaları,%

SOCAR (Azərbaycan)

- Bərk hissəciklər 0.2%
- Kükürd dioksid 1%
- Azot oksidi 3.7%
- Karbon monoksid 9.2%
- Karbohidrogenlər (UÜMM olmadan) 70.9%
- Uçucu üzvi mürəkkəb maddələr 13.9%
- Digər qaz maddələri 1.1%



SOCAR Türkiye

- Kükürd dioksid 20.1%
- Azot oksidi 67.3%
- Karbon monoksid 12.6%



SOCAR Energy Georgia

- Kükürd dioksid 71 %
- Azot oksidi 3.2 %
- Karbon monoksid 25.8%



# BİOMÜXTƏLİFLİK VƏ EKOLOJİ RİFAH

2024-cü ildə SOCAR flora, fauna və yerli ekosistemlərin mühafizəsinə dair öhdəliklərini rəsmiləşdirən və aydın şəkildə müəyyən edən "Bioloji müxtəlifliyin qorunmasına dair Bəyanat"ı təsdiqləmiş və ictimaiyyətə təqdim etmişdir. Şirkət prezidentinin təsdiqi ilə qüvvəyə minmiş bu sənəddə beynəlxalq biomüxtəliflik standartlarına uyğunluq, əməliyyatlara inteqrasiya və müntəzəm monitorinq vasitəsilə risklərin azaldılması nəzərdə tutulur. Sözügedən öhdəliklər SOCAR-ın bütün dəyər zəncirlərini, o cümlədən "upstream", "midstream" və "downstream" seqmentlərini əhatə edir.

SOCAR bu öhdəliklərin icrasını təmin etmək məqsədilə hər il nəzərdən keçirilən və yenilənən Ətraf Mühitin Monitorinqi Proqramı çərçivəsində yerli ekosistemlərdə baş verən dəyişikliklərin davamlı monitorinqini həyata keçirir. Şirkətdə və onun törəmə müəssisələrinə məxsus obyektlərdə həyata keçirilən monitorinq tədbirləri biomüxtəlifliyə, o cümlədən floraya, faunaya və torpağın sabitliyinə göstərilən potensial təsirlərin qiymətləndirilməsinə xidmət edir.

Ətraf Mühitin Monitorinqi Proqramı çərçivəsində havanın, suyun və torpağın keyfiyyətinin, yaşayış yerlərinin vəziyyətinin, həmçinin Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi (ƏMTQ) üzrə öhdəliklərin icrasının izlənilməsi üçün müvafiq tələbləri müəyyən edilir. ƏMTQ sənədləri milli qanunvericiliyin tələbləri və qabaqcıl beynəlxalq təcrübələr əsasında hazırlanır, layihənin icrası dövründə (planlaşdırmadan istismara qədər) ətraf mühitə təsirlərin hərtərəfli təhlilini təmin edir.

Azərbaycan qanunvericiliyinə uyğun olaraq, hər hansı tikinti və ya quraşdırma işlərinə başlamazdan əvvəl bütün ƏMTQ və müvafiq texniki layihə sənədləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunur və rəsmi təsdiq alındıqdan sonra icraya başlanılır.

**Operativ fəaliyyətlər ekosistemin dayanıqlığının qiymətləndirilməsi məqsədilə müntəzəm qaydada həyata keçirilən ekoloji monitorinq əsasında idarə olunur.**

SOCAR mühüm ərazilərdə, o cümlədən Xəzər dənizində ətraf mühitə təsirlərin qiymətləndirilməsi üzrə davamlı qiymətləndirmələr aparır. Xüsusi monitorinq proqramları əsasında ekosistem dəyişiklikləri müəyyən edilir və müvafiq təsirlərin gücü vaxtında azaldılır. 2024-cü ildə həyata keçirilən təşəbbüslər həssas dəniz və sahil ekosistemlərində stressin azaldılmasına yönəlmiş məqsədyönlü mühafizə tədbirləri ilə müşayiət olunmuşdur.

**Yaşıl sahələrin bərpası və meşə örtüyünün artırılması SOCAR-ın ətraf mühitin mühafizəsi tədbirləri gündəliyində əsas istiqamətlərdən birini təşkil edir.**

2024-cü il ərzində SOCAR tərəfindən istismar sahələrində, 29,32 hektarlıq ərazidə 57904 ağac əkilmişdir. Bu tədbirlər yaşayış mühitinin bərpasına və yerli karbon udma bazasının genişləndirilməsinə töhfə vermişdir. Bundan əlavə, effektiv texniki qulluq, zərərvericilərdən mühafizə tədbirləri və yerli şəraitə uyğunlaşdırılmış, iqlimə davamlı abadlaşdırma qaydalarının tətbiqi məqsədilə yaşıl sahələrin inventarizasiyası yenilənmişdir.

Biomüxtəlifliyin qorunması tədbirləri uyğunluq tələbləri əsasında podratçılara və təchizatçılara da şamil edilir.

Bütün istismar-əməliyyat sahələri, o cümlədən subpodratçılar tərəfindən idarə olunan ərazilər SOCAR-ın ətraf mühitin mühafizəsi siyasətinə tabedir. Şirkətin daxili standartları bütün fəaliyyət dövrü ərzində biomüxtəlifliyin qorunmasını təmin edir. Bu tələblər hesabatlılığı gücləndirir, tənzimləyici orqanların gözləntilərinə cavab verir və ətraf mühitin məsuliyyətli idarə olunmasında SOCAR-ın lider mövqeyini möhkəmləndirir.

**Xəzər dənizinin ekosistemi SOCAR-ın dəniz mühafizəsi fəaliyyətinin mühüm hissəsini təşkil edir.**

SOCAR dəniz fəaliyyətlərinin yüksək konsentrasiyasını nəzərə alaraq, Xəzər dənizi hövzəsində ekoloji monitorinqi və məlumat əsaslı təsirlərin qiymətləndirilməsini prioritet istiqamət kimi müəyyən etmişdir. Bu proqramlardan əldə edilən məlumatlar davamlı resurs idarəçiliyinə şərait yaratmaqla yanaşı, biomüxtəlifliyin qorunmasına xidmət edən adaptiv idarəetmə təcrübələrini də dəstəkləyir.

**SOCAR-ın "Eko-Park" layihəsi biomüxtəlifliyin mühafizəsinə və məlumatlılığın artırılmasına güclü sadiqlik nümayiş etdirir.**

SOCAR uzunmüddətli strategiya çərçivəsində "Eko-Park" layihəsi vasitəsilə nəsli kəsilməkdə olan yerli floranın artırılmasını dəstəkləyir və ekoloji maarifləndirməni təşviq edir. Bu canlı kolleksiya ikili rol oynayaraq biomüxtəlifliyin qorunmasını təmin edir, eləcə də ictimaiyyət və elmi ictimaiyyət üçün təlim-tədris resursu rolunu oynayır.

# TORPAQLARIN İDARƏ EDİLMƏSİ

SOCAR torpaq resurslarının məsuliyyətli və dayanıqlı şəkildə idarə olunmasına xüsusi önəm verir və təbii ehtiyatların mühafizəsini, eləcə də milli qanunvericiliyin tələblərinə uyğunluğu korporativ siyasətinin ayrılmaz hissəsi hesab edir. 2024-cü ildə SOCAR ətraf mühitin abadlaşdırılması çərçivəsində 166,7 hektar ərazini uğurla bərpa etmişdir ki, bu da 2023-cü ildə bərpa olunan 70,9 hektar ilə müqayisədə iki dəfədən artıqdır. Bu göstəricilər şirkətin ekoloji dayanıqlığa və torpaq resurslarının məsuliyyətli idarə edilməsinə olan sadiqliyini əks etdirir. SOCAR uzunmüddətli bərpa işlərinin planlaşdırılmasını təmin etmək məqsədilə neftlə çirklənmiş torpaqların hərtərəfli inventarizasiyasını aparmışdır. 2022–2024-cü illər ərzində neftlə çirklənmiş və duzlu suyun təsirinə məruz qalmış torpaqların ümumi sahəsi 1008,8 hektardan 766,1 hektara qədər azalmışdır ki, bu da şirkətin davamlı inkişaf sahəsində əldə etdiyi irəliləyişləri nümayiş etdirir. Təsirə məruz qalan ərazilərin ətraflı şəkildə xəritələşdirilməsi isə miras qalmış çirklənmənin təsirlərini azaltmağa yönəlmiş genişmiqyaslı abadlaşdırma strategiyasının əsasını təşkil edir Bu hissə bir sütun təşkil edir.

SOCAR bu öhdəliyə uyğun olaraq "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununa ciddi riayət edir. Bu qanuna əsasən, yeraltı sərvətlərin dövlətin müstəsna mülkiyyətində olması təsbit edilir, onların kəşfiyyatı, istifadəsi və mühafizəsi üçün hüquqi baza müəyyənləşdirilir. Qanun yalnız müvafiq lisenziyalaşdırma və ciddi dövlət nəzarəti altında yeraltı fəaliyyətlərə icazə verir. Qanunun əsas məqsədi yeraltı sərvətlərin, o cümlədən faydalı qazıntıların və qrunt sularının elmi əsaslarla və effektiv istifadəsini təmin etmək, eləcə də hasilat işləri zamanı ətraf mühitin çirklənməsinin və torpaqların deqradasiyasının qarşısını almaqdır.

Qanunvericiliyin tələblərinə riayət etməkdən əlavə, SOCAR ekoloji tarazlığı bərpa etmək və torpaqlardan məsuliyyətli istifadəni təşviq etmək üçün tarixən çirklənmiş torpaqların bərpası ilə fəal məşğul olur. Şirkət bütün əməliyyat coğrafiyalarında torpaqların neft və neft məhsullarının törətdiyi çirkləndiricilərdən təmizlənməsinə yönəlmiş bərpa təşəbbüslərini həyata keçirir. Bu çirkləndiricilər əksər hallarda ekosistemlərə və əhalinin sağlamlığına ciddi təhlükə yaradan maddələrdən, məsələn ağır metallardan ibarətdir.

SOCAR "Mayak" layihəsi çərçivəsində neftlə çirklənmiş torpaqların və göllərin rekultivasiyası üzrə kompleks plan hazırlamışdır. Bu layihədə əsas icraçı və tərəfdaş qismində "EKOL Mühəndislik Xidmətləri" QSC çıxış edir. Layihənin əsas diqqət mərkəzində təsirə məruz qalan ərazilərin dəqiq müəyyən edilməsi və araşdırılması dayanır.

Cədvəl 28. 2022–2024-cü illərdə SOCAR (Azərbaycan) üzrə torpaq çirklənməsi, ha




Cədvəl 29. 2022–2024-cü illərdə SOCAR (Azərbaycan) üzrə bərpa və rekultivasiya işləri, ha



SOCAR

# İNSANLARA QAYĞI



# İNSANLARIN QORUNMASI

SOCAR bütün işlərin təhlükəsiz, etibarlı və müvafiq qaydalara uyğun şəkildə həyata keçirilməsini təmin edir, işçilərin sağlamlığını və təhlükəsizliyini fəaliyyət məqsədlərindən üstün tutur. Şirkətin əsas hədəfi bütün istehsalat proseslərini bədbəxt hadisələrə, peşə xəstəliklərinə və ətraf mühitə zərərə yol vermədən həyata keçirməkdir. 2024-cü ildə SOCAR istehsalat sahələrində iş şəraitinin yaxşılaşdırılması, eləcə də beynəlxalq sağlamlıq və təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Binaların, istehsalat sahələrinin və iş yerlərinin standartlara uyğunlaşdırılması ilə yanaşı, xəsarətlərin, bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üçün profilaktik tədbirlər ardıcıl şəkildə həyata keçirilmişdir. Həmin il ərzində əməyin mühafizəsi təşəbbüslərinə ümumilikdə 39785424 AZN məbləğində investisiya vəsaiti ayrılmışdır.

SOCAR eyni zamanda inkişaf edən sənaye tələblərinə və dəyişən iş mühitinə cavab verən yenilənmiş normalar, prosedurlar və təlimatlar işləyib hazırlamışdır. Hərtərəfli təhlil əsasında SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) idarəetmə sisteminin təkmilləşdirilməsinə dair strateji sənəd qəbul edilmişdir. Şirkətin əsas prinsiplərini əks etdirən yenilənmiş Sağlamlıq və Təhlükəsizlik Bəyanatı təsdiqlənmiş və internet saytında dərc olunmuşdur. Bundan əlavə, insidentlərlə bağlı şifahi məlumatvermə prosedurlarını və təhlükəsiz davranışın müşahidə sistemlərini özündə əks etdirən əlavə təlimat sənədləri hazırlanmışdır. SOCAR həmçinin sərnişindaşıma və yükqaldırma əməliyyatları üzrə təhlükəsizlik prosedurlarını təsdiqləmiş, işə icazə sistemlərinə və enerjinin izolyasiyası protokollarına əlavə yeniliklər daxil etmişdir.

SOCAR podratçıların SƏTƏMM idarəetmə sistemi və hesabatvermə təcrübələrinə dair korporativ səviyyəli standartları yeniləmişdir. Qoruyucu geyim və fərdi mühafizə vasitələrinin təminatı üzrə prosedurlar yenidən nəzərdən keçirilmişdir. Bu tədbirlər təhlükəsiz və ədalətli iş mühitinin yaradılması istiqamətində güclü institusional yanaşma nümayiş etdirir. Şirkət risklərin fəal şəkildə idarə edilməsinə və əməyin təhlükəsizliyi ilə bağlı məlumatlılığının bütün işçilər arasında artırılmasına xüsusi diqqət yetirmişdir. Bu davamlı səylər insan həyatının qorunmasına, fəaliyyətin davamlılığının təmin edilməsinə və uzunmüddətli biznes dayanıqlığının dəstəklənməsinə mühüm töhfə verir. SOCAR-da Sağlamlıq və Əməyin Təhlükəsizliyi (SƏT) və keyfiyyət siyasətinin effektivliyinin təmin edilməsi məqsədilə beynəlxalq akkreditasiyadan keçmiş müstəqil audit təşkilatları tərəfindən mütəmadi olaraq kənar auditlər həyata keçirilir.

2024-cü ildə bu auditlər yerli və beynəlxalq səviyyədə tanınmış şirkətlər, məsələn "AZSTAND", "Bureau Veritas", "TUV Austria" və "SGS" tərəfindən aparılmışdır. Audit prosesində əsas diqqət SƏT siyasətinin icrasına, keyfiyyətin və risklərin idarə edilməsinə, qabaqlayıcı tədbirlərin tətbiqinə, həmçinin davamlı inkişaf prinsiplərinə uyğunluğun qiymətləndirilməsinə yetirilir. Bu auditlər çərçivəsində ISO 45001:2018 standartına uyğunluq da qiymətləndirilmişdir. Məsul auditorlar sağlamlıq və əməyin təhlükəsizliyinin idarə edilməsi sistemləri üzrə ixtisaslaşmışlar.

SOCAR-da SƏTƏMM bəyanatı kənar mütəxəssislər tərəfindən hər il yoxlanılır. Bu proses SƏTƏMM bəyanatının və əməliyyatların beynəlxalq standartlara uyğun qiymətləndirilməsini təmin etməklə hesabatlılığı və şəffaflığı artırır. Audit nəticələri və auditorların tövsiyələri illik təkmilləşdirmə planlarına daxil edilir və davamlı inkişaf üçün baza rolunu oynayır. 2024-cü ildə SOCAR risklərin qarşısının alınması və işçi qüvvəsinin mühafizəsi strategiyasının əsas komponenti olan sağlamlıq və əməyin təhlükəsizliyi (SƏT) üzrə təlimlərə xüsusi diqqət yetirmişdir. İşçilərin təhlükəsiz iş təcrübələri ilə bağlı məlumatlılığını və peşəkar səriştəsini artırmaq məqsədilə bütün törəmə müəssisələrdə məqsədyönlü təlim proqramları həyata keçirilmişdir. Bu proqramlar təhlükələrin müəyyən edilməsi, fövqəladə hallara qarşı cavab tədbirləri, daxili təhlükəsizlik protokollarına riayət və ISO 45001 də daxil olmaqla qüvvədə olan digər təhlükəsizlik standartlarının tələblərinə uyğunluq kimi əsas mövzuları əhatə etmişdir. Təlim modullarının effektivliyini və əlçatanlığını təmin etmək məqsədilə müxtəlif formatlardan (məsələn, ənənəvi sinif məşğələləri, praktiki məşğələlər və rəqəmsal platformalar) istifadə edilmişdir.

Yeni işçilər sağlamlıq və təhlükəsizlik qaydaları, habelə fərdi məsuliyyətlər barədə məcburi təlim sessiyalarında iştirak edirlər. SƏT üzrə məlumatlılığın artırılması və intizamın təmin olunması məqsədilə yüksək riskli vəzifələrdə çalışan işçilər üçün ixtisasartırma kursları keçirilmişdir. Daxili auditlərin nəticələrinə əsasən, təlimlərin əhatə dairəsi və iştirak səviyyəsi müəyyən olunmuş minimum standartlara tam cavab verir və ya əksər hallarda onları üstələyir. SOCAR, həmçinin korporativ SƏT tələblərinə uyğunluğu təmin etmək üçün podratçılar və üçüncü tərəf işçiləri üçün ixtisaslaşdırılmış sessiyalar həyata keçirmişdir. SOCAR qanunvericilikdə baş verən dərsləri nəzərə alaraq təlim materiallarını mütəmadi olaraq yenilənmişdir. Nəzarətçilər və şöbə rəhbərləri təhlükəsizlik mədəniyyətini bütün səviyyələrdə inkişaf etdirmək üçün iş yerində təhlükəsizlik liderliyi üzrə təlimlərdə iştirak etmişdirlər. Təlim nəticələrinin effektivliyi təlimdən sonrakı qiymətləndirmələr və əks əlaqə mexanizmləri vasitəsilə izlənilmişdir. Bu tədbirlər nəticəsində əməkdaşlar öz iş mühitlərində SƏT risklərini idarə etməyə hazır olduqlarını nümayiş etdirmişlər. SOCAR bununla da fəaliyyətin bütün aspektlərində insan həyatının qorunması və təhlükəsizliyin təmin edilməsi baxımından dəyişməz mövqe nümayiş etdirmişdir. SƏT ilə bağlı maarifləndirmənin davamlı şəkildə həyata keçirilməsi şirkətin fəaliyyətində dayanıqlığın və davamlılığın əsas hərəkətverici amili olaraq qalır. 2024-cü ildə müxtəlif ixtisaslaşdırılmış kurslarda sağlamlıq və əməyin təhlükəsizliyi üzrə 292410 saat təlim keçirilmişdir. Bu sessiyalarda 13318 nəfər iştirak etmişdir. Beləliklə, geniş işçi kütləsi təhlükəsizlik üzrə təhsil imkanlarından faydalanmışdırlar. SOCAR-ın baş idarəsi və şirkətin strukturuna daxil olan törəmə müəssisələr üzrə iştirak etməmə səviyyəsi isə 2,5% təşkil etmişdir.

### SOCAR (Azərbaycan) üzrə İş Yerində Əməyin Təhlükəsizliyi Göstəriciləri, 2024

| | |
|---|---|
| İş yerində əməyin təhlükəsizliyi ilə bağlı xərclər, min AZN | 39,785 |
| İtirilmiş iş vaxtına səbəb olan insidentlərin ümumi sayı | 28 |
| İtirilmiş iş vaxtı əmsalı | 0.07 |
| İşçilərin sayı | 48.069 |

## Texniki Təhlükəsizlik Tədbirləri

SOCAR 2024-cü ildə müəssisələrdə iş şəraitinin yaxşılaşdırılması və müasir təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsi məqsədilə profilaktik texniki təhlükəsizlik tədbirləri həyata keçirmişdir. Əsas diqqət istehsal sahələrinin, binaların və iş yerlərinin yenidən qurulmasına, mövcud sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verən infrastrukturun təmin olunmasına yönəlmişdir. Mürəkkəb texnoloji proseslərə cəlb edilmiş avadanlıqlar, mexanizmlər və istehsal sistemləri mütəmadi olaraq texniki baxışdan keçirilmiş və dövri sınaqlara cəlb olunmuşdur. Bu qiymətləndirmələrin məqsədi aktivlərin təhlükəsiz istismarını təmin etmək və onların etibarlılığını artırmaq olmuşdur. Bundan əlavə, bir sıra obyektlərdə əl əməyini minimuma endirmək və iş yerlərində təhlükəsizliyi gücləndirmək üçün beynəlxalq standartlara cavab verən avtomatlaşdırılmış nəzarət-ölçü sistemləri quraşdırılmışdır. Bu sistemlər insan faktorundan qaynaqlanan riskləri azaldaraq real vaxt rejimində monitorinq imkanları yaradır. SOCAR, təhlükəsiz və dayanıqlı fəaliyyət öhdəlikləri çərçivəsində texniki infrastrukturun yenilənməsinə investisiya yatırır.

## İş Şəraitinin Yoxlanılması

2024-cü ildə SOCAR istehsalat sahələrində təhlükəsizliyin təmin olunması məqsədilə iş yerlərində mövcud şəraitə ciddi nəzarət etmişdir. İş mühitində təhlükəsizliyinin qiymətləndirilməsi üçün mütəmadi sertifikatlaşdırma yoxlamaları aparılmış və nəticədə SOCAR-ın törəmə müəssisələri üzrə 2077 iş yeri attestasiyadan keçirilmişdir. Bu qiymətləndirmələrin nəticələrinə əsasən, 414 iş yerində təhlükəli istehsal faktorlarının icazə verilən hədlərdən artıq olduğu aşkarlanmışdır. Bununla yanaşı, şirkətin dörd müəssisəsində fəaliyyət göstərən sənaye-gigiyena laboratoriyaları riskə məruz qalma səviyyələrinin və əməyin təhlükəsizliyi göstəricilərinin yoxlanılması məqsədilə 4411 iş yerində ölçmələr aparmışdır. Əməliyyat risklərinin minimuma endirilməsi istiqamətində SOCAR-ın Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsi və daimi fəaliyyət göstərən komissiyalar (DFK) “özünüqiymətləndirmə” prosesi çərçivəsində əlavə yoxlamalar aparmışdır. Sözügedən yoxlamalar səkkiz törəmə müəssisəni əhatə etmişdir: Neft Kəmərləri İdarəsi, Heydər Əliyev adına Neft Emalı Zavodu, Təlim və Sertifikatlaşdırma İdarəsi, "Neftqaztikinti" Tresti, Nəqliyyat İdarəsi, “Azərikimya” İB, “Neftqazelmitədqiqatlayihə” İnstitutu və Karbamid Zavodu. Nəticədə təhlükəsizliklə bağlı 199 uyğunsuzluq halı aşkarlanmış və onların aradan qaldırılması üçün məqsədyönlü tövsiyələr təqdim edilmişdir.

2024-cü ildə DFK-lar tərəfindən törəmə müəssisələr üzrə iş yerlərində 657 yoxlama aparılmış, ümumilikdə 10179 uyğunsuzluq halı qeydə alınmış, 8520 hal tam aradan qaldırılmışdır. Paralel olaraq, daxili SƏTƏMM xidmətləri tərəfindən həyata keçirilmiş 5333 yoxlama nəticəsində 23906 uyğunsuzluq halı müəyyən edilmiş, 21605 hal aradan qaldırılmış, qalan hallarda isə həll olunmamış və təkrarlanan problemlərin həll edilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir.

Təhlükəsizlik tələblərinin pozulmasına görə 479 mühəndis-texniki işçi barədə intizam tədbirləri görülmüşdür. Onlardan 367 nəfərə rəsmi töhmət, 60 nəfərə sonuncu bildirişlə ciddi xəbərdarlıq, 387 nəfərə xəbərdarlıq verilmiş, 49 nəfərin əməkhaqqısı azaldılmış, 3 nəfər isə vəzifəsindən azad edilmişdir. Bununla yanaşı, əməyin mühafizəsi sahəsində yüksək nəticələr göstərən 373 əməkdaş şirkət tərəfindən rəsmi qaydada tanınmış və mükafatlandırılmışdır.

SOCAR təhlükəsizlik mədəniyyətinin daha da gücləndirilməsi məqsədilə ənənəvi “Təhlükəsizlik Lideri” müsabiqəsini 2024-cü ildə də davam etdirmişdir. İl ərzində əvvəlcədən müəyyən olunmuş SƏTƏMM effektivlik meyarlarına əsasən iş yerlərində təhlükəsizliyin təmin olunması baxımından nümayiş etdirdiyi nümunəvi yanaşmaya görə 37 əməkdaş mükafatlandırılmışdır.

## Üçüncü Tərəf Şirkətlərin Yoxlanılması

2024-cü ildə SOCAR şirkətin əsas prinsiplərinə və əməliyyat təhlükəsizliyi dəyərlərinə uyğunluğu təmin etmək məqsədilə üçüncü tərəf (podratçı) şirkətlərin fəaliyyətinə ciddi şəkildə nəzarət etmişdir. Podratçılar üçün müəyyən edilmiş əsas tələblər əsasən əməyin təhlükəsizliyinə, təhlükəsizlik məsələlərinə və əməliyyat sahələrində risklərin effektiv idarə edilməsinə yönəlmişdir. Müqavilə əsasında fəaliyyət göstərən müştərək müəssisələr və tərəfdaş qurumlar SƏTƏMM standartlarına uyğunluğun təmin olunması məqsədilə mütəmadi olaraq yoxlanılmışdır.

Çoxsaylı podratçıların cəlb olunduğu istehsalat sahələrində kənar fəaliyyətlərin koordinasiyası və nəzarət tədbirlərinin effektiv şəkildə həyata keçirilməsi üçün məsul şəxslər təyin olunmuşdur. Əlavə olaraq, yanğın və partlayış riski olan zonalara təhlükəsizlik tələblərinə cavab verməyən avtonəqliyyat vasitələrinin girməsinə məhdudiyyət qoyulmuşdur. İşlə bağlı sertifikatların etibarlılığını, qaldırıcı avadanlıqların, mexanizmlərin və alətlərin texniki vəziyyətini və müvafiq texniki baxışların icrasını yoxlamaq üçün gücləndirilmiş nəzarət tədbirləri həyata keçirilmişdir.

Təhlükəsizliyə nəzarətin digər istiqamətləri isə işlərin düzgün icrasına nəzarəti, mənsubiyyətindən asılı olmayaraq bütün əməkdaşların müvafiq qoruyucu geyimlərdən və fərdi qoruyucu vasitələrdən istifadə etməsini, eləcə də zərurət yarandıqda əlaqələndirilmiş təhlükəsizlik qaydalarının tətbiqini əhatə etmişdir.

Bundan əlavə, birgə müəssisələr və əməliyyat şirkətləri ümumi təhlükəsizlik göstəricilərini qiymətləndirmək və davamlı təkmilləşdirmə təşəbbüslərini dəstəkləmək məqsədilə iş yerində baş verən xəsarətlər barədə aylıq hesabatlar təqdim etmiş, həmin məlumatlar nəzərdən keçirilmiş və təhlil edilmişdir.

Şəkil 30. Təhlükəsizlik pozuntularına qarşı tədbirlər



# SOCAR-DA BEYNƏLXALQ SERTİFİKATLAR

ISO 9001, ISO 14001 və ISO 45001 standartlarına uyğun olaraq sertifikatlaşdırılmış

- “Azneft” İB
- Qaz Emalı Zavodu
- Nəqliyyat İdarəsi
- Marketinq və İqtisadi Əməliyyatlar Departamenti
- Informasiya Texnologiyaları və Rabitə İdarəsi
- Neft Kəmərləri İdarəsi
- “Azərkimya” İB
- “Azəriqaz” İB
- Bakı Ali Neft Məktəbi
- Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsi
- Geofizika və Geologiya İdarəsi
- Heydər Əliyev adına Neft Emalı Zavodu
- Kompleks Qazma İşləri tresti
- “Neftqaztikinti” Tresti
- Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi
- Karbamid Zavodu
- Metanol Zavodu

Yenilənməsi gözlənilən

- “Neftqazelmitədqiqatlayihə” İnstitutu

İlk dəfə təqdim ediləcək

Sənaye Təhlükəsizliyi İdarəsi (ISO9001, ISO14001, ISO 45001)

Sosial İnkişaf İdarəsi (İSO 9001)

ISO 9001

ISO 14001

ISO 45001



## İş Yerində Bədbəxt Hadisələr

“Sıfır Zərər Vizyonu” SOCAR-ın bütün səviyyələrində həyata keçirilən proaktiv və profilaktik Sağlamlıq və Əməyin Təhlükəsizliyi (SƏT) proqramıdır. Proqramın fəlsəfəsinə əsasən, iş yerlərində baş verən bütün hadisələrin, xəsarətlərin və peşə xəstəliklərinin qarşısını almaq olar, eləcə də strukturlu və nizamlı yanaşma əsasında “sıfır zərər” məqsədinə nail olmaq mümkündür.

Proqramın əsas məqsədlərinə iş yerlərində xəsarət və peşə xəstəliklərinin aradan qaldırılması, bütün təşkilati səviyyələrdə təhlükəsizliyə yönələn düşüncə tərzinin təşviq edilməsi, liderlərin və əməkdaşların aktiv iştirakı vasitəsilə təhlükəsizlik mədəniyyətinin gücləndirilməsi, eləcə də Şirkət daxilində SƏTƏMM göstəricilərinin davamlı şəkildə təkmilləşdirilməsi daxildir. SOCAR strukturlaşdırılmış yoxlamalar, müntəzəm hesabatlar, güclü liderlik və iştirak mədəniyyəti sayəsində insidentsiz iş mühitinin yaradılmasına və hər bir əməkdaşın tam qorunmasına sistemli şəkildə çalışır.

Sözügedən profilaktik tədbirlərə baxmayaraq, 2024-cü ildə SOCAR-da ümumilikdə 30 istehsalat hadisəsi baş vermişdir. Normativ tələblərə uyğun olaraq bütün hadisələr haqqında aidiyyəti dövlət orqanlarına məlumat verilmişdir. Bu faktlardan 19-u üzrə araşdırmalar yekunlaşmışdır. Qalan hadisələrlə bağlı araşdırmalar davam etdirilir. Araşdırmanın nəticələrinə əsasən, təkrarlanma risklərinin azaldılması və iş şəraitinin yaxşılaşdırılması üçün müəssisə səviyyəsində düzəldici-profilaktik tədbirlər həyata keçirilmişdir. Hər bir insidentdən çıxarılan dərslər şirkət daxilində yayılmış və müvafiq tədbirlərin icrası ciddi nəzarət altında saxlanılmışdır.

Əvvəlki illərlə müqayisədə bildirilən hadisələrin sayının artması müəyyən dərəcədə Şirkətin hesabatvermə mədəniyyətinin təkmilləşdirilməsi ilə bağlıdır. Bu proses maarifləndirmə təşəbbüsləri, eləcə də bütün səviyyələrdə operativ və sistemli hesabatlılığı təşviq edən təşkilati tədbirlərlə dəstəklənmişdir. Nəticədə, məlumatların paylaşılması hallarının sayı beş dəfədən çox artmış və potensial risklərin ciddi qəzalara çevrilməsindən qabaq vaxtında araşdırılmasına və qarşısının alınmasına şərait yaranmışdır. Bu müsbət irəliləyişlər şəffaflıq prinsiplərinə və iş yerlərində təhlükəsizliyin davamlı şəkildə gücləndirilməsinə olan sadiqliyi nümayiş etdirir.

Şəkil 31. 2024-cü ildə SOCAR (Azərbaycan) üzrə fəaliyyət sahələrinə görə bədbəxt hadisələrin sayı




Ölümlə nəticələnən hadisələrin sayı **2**

Cədvəl 12. 2024-cü ildə SOCAR (Azərbaycan) üzrə sağlamlıq və əməyin təhlükəsizliyi üzrə göstəriciləri

| | 2024 |
|---|---|
| Bədbəxt hadisələrin ümumi sayı, o cümlədən; | 28 |
| ölümlə nəticələnən | 2 |
| Cəmi zədə almış əməkdaşların sayı; | 27 |
| həlak olmuş işçilərin sayı | 2 |
| Itkin düşmüş işçilərin sayı | 0 |
| Peşə xəstəliklərinin sayı | 0 |
| İstehsalat zədələnmələri nəticəsində itirilmiş iş günlərinin sayı | 1,058 |
| İşçilərin orta siyahı sayı | 48,340 |
| Cəmi işlənmiş saatlar | 83,157,402 |
| İtirilmiş iş vaxtı əmsalı (hər hər hər 200000 işlənmiş saata) | 0.07 |
| İtirilmiş iş günləri əmsalı (hər 200000 işlənmiş saata) | 2.54 |
| Bədbəxt hadisələrin tezlik əmsalı (hər 1000 nəfər işçiyə düşən hadisələrin sayı) | 0.62 |
| Bədbəxt hadisələrin ağırlıq əmsalı (hər hadisəyə düşən itirilmiş günlərin sayı) | 39.17 |

Cədvəl 13. 2024-cü ildə SOCAR-ın Birgə Müəssisələrinin və Əməliyyat Şirkətlərinin sağlamlıq və əməyin təhlükəsizliyi üzrə göstəriciləri

| | 2024 |
|---|---|
| Bədbəxt hadisələrin ümumi sayı, o cümlədən; | 18 |
| ölümlə nəticələnən | 0 |
| Cəmi zədə almış əməkdaşların sayı; | 18 |
| İstehsalat zədələnmələri nəticəsində itirilmiş iş günlərinin sayı | 246 |
| Bədbəxt hadisələrin ağırlıq əmsalı (hər hadisəyə düşən itirilmiş günlərin sayı) | 13.66 |
| Bədbəxt hadisələrin tezlik əmsalı (hər 1000 nəfər işçiyə düşən hadisələrin sayı) | 0.88 |
| Peşə xəstəliklərinin sayı | 0 |
| İşçilərin orta siyahı sayı | 20,406 |
| Cəmi işlənmiş saatlar | 38,490,464 |
| İtirilmiş iş vaxtı əmsalı (hər hər 200000 işlənmiş saata) | 0,09 |
| İtirilmiş iş günləri əmsalı (hər 200000 işlənmiş saata) | 1.28 |

# ƏMƏK MÜNASİBƏTLƏRİ

SOCAR öz işçilərini şirkətin ən dəyərli resursu və uzunmüddətli uğurun açarı hesab edir. İnsan resursları yanaşması motivasiyalı, bacarıqlı və sabit işçi qüvvəsinin formalaşdırılmasına yönəlmişdir və bu yanaşma Şirkətin strateji biznes məqsədlərini dəstəkləyir. SOCAR dəstəkləyici və sabit iş mühiti yaradaraq əməkdaşlara mənalı töhfələr verir, onların peşəkar inkişafını təmin edir. Şirkət bazar dinamikalarına uyğun çevik qalmaq üçün işçi qüvvəsinin saxlanılmasına və davamlı inkişafına xüsusi önəm verir. Bu yanaşmada uzunmüddətli korporativ effektivlik göstəricilərinin işçilərin birbaşa iştirakı və məmnunluğu ilə sıx bağlı olması açıq şəkildə özünü büruzə verir. SOCAR eyni zamanda qarşılıqlı hörməti və etimadı gücləndirən ədalətli məşğulluq təcrübələrini dəstəkləyir. Bu öhdəlik SOCAR-ın əmək münasibətləri sahəsində həyata keçirdiyi genişmiqyaslı siyasətin əsasını təşkil edir.

İnsan mərkəzli yanaşmanın nəticəsi olaraq SOCAR yüksək dərəcədə stabil işçi qüvvəsini qoruyur və əməkdaşların 99%-i daimi əmək müqaviləsi ilə çalışır. Bu göstərici Şirkətlə əməkdaşlar arasında formalaşmış qarşılıqlı etimadı və uzunmüddətli məşğulluq siyasətinin effektivliyini əks etdirir. Hesabat dövründə kadr dövriyyəsi əmsalı cəmi 1,9% təşkil etmişdir ki, bu da sənaye standartları ilə müqayisədə aşağı göstərici hesab olunur və işçi qüvvəsinin yüksək saxlanma səviyyəsini nümayiş etdirir. Kadr sabitliyi əməliyyatların fasiləsizliyini təmin edir və təşkilat daxilində institusional bilik və təcrübənin qorunmasına xidmət edir. Hesabat ilində kütləvi ixtisar qeydə alınmamışdır ki, bu da SOCAR-ın işçi qüvvəsinin qorunmasına və sosial məsuliyyətə sadiqliyini təsdiqləyir. Bu nəticələr əməkdaşların sadiqliyinin, motivasiyasının və davamlı məhsuldarlığının yüksəlməsinə təkan verir və Şirkətin əmək münasibətləri üzrə ümumi strategiyasının dayanıqlığını gücləndirir.

SOCAR əmək münasibətlərinin əsas elementi kimi bərabər yanaşma prinsipini qoruyur. Şirkət cins, yaş, etnik mənsubiyyət, din və digər xüsusiyyətlərə əsaslanan istənilən növ ayrı-seçkiliyi qadağan edən güclü daxili siyasət bazası formalaşdırmışdır. Bu prinsiplər təşkilatın bütün səviyyələrində müvafiq qaydalar və prosedurlar əsasında ədalətli və ardıcıl şəkildə tətbiq edilir.

SOCAR karyera imkanlarına bərabər çıxışı, ədalətli və şəffaf mükafatlandırmanı, eləcə də nailiyyətə əsaslanan yüksəliş imkanlarını fəal şəkildə dəstəkləyir. Şirkətin bu yanaşması milli əmək qanunvericiliyinə tam uyğun olmaqla yanaşı, beynəlxalq bərabərlik standartlarına da cavab verir.

Əməkdaşların karyera dövrünün bütün mərhələlərində ədalətliliyin qorunması SOCAR-da inklüziv və qarşılıqlı hörmətə əsaslanan korporativ mədəniyyətin təşviqinə xidmət edir. Bu dəyərlər işçi qüvvəsinin idarə edilməsində bütün aspektlərin əsasını təşkil edir və güclü təşkilati mədəniyyəti dəstəkləyir. Açıq və şəffaf ünsiyyətin təmin edilməsi SOCAR-ın əmək münasibətlərinə tətbiq etdiyi yanaşmanın əsas prinsiplərindən biridir. Şirkət müntəzəm daxili dialoq və "açıq qapı" təcrübələri vasitəsilə inklüziv iş mühitini təşviq edir ki, bu da əməkdaşlara öz narahatlığını ifadə etmək, ideyalarını bölüşmək və iş mühitinin yaxşılaşdırılmasına töhfə vermək imkanı yaradır.

SOCAR rəhbərlik və əməkdaşlar arasında birbaşa qarşılıqlı əlaqəni gücləndirmək məqsədilə strateji prioritetlərə, biznesin inkişafına və əməkdaş rəylərinin nəzərə alınmasına xidmət edən açıq müzakirələrin aparılması üçün platforma rolunu oynayan müntəzəm görüşlər təşkil edir. Bu sessiyalar şəffaflığı artırır, əməkdaşların ən yüksək səviyyədə dinlənilməsini təmin edir və təşkilata olan inamı gücləndirir. Bununla yanaşı, Şirkət iş mühitinin əsas aspektlərinin qiymətləndirilməsi üçün işçi bağlılığı, məmnuniyyəti və İşçi Tövsiyə İndeksi (eNPS) üzrə mütəmadi sorğular keçirir. eNPS nəticələri göstərir ki, əməkdaşlar SOCAR-a yüksək müsbət münasibət bəsləyir və Şirkəti dəyərli iş yeri olaraq qiymətləndirirlər. Sorğulardan əldə edilmiş məlumatlar idarəetmə təcrübələrinin təkmilləşdirilməsi, işçi təcrübəsinin artırılması və strateji İR təşəbbüslərinin istiqamətlənməsi üçün istifadə edilir.

Bundan əlavə, gündəlik daxili kommunikasiya SOCAR Portalı və "SOCAR Ailəm" kimi daxili platformalar vasitəsilə dəstəklənir ki, bu da xəbərlərə, korporativ elanlara və əməkdaş xidmətlərinə rahat çıxış imkanı yaradır. Bu kommunikasiya alətləri hesabatlılığı gücləndirir, bağlılığı artırır və işçi qüvvəsinin Şirkətin missiyası və dəyərləri ilə daha yaxşı uyğunlaşmasını təmin edir.

2024-cü ildə işçi bağlılığı, məmnunluğu və eNPS sorğularının nəticələri müsbət tendensiya nümayiş etdirmiş və işçilərlə qarşılıqlı əlaqələrin qurulmasına yönəlmiş səylərin effektivliyini bir daha təsdiqləmişdir. Bu irəliləyiş liderlik inkişafına, əməkdaşların peşəkar təliminə və iş şəraitinin yaxşılaşdırılmasına yatırılmış investisiyaların nəticəsi kimi qiymətləndirilir. SOCAR işçilərin əks əlaqə mexanizminə insan kapitalının idarə olunması strategiyasının əsas komponenti kimi yanaşır. Şirkət kadr gözləntilərinə cavab vermək, həmçinin davamlı təkmilləşdirməni təmin etmək üçün bu rəylərdən sistemli şəkildə istifadə edir.

İşçi Tövsiyə İndeksi

| | | |
|---|---|---|
| Kişi | 38% | 40% |
| Qadın | 41% | |

İşçi bağlılığı göstəricisi

| | | |
|---|---|---|
| Kişi | 84% | 86% |
| Qadın | 86% | |

İşçi məmnunluğu göstəricisi

| | | |
|---|---|---|
| Kişi | 78% | 78% |
| Qadın | 78% | |

Cədvəl 14. 2022–2024-cü illərdə SOCAR Qrup üzrə işçi sayı

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | 48,042 | 48,320 | 48,069 |
| SOCAR Türkiye | 5,251 | 5,509 | 5,688 |
| SOCAR Energy Georgia | 4,914 | 4,055 | 4,353 |
| SOCAR Energy Ukraine | 1,719 | 1,794 | 1,777 |
| SOCAR Energy Switzerland | 803 | 818 | 806 |
| SOCAR Energy Austria | | 200 | 208 |

Cədvəl 15. 2022–2024-cü illərdə SOCAR Qrup üzrə işçi axını, %, %

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| SOCAR (Azərbaycan) | 2.4 | 1.4 | 1.9 |
| SOCAR Türkiye | 6.7 | 4.9 | 5.1 |
| SOCAR Energy Georgia | 27.3 | 41.6 | 19.9 |
| SOCAR Energy Ukraine | 37.3 | 28.3 | 34.2 |
| SOCAR Energy Switzerland | 41 | 40.2 | 36.6 |
| SOCAR Energy Austria | | 60.1 | 61.9 |

Cədvəl 16. 2022–2024-cü illərdə ölkələr üzrə işə qəbul edilmiş və işdən azad edilmiş əməkdaşların sayı

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Azərbaycan | | | |
| İşə qəbul | 2,781 | 3,313 | 2,289 |
| İşdən azad | 2,174 | 1,195 | 929 |
| Türkiyə | | | |
| İşə qəbul | 377 | 480 | 467 |
| İşdən azad | 346 | 264 | 288 |
| Gürcüstan | | | |
| İşə qəbul | 1,319 | 1,008 | 1,133 |
| İşdən azad | 1,276 | 1,867 | 835 |
| Ukrayna | | | |
| İşə qəbul | 411 | 747 | 594 |
| İşdən azad | 693 | 672 | 611 |
| İsveçrə | | | |
| İşə qəbul | 331 | 331 | 294 |
| İşdən azad | 325 | 330 | 295 |
| Avstriya | | | |
| İşə qəbul | | 170 | 130 |
| İşdən azad | | 182 | 125 |

# TƏLİMLƏR VƏ PEŞƏKAR İNKİŞAF

SOCAR bilik və bacarıqların davamlı inkişafını təşkilatın uğurunda və fərdi inkişafda əsas rol oynayan strateji prioritetlərindən biri hesab edir. İnkişaf edən enerji müstəvisində texnoloji, normativ və əməliyyat tələblərinin yerinə yetirilməsi üçün işçilərin bilik və bacarıqlarının daima təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Şirkət bu məqsədlə texniki, idarəetmə və dayanıqlılıq potensialının gücləndirilməsinə xidmət edən strukturlaşdırılmış təlim-tədris imkanlarına investisiya yatırır.

SOCAR hərtərəfli və çevik təlim-tədrisə zəmin yaradan daxili və xarici inkişaf resurslarından istifadə edir. Daxili resurslara şirkətdaxili təlimlər, liderlik bacarıqlarının inkişafı proqramları və şirkət ekspertləri tərəfindən keçirilən bilik mübadiləsi sessiyaları daxildir. Xarici resurslara gəldikdə isə, əməkdaşlar peşəkar təcrübələrini artırmaq və qabaqcıl dünya təcrübələri ilə tanış olmaq məqsədilə beynəlxalq sertifikat proqramlarında, xarici seminarlarda və akademik tərəfdaşlıqlarda iştirak edirlər. Bu ikili yanaşma SOCAR-ın işçi qüvvəsinin çevik və gələcəyə hazır olmasını, eləcə də Şirkətin uzunmüddətli strategiyasına uyğun şəkildə inkişaf etməsini təmin edir.

SOCAR peşəkar inkişafa tətbiq etdiyi strateji yanaşma çərçivəsində, hesabat ilində liderlik potensialının artırılması, işçilərin məhsuldarlıq göstəricilərinin yüksəldilməsi və davamlı öyrənmə mədəniyyətinin formalaşdırılması məqsədilə bir sıra ixtisaslaşdırılmış təlim proqramlarına başlamışdır. Bu təşəbbüslər təşkilatın müxtəlif səviyyələrini (yüksək rəhbər vəzifələrdən tutmuş yeni formalaşan peşəkarlara qədər) əhatə etməklə inkişaf imkanlarının inklüziv, məqsədəuyğun olmasını və təşkilatın məqsədləri ilə uzlaşmasını təmin etmişdir. 2024-cü ildə aşağıdakı əsas inkişaf proqramları həyata keçirilmişdir.

### Liderlik Akademiyası: Strateji Liderlərin İnkişafı Proqramı

SOCAR-da strateji əhəmiyyətli vəzifələrdə çalışan rəhbərlərin liderlik səriştələrinin təkmilləşməsinin təmin edilməsi və müasir liderlik yanaşmalarının tətbiq edilməsi ilə ortaq idarəetmə dəyərlərinin formalaşdırılması məqsədi ilə “Liderlik Akademiyası” konsepti çərçivəsində “Strateji rəhbərlər üçün inkişaf proqramı” hazırlanmış və Türkiyənin Boğaziçi Universiteti ilə birgə 2023-cü ilin aprel ayından etibarən tətbiqinə başlanılmışdır.

Proqram çərçivəsində SOCAR-ın tələblərinə uyğunlaşdırılmış “Liderlərin idarə edilməsi”, “Çevik İdarəetmə”, “Təşkilati siyasət, uyğunlaşma və təsiretmə məharəti: Liderlik üçlüyü” və “Strateji dəyişiklik və İnnovasiya" mövzuları üzrə təlim modulları həyata keçirilmişdir.

“Strateji Rəhbərlərin İnkişafı Proqramı” 17 fevral 2025-ci il tarixindən yeni təyin edilmiş strateji rəhbərlər üçün yenidən təşkil edilmişdir. Proqram çərçivəsində eyni təlim modulları həyata keçirilmişdir. Ümumilikdə proqrama SOCAR-ın 57 strateji rəhbəri qoşulmuş və proqramın məmnunluq göstəricisi 93% təşkil etmişdir.

Bu təşəbbüs ümumi liderlik vizyonunun gücləndirilməsinə və yuxarı səviyyələrdə çoxfunksiyalı əməkdaşlığın qurulmasına töhfə vermişdir. SOCAR belə proqramların sayəsində gələcəyə hazır rəhbər kadrların yetişdirilməsinə yönəlmiş investisiyaları artırmışdır.

### Liderlik Bacarıqları – Orta Xətt Rəhbərləri üçün İmkanların Artırılması

SOCAR müvafiq fəaliyyət sahəsində effektiv liderliyin dəstəklənməsi məqsədilə “Liderlik Bacarıqları – Orta Xətt Rəhbərləri üçün İmkanların Artırılması” mövzusunda inkişaf proqramı həyata keçirmişdir. Bu təşəbbüs gündəlik fəaliyyətin idarə edilməsində və əməkdaşların cəlb olunmasında əsas rol oynayan orta xətt rəhbərləri üçün nəzərdə tutulmuşdur.

Proqram çərçivəsində ünsiyyət, səlahiyyətlərin həvalə edilməsi, fəaliyyətin effektivliyinin idarə olunması və komanda motivasiyası kimi mühüm liderlik bacarıqlarına xüsusi diqqət yetirilmişdir. Təlimdə ümumilikdə 156 əməkdaş iştirak etmişdir. Proqramın məzmunu praktiki ssenarilərə və həmkarlar arasında bilik mübadiləsinə əsaslanmışdır. Bundan başqa, iştirakçılar müxtəlif konsepsiyaları birbaşa olaraq öz vəzifə öhdəliklərinə tətbiq etmişlər. Bu təşəbbüs SOCAR-da liderlik kanalının gücləndirilməsinə, strategiya ilə icra arasındakı mövcud çatışmazlıqların aradan qaldırılmasına, eləcə də iştirakçıların komanda daxilində daha inamlı və səriştəli qərarlar qəbul etməsinə şərait yaratmışdır.

### Mentorluq Proqramı

2024-cü ildə SOCAR-da biliklərin paylaşılması, nəsildən-nəslə ötürülməsi və karyera inkişafının dəstəklənməsi məqsədilə strukturlaşdırılmış Mentorluq Proqramına start verilmişdir. Proqram çərçivəsində ortaq peşəkar məqsədlər və inkişaf maraqları əsasında təcrübəli mütəxəssislər (mentorlar) gənc əməkdaşlarla birlikdə çalışmışdır. Proqramda ümumilikdə 28 mentor və 39 menti iştirak etmişdir. Müntəzəm keçirilən mentorluq sessiyaları iştirakçılar üçün peşəkar rəhbərlik, şəbəkələşmə və bilik mübadiləsi imkanları yaratmışdır. Bu proqram müəssisələrarası əlaqələrin gücləndirilməsinə və davamlı öyrənmə mədəniyyətinin formalaşmasına töhfə vermişdir.

### Qadın Liderlər Proqramı

SOCAR gender bərabərliyini təşviq etmək və enerji sektorunda qadınların peşəkar inkişafını dəstəkləmək məqsədilə hesabat ilində “Qadın Liderlər” Proqramına başlamışdır. Təşəbbüsün əsas məqsədi qadın əməkdaşların liderlik rolu oynaması üçün zəruri olan müvafiq bacarıqları, özünəinamı və strateji baxış tərzini gücləndirmək olmuşdur.

Proqramın ilk qrupunda 11 qadın əməkdaş iştirak etmişdir. Təlim sessiyaları liderlik kimliyinin formalaşdırılması, strateji ünsiyyət bacarıqları və karyeranın planlaşdırılması kimi mövzuları əhatə etmişdir.

İştirakçılar öz həmkarları ilə müzakirələr aparmış və rəhbərlərdən mentorluq dəstəyi almışlar.

Bu proqram SOCAR-ın rəhbərlik strukturunda müxtəlifliyə, inklüzivliyə və bərabər imkanların təmin olunmasına sadiqliyini bir daha nümayiş etdirmişdir. Təlim proqramı daha balanslı və nümunəvi liderlik kanalının formalaşmasında mühüm rol oynamışdır.

### SOCAR-ın Xarici Təqaüd Proqramı

SOCAR 2006-cı ildən etibarən istedadlı gənclərin aparıcı beynəlxalq universitetlərdə yüksək keyfiyyətli təhsil almasını dəstəkləmək məqsədilə Xarici Təqaüd Proqramını həyata keçirir. Proqramın əsas məqsədi gənc mütəxəssisləri Azərbaycanın neft-qaz sənayesinin inkişafına töhfə verən qabaqcıl bilik və bacarıqlarla təmin etməkdir.

Hər il onlarla tələbə bu proqram çərçivəsində xaricdə təhsil almaq imkanı qazanır. Onlar təhsillərini başa vurduqdan sonra milli enerji sektorunun inkişafına və innovativ təşəbbüslərin həyata keçirilməsinə fəal şəkildə töhfə verirlər.

2024-cü ildə də bu ənənə davam etmişdir. Belə ki, 9 tələbə nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmış, 1 məzun isə təhsilini uğurla başa vuraraq “SOCAR Downstream”-də fəaliyyətə başlamışdır.



## Bakı Ali Neft Məktəbinin Təqaüd Proqramı

Bakı Ali Neft Məktəbində müvafiq ixtisas üzrə müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədilə MBA üzrə təhsil alan SOCAR Qrup əməkdaşları üçün təqaüd proqramı həyata keçirilir. Təqaüd proqramı hər yeni tədris ilinə şamil olunur və təqaüd proqramına qoşulmuş SOCAR Qrup əməkdaşlarının təhsil haqları qarşılanır.

BANM Təqaüd Proqramınının əsas məqsədləri əməkdaşların peşəkar kvalifikasiyasının inkişaf etdirilməsinə dəstək olmaq, onları davamlı təhsil almağa həvəsləndirmək, əməkdaşların səriştəlilik, xidməti fəaliyyətin məhsuldarlığı və təşəbbüskarlıqlarını artırmağa yardım etmək və yüksək potensiallı işçilərin inkişafına dəstək göstərməkdir.

2024/2025-ci tədris ilində SOCAR-ın iki əməkdaşı bu təqaüdü qazanaraq BANM-də MBA təhsilinə başlamışdır.

## "ProEx" – Peşəkar Maliyyəçilər üçün Dayanıqlı İnkişaf Proqramı

SOCAR məqsədyönlü inkişaf proqramları vasitəsilə daxili istedadların inkişafına sərmayə yatırır. Bu təşəbbüslərdən biri də "ProEx"–Peşəkar Maliyyəçilər üçün Dayanıqlı İnkişaf Proqramıdır. Proqramın əsas məqsədi "SOCAR Group"un maliyyə icmasında maliyyə mütəxəssislərinin texniki və liderlik bacarıqlarını gücləndirmək, onları ən qabaqcıl bilik və bacarıqlarla təmin etmək, strateji qərarların verilməsi prosesini dəstəkləmək, eləcə də şirkətin uzunmüddətli və davamlı inkişafına töhfə verməkdir.

Hesabat ilində SOCAR-ın müxtəlif törəmə müəssisələrindən olan 25 maliyyə mütəxəssisi proqramda iştirak etmişdir. Proqramım kurikulumu müxtəlif texniki mövzuları (maliyyə təhlili, texniki-iqtisadi əsaslandırma və maliyyə modelləşdirməsi, praktiki verginin optimallaşdırması, makroiqtisadi tendensiyalar, maliyyə innovasiyaları, maliyyədə informasiya təhlükəsizliyi, eləcə də müasir layihələrin maliyyələşdirilməsi və qiymətləndirmə üsulları) əhatə etmişdir.

Proqramda həmçinin yumşaq bacarıqların inkişafına xüsusi diqqət ayrılmışdır. İştirakçılar emosional intellekt, liderlik ünsiyyəti və yüksək nəticə göstərən komandaların idarə olunması strategiyası kimi mövzularda öz bilik və bacarıqlarını təkmilləşdirmişlər.

## Təlim mərkəzinə qəbul

SOCAR-ın Təlim mərkəzinə qəbul Proqramı enerji sektorunda artan tələbata cavab vermək məqsədilə yerli vətəndaşların müxtəlif texniki və peşə sahələrində ixtisaslaşmasını təmin edir. Proqram iştirakçıları qaynaq, elektrik işləri, maşınların istismarı və sənayeyə texniki xidmət kimi mühüm sahələrdə nəzəri və praktiki təlimlər alırlar.

Hər il yüzlərlə Azərbaycan vətəndaşı bu proqramda iştirak edir. Təkcə 2024-cü ildə SOCAR-ın təlim mərkəzlərinə 22 müxtəlif peşə istiqaməti üzrə 497 nəfər qəbul olunmuşdur və onlar hal-hazırda öz ixtisasları üzrə təhsillərini davam etdirirlər. Təlimləri uğurla başa vuran iştirakçılar SOCAR-ın əməliyyat ehtiyacları əsasında işə qəbul edilir. Bu yanaşma yüksəkixtisaslı kadrlara olan tələbatın ödənilməsinə kömək edir.

İnkişaf proqramı milli məşğulluğun dəstəklənməsində, yerli işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsində və SOCAR-ın fəaliyyət sahələri üçün ixtisaslı kadrların təmin edilməsində mühüm rol oynayır.

## 2022-2024-CÜ İLLƏR ÜZRƏ CƏMİ TƏLİM SAATLARI

Şəkil 32. Şirkətlər üzrə cəmi təlim saatları



# İŞÇİLƏRİN RİFAHI

SOCAR işçi rifahına insan kapitalı strategiyasının əsas komponenti kimi xüsusi diqqət yetirir. Şirkət əməyin mühafizəsi, sağlamlıq və təhlükəsizlik, maliyyə təminatı, həmçinin işlə şəxsi həyat arasındakı balansı əhatə edən kompleks yanaşma tətbiq edərək işçi qüvvəsinin rifahını dəstəkləyir. Sağlam və dəstəkləyici iş mühitinin yaradılması əməkdaşların məmnunluğunu artırmaqla yanaşı, təşkilatın dayanıqlılığının gücləndirilməsinə də xidmət edir.

SOCAR bu kontekstdən yanaşaraq işçi qüvvəsinin dəyişən ehtiyaclarına və beynəlxalq standartlara cavab vermək məqsədilə  işçi rifahı proqramlarını mütəmadi olaraq qiymətləndirir və təkmilləşdirir. Bu təşəbbüslərə profilaktik səhiyyə xidmətlərinə çıxış, stressin idarə olunmasına dəstək, istirahət və asudə vaxt imkanları, sığorta təminatı, nəqliyyat xidmətləri, eləcə mənzil təminatı və idman infrastrukturundan istifadə imkanları daxildir.

SOCAR bu istiqamətdə atılan addımların davamı olaraq, Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsi ilə birlikdə 2024–2026-cı illəri əhatə edən Sahə Kollektiv Müqaviləsi hazırlamışdır. Müqavilə çərçivəsində əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılmasına yönəlmiş “Sosial müdafiə” adlı bölməyə əlavə müddəalar daxil edilmişdir.

## Sağlamlıq və Sığorta Təminatı

SOCAR əməkdaşlarının fiziki, emosional və maliyyə rifahını təmin etmək məqsədilə onlara geniş sığorta paketi təqdim edir. Əməkdaşlar Könüllü Tibbi Sığorta Proqramı çərçivəsində ölkənin aparıcı klinikalarında illik 120000 AZN-dək dəyərdə olan tibbi xidmətlərdən faydalana bilirlər. Proqrama profilaktik müalicə, stasionar və ambulator xidmətlər, müntəzəm tibbi müayinələr və müalicədən sonrakı reabilitasiya daxildir. Proqramın mühüm xüsusiyyətlərindən biri də peşə xəsarəti almış keçmiş işçilərinin də uzunmüddətli dəstək mexanizmləri ilə təmin olunmasıdır.

Könüllü tibbi sığortadan əlavə, bütün əməkdaşlar “PAŞA Həyat Sığorta” şirkəti ilə birgə həyata keçirilən “İstehsalatda Bədbəxt Hadisələr və Peşə Xəstəlikləri üzrə İcbari Sığorta” proqramına daxildir. Bu mexanizm iş yerində baş verən qəza və ya peşə xəstəliyi nəticəsində yaranmış daimi əlilliyə və ya ölüm hallarına görə kompensasiyanın verilməsini təmin edir. SOCAR maliyyə təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə işçilərinə həmçinin qlobal miqyasda qüvvədə olan “Müddətli Həyat və Kritik Xəstəlik Sığortası” təklif edir. Bu proqram işçiləri 24/7 rejimində hər hansı səbəbdən ölüm və 11 mühüm xəstəlikdən qorumaqla yanaşı, ölüm hallarında ailə üzvlərinə sığorta ödənişləri, diaqnoz nəticələrinin təsdiqləndiyi halda isə işçiləri kompensasiya təmin edir.

Bu əhatəli sığorta sistemi SOCAR-ın əməkdaşlarının qorunmasına və uzunmüddətli rifahının təmin edilməsinə yönəlmiş fəal yanaşmasının bariz nümunəsidir.

## Psixoloji Dəstək və Mental Sağlamlıq

“Qayğı” korporativ dəyərinə uyğun olaraq SOCAR əməkdaşlarının mental sağlamlığını dəstəkləmək məqsədilə Psixoloji Dəstək Layihəsini həyata keçirmişdir. Komandada ümumi psixoloji fonun müsbət olması, dəstək xidmətinin əməkdaşların fərdi ehtiyaclarına uyğun olmasının təmin edilməsi SOCAR üçün böyük önəm daşıyır.

2024-cü ildə layihə çərçivəsində sertifikatlı və peşəkar sahə üzrə mütəxəssislər tərəfindən ümumilikdə 200 fərdi psixoloji konsultasiya və kouçinq sessiyası təşkil edilmişdir. Bunlarla yanaşı, layihəyə dörd maarifləndirici təqdimat, “Açıq Söhbət Günü” və vebinar da daxil edilmişdir. Bu tədbirlər stiqmanın azaldılmasına, psixi sağlamlıq mövzusunda məlumatlılığın və fərgindəliyin artırılmasına, eyni zamanda emosional rifahla bağlı açıq dialoqun təşviqinə xidmət etmişdir.

Bu sessiyalar işçilər üçün təhlükəsiz və tamamən konfidensial müzakirə mühiti yaratmaqla yanaşı, stressin idarə olunması və tükənmişlik sindromunun aradan qaldırılması üçün praktiki bacarıqlar qazandırmışdır. Psixoloji dəstəyin işçi rifahı strategiyasına inteqrasiya olunması daha sağlam, daha motivasiyalı işçi qüvvəsinin formalaşmasına verilmiş töhfələri özündə əks etdirir.

## Çevik İş Rejiminin Təşkili

SOCAR iş və şəxsi həyat balansının əhəmiyyətini, həmçinin əməkdaşların dəyişən ehtiyaclarını nəzərə alaraq çevik iş rejiminin tətbiqinə xüsusi önəm verir.

Bu məqsədlə Şirkət müxtəlif vəzifələr üzrə çevik iş saatlarını müəyyən etmişdir ki, bu da əməkdaşlara peşəkar öhdəliklərini şəxsi həyat tələbləri ilə daha optimal şəkildə uyğunlaşdırmağa imkan yaradır.

Bundan əlavə, SOCAR, xüsusən də müstəsna hallarda məsafədən işləməni dəstəkləmək üçün lazımi texniki və təşkilati infrastruktur yaratmışdır. Bu təşəbbüslər təhlükəsiz rəqəmsal platformalar, daxili kommunikasiya vasitələri və mühüm sistemlərə çıxış imkanları ilə dəstəklənir, fəaliyyətin fasiləsizliyini və əməkdaşların məhsuldarlığını təmin edir.

Çevik iş rejiminin tətbiqi əməkdaşların rifahını və məmnuniyyətini artırmaqla yanaşı, təşkilatın dayanıqlılığını və əməliyyat çevikliyini gücləndirir. Bu yanaşma SOCAR-ın müasir iş mühiti standartlarına uyğunlaşmasını, dəyişən gözləntilərə operativ adaptasiya qabiliyyətini və qabaqcıl əmək münasibətləri təcrübələrinin tətbiqinə sadiqliyini nümayiş etdirir.

## Sosial və Maliyyə Dəstəyi

SOCAR strukturlaşdırılmış və ədalətli dəstək mexanizmləri vasitəsilə işçilərin sosial rifahının yaxşılaşdırılmasına və onların maliyyə ehtiyaclarının aradan qaldırılmasına xüsusi diqqət yetirir. 2024-cü ildə Şirkət “SOCAR-ın İşçilərinə Maddi Yardım Verilməsi haqqında Əsasnamə”yə uyğun olaraq müvafiq əməkdaşlara və onların ailə üzvlərinə maliyyə dəstəyi göstərmişdir. Bu siyasət çərçivəsində vəfat etmiş əməkdaşların yetkinlik yaşına çatmayan övladları şirkətin himayəsi altına alınmış, 18 yaşına qədər (ali təhsil müəssisələrinə daxil olduqda isə 23 yaşına qədər) müddətdə minimum əmək haqqının 2,5 misli məbləğində aylıq müavinətlə təmin edilmişdir. Bundan əlavə, Qarabağ müharibəsində şəhid olmuş əməkdaşların övladlarına minimum əmək haqqının 5 misli məbləğində maddi yardım verilmişdir. Hesabat ilində ümumilikdə 14184 nəfərə 11,9 milyon manat məbləğində yardım göstərilmişdir. Bu tədbirlər SOCAR-ın əməkdaşlarının və onların ailələrinin rifahının, xüsusən də şəxsi çətinliklər zamanı yaxşılaşdırılmasına xidmət etmişdir. SOCAR bu dəstək mexanizmini və bazasını gücləndirərək işçilərə qayğı strategiyasında davamlılığı, ədalətliliyi və xeyirxahlığı təşviq etmişdir.

## Sosial İnkişaf Proqramının Həyata Keçirilməsi

SOCAR, işçilərin rifahına və iş yerinin dayanıqlı inkişafına yönəlmiş strateji baxış çərçivəsində, “İşçilərin Rifahının Yaxşılaşdırılması üzrə 2021–2025-ci illərdə Sosial İnkişaf Proqramı”nın icrasını bütün struktur bölmələrdə davam etdirmişdir. Bu çoxillik təşəbbüs sosial ehtiyacları sistemli şəkildə aradan qaldırmaq, iş şəraitini yaxşılaşdırmaq, eləcə də sənaye və inzibati vahidlərdə işçilərin həyat keyfiyyətini artırmaq məqsədini daşıyır.

Bu proqram infrastrukturun yenilənməsini, iş rahatlığının artırılmasını və işçi qüvvəsinin istifadə etdiyi sosial və yardımçı obyektlərin müasirləşdirilməsini əhatə edir. 2024-cü ildə şirkətin müxtəlif qurumlarında ümumilikdə 18 planlaşdırılmış tədbir uğurla həyata keçirilmiş, 43 əlavə tədbirin icrası isə davam etdirilmişdir.

Müvafiq nəzarət və şəffaflığın təmin edilməsi məqsədilə SOCAR prezidentinin rəsmi göstərişi əsasında yaradılmış Monitorinq Qrupu 143 bölmədə iş yeri infrastrukturunun hərtərəfli qiymətləndirilməsini həyata keçirmişdir. Nəticədə istehsalat sahələri, inzibati binalar, sosial obyektlər, yataqxanalar, idman zalları və digər yardımçı tikililər daxil olmaqla 1593 obyektdə yoxlamalar aparılmışdır.

Yoxlamalar zamanı ümumilikdə 2400 uyğunsuzluq halı aşkarlanmış, onlardan 1142-si tam aradan qaldırılmış, 723 hal üzrə isə müvafiq tədbirlər həyata keçirilir. Bu tədbirləri sayəsində iş mühitinin təhlükəsizliyi və funksionallığı təmin edilir.

Paralel olaraq, SOCAR-ın aktivləri üzrə əsaslı və cari təmir-yenidənqurma işləri başa çatdırılmışdır: 121 sosial yönümlü obyekt təmir edilmiş, 51 yerdə əsaslı təmir aparılmış və 5 yeni sosial infrastruktur obyekti tikilmişdir.

## Mənzil Təminatına Dəstək

SOCAR işçilərin rifahını və həyat standartlarını dəstəkləmək məqsədilə hesabat ili ərzində mənzil təminatına dəstək sahəsində fəaliyyətini davam etdirmişdir. 2024-cü ildə “Neftçi” MTK-nın təşəbbüsü çərçivəsində şirkətin mənzil növbəsində qeydiyyatda olan 100 əməkdaş mənzillə təmin edilmişdir. Qeyd etmək lazımdır ki, bu şəxslərdən 9-u dövlət qayğısı müəssisələrində böyümüş, SOCAR-ın peşə hazırlığı proqramlarını tamamlamış və hazırda şirkətdə işlə təmin olunmuş əməkdaşlardır.

Bundan əlavə, mənzil reyestrində qeydiyyatda olan 14 neftçi ailəsinə fərdi yaşayış evinin tikintisi üçün torpaq sahələri verilmişdir. Bu bölgü əsasında artıq 335 torpaq sahəsi tam ayrılmışdır. SOCAR davamlı və uzunmüddətli təşəbbüslər çərçivəsində mənzil şəraitinin yaxşılaşdırılmasını, təmin etmişdir.



# ƏMƏK MÜNASİBƏTLƏRİNİN İDARƏ EDİLMƏSİ

## Əmək Münasibətlərinin İdarə Edilməsi

Effektiv əmək münasibətləri SOCAR-ın insan kapitalı strategiyasının və uzunmüddətli təşkilati dayanıqlığının əsas dayaqlarından biridir. Şirkət qarşılıqlı hörmətə, açıq ünsiyyətə, eləcə də yerli və beynəlxalq əmək standartlarına tam uyğunluğa əsaslanan iş mühitinin formalaşdırılmasına sadiqdir. SOCAR əməkdaşlarla davamlı və məqsədyönlü dialoqun qurulmasına, iş mühitində yarana biləcək mübahisəli məsələlərin vaxtında müəyyən edilməsinə və onların mövcud institusional mexanizmlər çərçivəsində səmərəli şəkildə həllinə üstünlük verir.

Şirkət tərəfindən tətbiq olunan şəffaf və ardıcıl əmək praktikaları kollektiv daxilində qarşılıqlı etimadi möhkəmləndirir, əməkdaşların korporativ idarəetmə sisteminə inamını artırır. Əmək münasibətləri SOCAR üçün yalnız potensial risklərin azaldılması vasitəsi kimi deyil, eyni zamanda təşkilati sabitliyin, əməyin məhsuldarlığının və uzunmüddətli inkişafın əsas elementlərindən biri kimi qiymətləndirilir.

SOCAR-ın əmək münasibətləri çərçivəsinin əsas elementlərindən biri işçi təmsilçiliyinin və kollektiv qərarvermə proseslərinin fəal şəkildə dəstəklənməsidir. Bütün əməkdaşlar əməyin ödənilməsi şərtləri, iş vaxtı, məzuniyyət siyasəti, mübahisələrin həlli və sosial təminatlar da daxil olmaqla geniş spektrli əmək şərtlərini tənzimləyən Kollektiv Müqavilə ilə əhatə olunur. Bu müqavilə rəhbərliklə işçi nümayəndələri arasında aparılan konstruktiv dialoqun nəticəsi olub dəyişən qanuni tələbləri və işçi qüvvəsinin gözləntilərini əks etdirmək üçün vaxtaşırı olaraq yenilənir. SOCAR həmçinin əməkdaşların hüquqlarının müdafiəsində, onları narahat edən məsələlərin ifadə edilməsində və əmək siyasətinin formalaşdırılmasında mühüm rol oynayan, rəsmi qeydiyyatdan keçmiş həmkarlar ittifaqları ilə sıx əməkdaşlıq münasibətlərini davam etdirir.

Əmək mübahisələri və şikayətlər yarandıqda, SOCAR belə məsələlərin həlli üçün qərəzsiz, məxfi və hüquqi normalara uyğun formal prosedurlar tətbiq edir. Bu mexanizmlər sənaye sahəsində sülhün qorunmasına xidmət etməklə yanaşı, əməkdaşlarla rəhbərlik arasında qarşılıqlı etimadı da gücləndirir.

Yerli işə qəbul göstəriciləri Azərbaycan üzrə (o cümlədən baş ofis və şirkətin strukturuna daxil olan törəmə müəssisələr) 99%, "SOCAR Türkiye" üzrə 97%, "SOCAR Energy Georgia" üzrə isə 97% təşkil etmişdir. "SOCAR Energy Switzerland" üzrə göstəricilərin ayrıca təqdim olunması planlaşdırılır.

Siyasətin açıqlanmasına gəldikdə, qeyd etmək lazımdır ki, SOCAR-ın bu mövzuda ayrıca rəsmi siyasət sənədi yoxdur, çünki yerli işə qəbul prosesləri yerli qanunvericiliyin, xüsusilə də Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 63-cü maddəsinin və Hasilatın Pay Bölgüsü Sazişlərinin (PSA) müddəaları əsasında tənzimlənir. Bu normativ-hüquqi baza vətəndaşların məşğulluğuna dair tələbləri müəyyənləşdirərək yerli işə qəbul prosesinin əsasını təşkil edir.

## Təşkilatı Dəyişikliklər barədə Qabaqcadan Bildirişin Verilməsi

SOCAR əməkdaşlara təsir göstərə biləcək təşkilati və ya struktur dəyişiklikləri ilə bağlı məsələlərdə əmək qanunvericiliyinə və Şirkət üzrə qüvvədə olan Kollektiv Müqavilənin müddəalarına ciddi şəkildə riayət edir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinin "b" bəndinə, habelə Kollektiv Müqavilədə nəzərdə tutulmuş tələblərə uyğun olaraq, əməkdaşlar onların məşğulluq statusuna təsir edə biləcək dəyişikliklər barədə əvvəlcədən məlumatlandırılmaq hüququna malikdirlər.

Xəbərdarlıq müddəti əməkdaşın iş stajından asılı olaraq müəyyən edilir və qarşıdan gələn dəyişikliklərə hazırlıq üçün kifayət qədər vaxtın təmin edilməsinə yönəlib. Bu yanaşma SOCAR-ın şəffaflı, qanunvericiliyə uyğunluq və məsuliyyətli idarəçiliyinə güclü sadiqliyini nümayiş etdirir.

SOCAR qabaqcıl qaydaları tətbiq edərək təşkilati dəyişikliklərin əmək hüquqları ilə uzlaşdırılmasını təmin edir, eləcə də işçilər üçün təhlükəsiz və proqnozlaşdırıla bilən mühit yaradır.

# PERFORMANSIN İDARƏ EDİLMƏSİ

SOCAR insan kapitalının idarə edilməsi strategiyası çərçivəsində işçilərin fərdi performans göstəricilərinin Şirkətin korporativ hədəfləri ilə uyğunluğunu təmin etmək üçün mütəmadi olaraq performans idarəetmə sistemi üzrə yanaşmasını təkmilləşdirir. Performans mədəniyyətinin gücləndirilməsi müəyyən edilmiş hədəflərə nail olunmasında, əməkdaşların proseslərdə aktiv iştirakının təşviq edilməsində və onların davamlı peşəkar inkişafının dəstəklənməsində mühüm rol oynayır.

Performans idarəetmə sistemi şəffaf və strukturlaşdırılmış proseslər əsasında həyata keçirilir və hədəflərin müəyyən edilməsi, ilortası nəzərdən keçirilmə və performansın ilsonu qiymətləndirilməsi və kalibrasiyası mərhələlərini əhatə edir. 2023-cü ilin yekun performans qiymətləndirməsi və kalibrasiya prosesinin nəticəsi olaraq, fəhlə heyəti də daxil olmaqla, ümumilikdə 42269 əməkdaşa performans əsaslı mükafatlandırma ödənişləri həyata keçirilmişdir. Bu stimullaşdırma təşəbbüsləri SOCAR-ın strateji və əməliyyat hədəflərinə nail olunmasında əməkdaşların fərdi və komanda səviyyəsində verdiyi töhfələrin tanınmasını təmin edir.

2024-cü ildən tətbiq edilən yeni performansın idarə edilməsi sistemi çərçivəsində SOCAR üzrə bütün qulluqçu-mütəxəssis heyəti üçün Əsas Səmərəlilik Göstəriciləri (ƏSG) təyin edilmişdir. Performansın idarə edilməsi sistemi gözləntilərin dəqiq müəyyənləşdirilməsi, konstruktiv geribildirim mühitinin formalaşdırılması və ölçüləbilən nəticələrin əldə edilməsi məqsədilə əməkdaşların dəstəklənməsini təmin edir.

Performans mədəniyyətinin gücləndirilməsi məqsədilə rəhbərlərin səmərəli geribildirim bacarıqlarının inkişafına dəstək göstərilir və qiymətləndirmə prosesinin təkmilləşdirilməsi üçün rəqəmsal alətlərdən istifadə edilir. SOCAR bütün biznes vahidlərində ədalətliliyi, inklüzivliyi və şəffaflığı təmin edərək öz təcrübələrini beynəlxalq İR standartlarına uyğunlaşdırır.

Hesabat ilində, SOCAR-da rəhbər heyətin inkişafını dəstəkləmək məqsədilə Liderlik Səriştə Modeli təsdiq edilmiş və Performans idarəetmə sisteminə inteqrasiyası təmin edilərək «Səriştə Kartı» hazırlanmışdır. Bu model rəhbər heyətdən gözlənilən əsas səriştələri müəyyən edir və 2025-ci il üzrə onların strukturlu şəkildə müşahidə edilməsi, qiymətləndirilməsi və zəruri inkişaf tədbirlərinin həyata keçirilməsini təmin edəcəkdir.

Şəkil 33. SOCAR (Azərbaycan) üzrə fərdi məqsədləri müəyyənləşmiş işçilər, 2022–2024




İşçi kateqoriyası üzrə performans idarəetmə sisteminin tətbiq göstəricisi

| | |
|---|---|
| Rəhbər işçilər | 99.4% |
| Mütəxəssislər | 99.6% |
| Texniki işçilər | 99.1% |

Cins kateqoriyası üzrə performans idarəetmə sisteminin tətbiq göstəricisi

| | |
|---|---|
| Kişi | 99.4% |
| Qadın | 99.6% |

# ƏMƏK HAQQI VƏ İMTİYAZLAR

SOCAR işçi töhfələrinin tanınmasına, səmərəlilik göstəricilərinin yüksəldilməsinə və uzunmüddətli motivasiyanın təmin edilməsinə yönəlmiş, strateji məqsədlərə uyğun, çoxsəviyyəli kompensasiya sistemi tətbiq edir. Şirkətin yanaşması sabit əməkhaqqı strukturunu, çevik və performansa əsaslanan stimulları, eləcə də maddi və qeyri-maddi yardımları (mükafatları) əhatə edən əlavə proqramları özündə birləşdirir. Sistemin əsas prinsiplərinə ədalətlilik, şəffaflıq, mükafatlandırma ilə ölçülə bilən nəticələr arasında aydın əlaqənin yaradılması, innovasiyaların təşviqi və korporativ dəyərlərin qorunması daxildir. Kompensasiya siyasətləri bazar şərtlərinin, daxili qiymətləndirmələrin və işçi ehtiyaclarının əsasında mütəmadi olaraq nəzərdən keçirilir. Bu yanaşma rəqabətliliyi qorumaq, ixtisaslı və istedadlı mütəxəssisləri saxlamaq, eləcə də fərdi və təşkilati inkişafı dəstəkləyən peşəkar iş mühiti yaratmaq imkanı verir.

### Xüsusi Töhfələrə görə Birdəfəlik Mükafatlar

SOCAR-ın mükafatlandırma sisteminə əsasən, işçilər konkret istehsalat ehtiyaclarından irəli gələn tapşırıqların icrasına, hərbiləşdirilmiş təhlükəsizlik xidmətlərində göstərilən fədakarlığa, habelə ictimai-siyasi əhəmiyyətli tədbirlərdə fəal iştirak səviyyəsinə görə birdəfəlik pul mükafatı ilə təltif oluna bilərlər. Bu mükafatlar yüksək məsuliyyət tələb edən və ya qeyri-standart situasiyalarda yerinə yetirilən fərdi öhdəliklərə görə verilir və seçim əsasında təqdim olunur. Sözügedən mükafatlandırma mexanizmi peşəkar fədakarlığın dəyərini vurğulayır və hər bir işçinin unikal töhfəsinə hörmətlə yanaşmaq mədəniyyəti formalaşdırır.

### İllik Performansa Əsaslanan Bonus Proqramı

SOCAR-ın stimullaşdırıcı tədbirlər bazasının əsas komponenti nəticəyönümlü mədəniyyətin inkişafında mühüm rol oynayan və illik fəaliyyətə əsaslanan bonus proqramıdır. Bu proqram çərçivəsində işçilər fərdi və korporativ səviyyədə aydın və ölçülə bilən nailiyyətlərə görə mükafatlandırılır. Fərdi fəaliyyət göstəricilərinin qiymətləndirilməsi, ümumi nəticələrə töhfələrin verilməsi, eləcə də gözlənilən və ya gözləniləndən artıq nəticələr əldə edən işçilərin tanınması proqramın əsas elementləri hesab edilir. Qiymətləndirmə prosesində işin keyfiyyəti, fəaliyyətin təsiri və effektivliyi, o cümlədən Şirkətin strateji məqsədləri nəzərə alınır. Müvafiq rəhbərlər bütün struktur bölmələrində ədalətliliyi və şəffaflığı təmin etmək üçün işçilərin fəaliyyət göstəricilərini əvvəlcədən müəyyən edilmiş ƏSG bal kartları əsasında qiymətləndirirlər. Bonusların nəticələrdən birbaşa asılı olması proqramın hesabatlılığını gücləndirir, davamlı təkmilləşdirməyə zəmin yaradır və effektiv davranışları təşviq edir. Proqram eyni zamanda yüksək ixtisaslı kadrların saxlanılmasına və nailiyyətə fokuslanan, güclü iş mühitinin yaradılmasına xidmət edir.

Performansa əsaslanan bonus proqramı SOCAR-da fərdi və kollektiv nailiyyətləri tanımaq, meritokratiya mədəniyyətini təşviq etmək və ölçülə bilən fəaliyyət ilə maliyyə mükafatı arasında birbaşa əlaqəni təmin etmək öhdəliyini özündə əks etdirir.

### Dəyər Yaratma və İnnovativ Təşəbbüs Proqramları

SOCAR davamlı təkmilləşdirməyə təkan vermək və işçilərin əməkdaşlığını gücləndirmək üçün bir sıra müəssisələrdə Dəyər Yaratma və İnnovativ Təşəbbüs Proqramlarının icrasına başlamışdır. Bu təşəbbüslər fəaliyyətin effektivliyi, rəqəmsal transformasiya, təhlükəsizliyin gücləndirilməsi və ekoloji fəaliyyət göstəricilərin yüksəldilməsi yolu ilə maddi dəyər yaradan ideyaları müəyyən etmək, həvəsləndirmək və mükafatlandırmaq məqsədi daşıyır. “Azneft” İB-də “Dəyər Qat, Dəyər Qazan” və “Azəriqaz” İB-də “QAZandım” kimi proqramlar çərçivəsində SOCAR-ın işçiləri Şirkətin strateji məqsədlərinə birbaşa töhfə verən yenilikləri və qənaətcil tədbirləri təklif etmək üçün dəvət edilir. Qiymətləndirmə komitələri təqdimatları texniki-iqtisadi əsaslandırma, dayanıqlılıq və təsir kimi meyarlar əsasında nəzərdən keçirirlər. İdeyaları həyata keçən işçilər maddi mükafatlar və ictimai rəğbət qazanaraq mülkiyyət və yaradıcılıq mədəniyyətinin formalaşmasına töhfə verirlər.

Bu proqramlar maliyyə stimullarından başqa, dəyişikliklərin idarə edilməsində və prosesin optimallaşdırılmasında inklüziv iştirakın təmin edilməsi üçün platforma rolunu oynayır. SOCAR innovasiyaları bu yanaşma əsasında təqdim etməklə, işçilərə biznes gələcəyini formalaşdırmaq və uzunmüddətli dəyərlərin yaradılmasına verdiyi töhfələrlə fəxr etmək imkanı yaradır.

2024-cü il ərzində 121 nəfər (86 kişi və 35 qadın) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Fəxri Neftçi” döş nişanı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə Neftçilər Günü münasibətilə və ölkənin neft sənayesinin inkişafında göstərdikləri xüsusi xidmətlərə görə əməkdaş müxtəlif dövlət mükafatları ilə təltif olunmuşdur. Hesabat dövründə 1 nəfər “Əməkdar mühəndis” fəxri adı, 4 nəfər (3 kişi və 1 qadın) 3-cü dərəcəli “Əmək” ordeni, 24 nəfər (18 kişi və 6 qadın) “Tərəqqi” medalı ilə təltif olunmuşdur. Bundan əlavə, 284 nəfərə (187 kişi və 97 qadın) fəxri fərman verilmişdir.





# MÜXTƏLİFLİK, BƏRABƏRLİK VƏ İNKLÜZİVLİK

SOCAR müxtəliflik, ədalət və inklüzivlilik iş mühitinin formalaşdırılmasına sadiqdir və hər bir əməkdaş həmin mühitdə dəyər və hörmətlə qarşılanır.Şirkət öz fəaliyyətini cinsindən, yaşında, milliyyət, dinindn və digər şəxsi xüsusiyyətlərindən asılı olmayaraq bütün əməkdaşlar üçün bərabər imkanların yaradılması prinsipi əsasında qurmuşdur. Təşkilat daxilində işə qəbul, peşəkar inkişaf və karyera yüksəlişi üçün hər hansı formada ayrı-seçkiliyə yol verilmədən, bərabər imkanlar təmin olunmaqdadır. SOCAR inklüzivliyin yalnız tələblərə uyğunluq məsələsi deyil, eyni zamanda innovasiyaların təşviqi, işçi məmnuniyyətinin artırılması və uzunmüddətli biznes uğurunun aparıcı amillərindən olduğu fikrini qəbul edir. SOCAR Gender müxtəlifliyini daha da təşviq etmək məqsədilə qərəzsiz iş təsvirlərindən, standartlaşdırılmış qiymətləndirmə meyarlarından və müxtəlif tərkibli müsahibə panellərindən istifadə də daxil olmaqla, genderə neytral və inklüziv işə qəbul təcrübələri tətbiq edir. Bu yanaşmalar ilk mərhələdən başlayaraq bütün namizədlər üçün ədalətli və bərabər imkanların təmin edilməsinə xidmət edir.

Bu strategiyanı dəstəkləyən əsas təşəbbüslərdən biri də qadınların fəal iştirakını təşviq edən “Gənc İstedadların Təcrübə Proqramı”dır. 2024-cü ildə proqram iştirakçılarının 49 faizini (56 nəfər) qadınlar təşkil etmişdirsə, 2025-ci ildə bu göstərici 57 faizə (66 nəfər) yüksəlmişdir. İxtisasların əksəriyyətinin istehsalat və texniki sahələrlə birbaşa bağlı olduğunu nəzərə aldıqda, bu nəticə xüsusi əhəmiyyət kəsb edir.

Enerji sektorundakı əməliyyatların xarakteri nəzərə alındıqda, hal-hazırda qadınların işçi qüvvəsində nisbətən azlıq təşkil etdiyi müşahidə edilir. Bununla belə, SOCAR qadınların bu sahədə iştirakının davamlı şəkildə gücləndirilməsi, onların liderlik və texniki rol imkanlarının artırılması, eləcə də nailiyyətə və fəaliyyət göstəricilərinə əsaslanan mükafatlandırma, imtiyaz və irəliləyiş imkanlarının yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Bu təşəbbüslər bərabərlik prinsipinə və hörmətə əsaslanan təhlükəsiz iş mühitinin yaradılmasını təmin edən təsdiqlənmiş siyasətlərdən, daxili prosedurlardan və hüquqi müdafiə vasitələrindən ibarət olan, geniş və daxili baza əsasında həyata keçirilir.

SOCAR davamçılarının hazırlanması prosesi çərçivəsində, biznes vahidlərinin istedad ehtiyatlarında qadınların təmsilçiliyini, xüsusən də onların liderlik və strateji əhəmiyyətli rollarda daha çox iştirak etməsini təmin etmək üçün xüsusi hədəflər müəyyənləşdirilmişdir. Bu istiqamətdə atılan addımlar şirkətin bütün səviyyələrdə daha balanslı, inklüziv və gələcəyə hazır istedad ehtiyatı formalaşdırılması üçün tətbiq olunan uzunmüddətli strategiyasının ayrılmaz hissəsidir.

Bu dəyərləri rəsmi mexanizmə çevirməklə, SOCAR aidiyyət, ədalət və qarşılıqlı hesabatlılıq mədəniyyətini təşviq edir. Şirkət mütəmadi olaraq insan resursları təcrübələrini nəzərdən keçirir, qərəzli yanaşmalara dair maarifləndirmə və inklüziv liderlik mövzularında təlimlər təşkil edir, eləcə də müxtəlifliyi təşviq etmək məqsədilə müvafiq tərəfdaşlarla əməkdaşlıq edir. SOCAR bu davamlı təşəbbüsləri həyata keçirməklə, sosial ədalət və korporativ etika prinsiplərinə cavab verən, məsuliyyətli şirkət olaraq öz mövqeyini bir daha təsdiqləyir.

Şəkil 34. SOCAR (Azərbaycan) üzrə işçilərin ümumi sayı

# 48.069

Yaş üzrə göstəricilər

| < 30 yaş | 30-50 yaş | > 50 yaş |
|---|---|---|
| 9 % | 49.4 % | 41.7 % |

Cins üzrə göstəricilər

| Qadın | Kişi |
|---|---|
| 16 % | 84 % |

İşçi kateqoriyaları üzrə göstəricilər

| | | |
|---|---|---|
| Rəhbərlər | 9 % | 91 % |
| Mütəxəssislər | 32 % | 68 % |
| Texniki icraçılar | 31 % | 69 % |
| Fəhlələr | 12 % | 88 % |

Sosial məzuniyyətdən qayıtma və işdə saxlanma göstəricisi

# 100%

# BEŞ ƏSAS ÖLKƏ



| | Türkiyə | Gürcüstan | Ukrayna | İsveçrə | Avstriya |
|---|---|---|---|---|---|
| Ümumi sayı | 5.688 | 4.353 | 1.777 | 806 | 208 |
| Qadın | 15% | 27% | 54% | 66.50% | 61.10% |
| Kişi | 85% | 73% | 46% | 33.50% | 38.90% |
| < 30 yaş | 14% | 14% | 22% | 30% | 23% |
| 30-50 yaş | 80% | 50% | 54% | 48% | 47% |
| > 50 yaş | 6% | 36% | 24% | 22% | 30% |

# İCMA TƏRƏFDAŞLIĞI

SOCAR belə hesab ki, yerli icmalarla güclü, şəffaf və hörmətə əsaslanan münasibətlərin qurulması fəaliyyətin uzunmüddətli dayanıqlılığı baxımından mühüm əhəmiyyət kəsb edir. Şirkət biznes məqsədlərini müvafiq icmaların ehtiyac və gözləntiləri ilə uzlaşdırmaqla məsuliyyətli korporativ vətəndaş kimi çıxış etmək fikrinə sadiqdir. SOCAR açıq dialoqu, qarşılıqlı hörməti, həmçinin hüquqi və etik normalara riayəti təmin etməklə yerli inkişafa və sosial rifaha müsbət töhfə verir.

SOCAR layihələrin icrası zamanı yerli hakimiyyət orqanları və digər maraqlı tərəflərlə sıx əməkdaşlıq edir, bütün fəaliyyətlərin milli qanunvericilik və yerli qaydalara uyğun şəkildə həyata keçməsini təmin edir. Hesabat dövründə SOCAR-ın şəffaflığa, kompleks qiymətləndirmələrə və məsuliyyətli layihə idarəçiliyinə olan sadiqliyini əks etdirən icma hüquqlarının pozulması halları qeydə alınmamışdır. SOCAR sənaye fəaliyyətini sosial məsuliyyət prinsipləri əsasında həyata keçirmək və fəaliyyət göstərdiyi icmalarla qarşılıqlı etimadı qorumaq istiqamətində ardıcıl təşəbbüslər nümayiş etdirir.

SOCAR müvafiq icmalarla qanuna tabeçilik və hörmətə əsaslanan münasibətlər qurmaqla yanaşı, fəaliyyət göstərdiyi regionların iqtisadi inkişafına da mühüm töhfələr verir. Şirkət məşğulluq imkanlarının yaradılması, yerli müəssisələrin dəstəklənməsi və regional təchizat bazasının gücləndirilməsi vasitəsilə uzunmüddətli dəyərlər yaradır. SOCAR Azərbaycanın müxtəlif bölgələrində aparıcı işəgötürən şirkət kimi fəaliyyət göstərir, işsizliyin azaldılmasına və sosial sabitliyin gücləndirilməsinə töhfə verir. Satınalma və tikinti sahələrində yerli təchizatçılarla və podratçılarla əməkdaşlığın qurulması SOCAR-ın prioritet istiqamətlərindən biridir. Şirkət mal və xidmətlərin yerli bazardan alınmasını təmin edir, o cümlədən kiçik və orta sahibkarlığı dəstəkləməklə yanaşı, regionlarda iqtisadi dəyərin qorunub saxlanılmasına töhfə verir. Bu yanaşma xərc səmərəliliyinin artırılmasına, logistikanın mənfi təsirlərinin azaldılmasına və regional biznes tərəfdaşları ilə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə xidmət edir. Nəticədə SOCAR inklüziv iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri kimi öz mövqeyini gücləndirir və öz fəaliyyəti ilə yerli əhalinin rifahına əhəmiyyətli töhfələr verir.

SOCAR ictimaiyyətlə açıq və məsuliyyətli ünsiyyətin qurulmasına böyük önəm verir və vətəndaş müraciətlərinin vaxtında cavablandırılmasını əsas prioritetlərindən biri hesab edir. Şirkət bütün müraciətlərə həssaslıq və peşəkarlıqla yanaşır, hər bir müraciəti daxili prosedurlar və etik standartlar əsasında nəzərdən keçirir. 2024-cü ildə SOCAR-a sosial məsələlərlə bağlı ümumilikdə 1720 vətəndaş müraciəti daxil olmuşdur. Bu müraciətlərin böyük əksəriyyətinə müəyyən edilmiş müddətlərdə baxılmış, vətəndaşlara ətraflı izahatlar verilmiş və ya müvafiq dəstək göstərilmişdir. Belə yanaşma şəffaflığı və hesabatlılığı gücləndirməklə yanaşı, cəmiyyətin şirkətə olan etimadını artırmışdır. SOCAR əlçatan və çevik kommunikasiya kanalları vasitəsilə sosial yönümlü və məsuliyyətli təşkilat kimi öz mövqeyini qoruyub saxlayır.

## Sosial İnvestisiyalar

SOCAR uzunmüddətli sosial məsuliyyət və öhdəliklər çərçivəsində hesabat ilində "Sosial investisiyalar, Xeyriyyəçilik və Sponsorluq Siyasəti" adlı yeni daxili siyasəti qəbul edərək tətbiqinə başlamışdır. Bu siyasət Şirkətin mədəni təşəbbüslərə, cəmiyyətin inkişafına, təhsilə və ictimai rifaha verdiyi töhfələr üçün strukturlu və şəffaf baza rolunu oynayır.

2024-cü ildə SOCAR bu siyasət çərçivəsində sosial investisiyaları, o cümlədən benefisiarlar üçün ayrılmış qrantları və sponsorluq layihələrini dəstəkləmək üçün məqsədyönlü resurslar ayırmışdır. Bu investisiyalar müsbət sosial nəticələrin əldə olunmasını təmin etməklə yanaşı, milli inkişaf prioritetləri ilə də uyğunluq təşkil etmişdir.

SOCAR sosial xərclərə tətbiq etdiyi yanaşmanı sistemləşdirməklə bütün təşəbbüslərin effektiv olmasını, ədalətli şəkildə həyata keçirilməsini və maraqlı tərəflərin gözləntilərinə cavab verməsini təmin edir. Yeni siyasət eyni zamanda hesabatlılığı gücləndirir və sosial fəaliyyətlərin strateji dəyərini artırır.

## Təhsilə Dəstək

